Azərbaycan Universitetinin nəşri

# ÇAĞLAYAN

Yaz-Yay 2019 (6)

www.au.edu.az




## V European Congress on Economic Issues, 25-27 April 2019

## V AVROPA İQTİSADİ KONQRESİ, 25-27 aprel 2019




Gələcəyini bu gün seç!

AZƏRBAYCAN UNİVERSİTETİ 1991

**AZƏRBAYCAN UNİVERSİTETİ**

www.au.edu.az

AZƏRBAYCAN UNİVERSİTETİ

**10-12 oktyabr**

**13-CÜ AZƏRBAYCAN BEYNƏLXALQ**

# TƏHSİL SƏRGİSİ

**E1122 nömrəli stend**

EDUCATION

ceo caspian event organisers





# ÇAĞLAYAN


**Təsisçi və baş redaktor**
" Azərbaycan Universiteti " MMC adına
Azərbaycan Universitetinin rektoru
Səadət Əliyeva

**Redaksiya heyəti**
Nüşabə Quliyeva
Əli Həsənov
Ülviyyə Rəhimova
Asif Paşayev
Səfər Məmmədov
Tariyel Qəni
Günay İsmayılova
Nəriman Böyükkişi

**Müxbir**
Təhminə Novruzlu

**Fotoqraflar**
Təhminə Novruzlu
Rəcəb İsmayılov

**Dizayner**
Rəcəb İsmayılov

**Məsul redaktor**
Lalə Dilənova



"Çağlayan" jurnalı Azərbaycan Universiteti tərəfindən
ildə iki dəfə nəşr olunur.
Ədliyyə Nazirliyinin reyestr nömrəsi 4138; 13.10.2017)



AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu
Ceyhun Hacıbəyli küçəsi, 71
Tel: (+994 12) 431 41 12 /13/16/17
www.au.edu.az

# Mündəricat


8 Nəsimi ili

14 Universitet xəbərləri

34 Konfranslar

38 Ayın əməkdaşları

42 Prof. Qorxmaz Quliyev ilə müsahibə
Böyük sənət əsərlərini – "Leyli və Məcnun", "Kral Lir", "Faust", "Ölülər"i mütaliə etdikcə insan ruhi əbədiyyətə qovuşur

50 Milli-mədəni irsimiz
Xarı bülbül çiçəyi

54 Abituriyentlər üçün rəhbər
Bakalavriat pilləsi üzrə ixtisas qruplarının yeni təsnifatı

56 Biznes və iqtisadiyyat fakültəsi
Bazar iqtisadiyyatı, yoxsa kapitalizm?

58 Humanitar fənlər fakültəsi
Yapon mənəviyyatının reallıqları

59 İKT fakültəsi
Texnoloji yeniliklər

62 Tələbə həyatı

72 Məzunlarımız
Orxan Aslanlı
Sevinc Eyvazova
İntiqam Yaşar
Məltəm Cahangirzadə

AZƏRBAYCAN UNİVERSİTETİ

*Gələcəyini bu gün seç!*

BAKALAVRİATA
QƏBUL



# Bakalavriat ixtisasları

| Qrup | İxtisaslar | AZ | EN* |
|---|---|---|---|
| I | Kompüter mühəndisliyi | • | |
| | İstehlak mallarının ekspertizası və marketinqi | • | |
| II | Mühasibat uçotu və audit | • | • |
| | Maliyyə | • | • |
| | İqtisadiyyat | • | • |
| | Menecment | • | • |
| | Marketinq | • | • |
| | Biznesin idarə edilməsi | • | • |
| | Kommersiya | • | |
| | Turizm və otelçilik | • | |
| | Regionşünaslıq (Avropa ölkələri üzrə) | • | |
| III | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) | • | |
| | Filologiya (İngilis dili və ədəbiyyatı) | • | |
| | Tərcümə (İngilis dili) | • | |
| | Tarix | • | |
| | Sosial iş | • | |


AzerbaycanUnv
AzerbaijanUnv
AzerbaijanUnv
AzerbaijanUnv
www.au.edu.az
qebul@au.edu.az
+99412 431 41 12/13/16/17 (133)
+99455 220 40 58
Bakı ş., Ceyhun Hacıbəyli 71



SYNERGY GROUP

# Hörmətli oxucular,

Bu sizinlə altıncı görüşümüzdür...
Bu sayımızda da geridə buraxdığımız 6 ayda Azərbaycan Universitetinin fəaliyyətinə, yeniliklərə, tələbə həyatına nəzər salacağıq.
Cənab Prezident İlham Əliyev dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ili ölkəmizdə "Nəsimi ili" elan edib. Bu əlamətdar hadisə ilə bağlı Azərbaycan Universitetində də tədbirlər planı icra olunur. Jurnalımızın ilk səhifələrində tədbirlər planında nəzərdə tutulmuş mühazirə, seminar, dəyirmi masa və nəsimişünas alimlərlə tələbələrin görüşlərinə dair xəbərlər təqdim olunur.
2019-cu ildə bir ilkə imza ataraq Avropa İqtisadi Konqresləri seriyasından olan beşinci tədbirin nüfuzlu iqtisadçı alimlərin iştirakı ilə Bakıda keçirilməsinə nail olduq. Konqres, "Tədqiqatyönümlü ali təhsil müəssisəsi" statusuna nail olunması, paralel olaraq Azərbaycan Universitetinin beynəlxalq elmi nüfuzunun artırılması istiqamətində aparılan ardıcıl və məqsədyönlü işlərin tərkib hissəsi olaraq həyata keçirildi. Türkiyənin Kocaeli və Polşanın WSB Universiteti ilə birgə keçirilən tədbir "Qlobal iqtisadi trendlər" mövzusuna fokuslandı. "Konfranslar" bölməsində həm bu mötəbər tədbir, həm də 2019-cu ilin qrafikində yer alan digər konfranslar haqqında ətraflı məlumat diqqətə çatdırılır.
Bu sayımızın müsahibi filologiya elmləri doktoru, prof. Qorxmaz Quliyevdir.
"Milli-mədəni irsimiz" səhifələrində AMEA Botanika İnstitutunun Herbari laboratoriyasının müdiri, biologiya üzrə fəlsəfə doktoru Pərvanə Qaraxani Xarı bülbül çiçəyi haqqında danışır.
Nazirlər Kabinetinin qərarı ilə "Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların təsnifatı"nda dəyişikliklər olub. İxtisasların yeni təsnifatı hazırlanarkən beynəlxalq təcrübə əsas götürülüb və əmək bazarının tələbləri də nəzərə alınıb. Qərar 15 sentyabrdan qüvvəyə minəcək və dəyişikliklər 2020/2021-ci tədris ilindən tətbiq olunacaq. "Abituriyentlər üçün rəhbər" səhifələrimizdə yeni təsnifata nəzər yetirilir.
Bu sayımızda Universitetin inzibati heyəti üçün motivasiya mənbəyi olan, əmək fəaliyyətini keyfiyyətlə yerinə yetirən, struktur bölmə rəhbərlərinin təqdimatı əsasında rektor tərəfindən təsdiqlənən "Ayın əməkdaşları" üçün də xüsusi səhifələrimiz var.
"Məzunlarımız" səhifələrimizdə yenə dörd məzunumuzun uğur hekayələri ilə tanış ola biləcəksiniz.
Qarşıdan yeni tədris ili gəlir. Bu münasibətlə ölkəmizin təhsil ictimaiyyətini, müəllimləri, şagirdləri və tələbələri, valideynləri təbrik edirik. Tələbə adını qazananları da unutmamışıq. Onları da təbrik edir, inanırıq ki, gələcəkdə böyük uğurlara imza atmaq üçün tələbəlik illərini səmərəli keçirəcək, universitetin yaratdığı imkanlardan maksimum faydalanacaqlar.
Növbəti sayımızda görüşmək ümidi ilə...



## Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir.

Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 yanvar 2019-cu il

# Nəsimi İli-Nəsimi Dili

*"Bu günlər qədim Azərbaycan torpağında böyük bayramdır, poeziya bayramı, ədəbiyyat bayramı, bədii söz bayramıdır. Bəşəriyyət onu mənəvi cəhətdən zənginləşdirən simaları həmişə yüksək qiymətləndirmişdir. Azərbaycan xalqı öz böyük övladlarının – Nizaminin, Xaqaninin, Füzulinin və başqalarının adlarını iftixarla çəkir. Bu gün isə biz Azərbaycan və dünya poeziyasının parlaq ulduzu İmadəddin Nəsiminin yubileyini qeyd edirik".*

**Ümummilli lider Heydər Əliyev**
**14 sentyabr 1973-cü il**

**Dos.Tariyel Qəni**
**filologiya üzrə fəlsəfə doktoru**

Xaqani Şirvani, Zülfiqar Şirvani, Məhcur Şirvani, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabiri yetirən, öz keçmişi ilə, Azərbaycan tarixinə, Azərbaycan dilinə, Azərbaycan mədəniyyətinə, Azərbaycan ədəbiyyatına geniş imkanlar açan Şirvanın-Şamaxının müqəddəs torpağı, təxminən 1369-1370-ci illərdə Seyid İmadəddin Nəsimini XIV əsr ədəbiyyatının dühası kimi nəinki Azərbaycan ədəbiyyatına, bütün türk ədəbiyyatına bəxş etmişdir.

Nəsimi Azərbaycan xalqının dünya ədəbiyyatına bəxş etdiyi ən böyük şairlərdən biridir. Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şeirin ilk yaradıcılarından olan Nəsimi söz sənətini forma və məzmunca daha da zənginləşdirib, özündən sonrakı nəsillər üçün çox dəyərli ədəbi irs qoyub getmişdir. Ədəbiyyat tariximizdə ana dilli fəlsəfi şeirin əsasını qoyan Nəsimi məhəbbət və gözəllik nəğməkarı kimi şöhrət tapmışdır.

Seyid Əli İmadəddin Nəsimi 1369-cu ildə əski şeir-sənət beşiyi olan Şamaxı şəhərində anadan olmuşdur. İlk təhsilini Şamaxı şəhərində almış, kiçik yaşlarından mükəmməl təhsil görmüş, xüsusən fəlsəfi və dini cərəyanları öyrənməyə daha çox həvəs göstərmişdir. Cəlaləddin Rumi, Rudəki, Sədi, Əttar və başqa klassik şairlərin əsərlərini dərindən öyrənmiş və özü də kiçik yaşlarından şeir yazmağa başlamışdır. Gəncliyindən başlayaraq "Seyid", "Hüseyn", "Nəsimi" təxəllüsləri ilə şeirlər yazsa da, məsləkdaşı, ustadı, müəllimi Fəzlullah Nəiminin təxəllüsü ilə həmahəng səslənən Nəsimi təxəllüsünə daha çox sadiq qalmışdır.

Hürufilik təriqətinin banisi, məşhur şair və mütəfəkkir Şeyx Fəzlullah Nəimi təxminən 1394-cü ildə Şirvana gələrək Nəsimi ilə görüşmüşdür. Onun hürufi görüşləri Nəsiminin yaradıcılığı və dünyagörüşü üzərində dərin təsir buraxmışdır.

Elə həmin il Miranşah Şeyx İbrahimin fitnəsi ilə Nəimini tutub Əlincə qalasının yaxınlığında qətlə yetirmişdir. Ustadının öldürülməsindən sarsılan şair Anadoluya gedərək bir müddət orada yaşamış və onun ölümünə bir çox qəsidələr həsr etmişdir:

*Ey müsəlmanlar, bu gün ol yari-pünhan ayrılır,*
*Ağlamayım neyləyim, çün gövdədən can ayrılır.*

*Ey sənəm, hicran əlində naleyi-zar eylərəm,*
*Gözlərimdən sanasan dəryayi-ümman ayrılır ...*

*... Məhşəri-yovmül-hesab qopdu qiyamət başıma,*
*Ey Yusif surətli, məndən piri-Kənan ayrılır.*

*Ey cigərsuz nari-firqətdən Nəsimi çarə nə?*
*Hər kimə "nəhnü qəsəmna" çün əzəldən ayrılır ...*

I Sultan Muradın zamanında Türkiyədə hürufilər ciddi şəkildə təqib olunurdular. Nəsimi bu zaman Türkiyədən Suriyaya getmiş, bir müddət Hələb şəhərində yaşayaraq burada ətrafına tərəfdarlar toplamış, fikirlərini, fəlsəfi görüşlərini yaymağa başlamışdır.

Şairin qəzəlləri, qəsidələri, məsnəviləri, tuyuğları, tərcibəndləri, dördlükləri demək olar ki, bütün Şərq ölkələrində sevilə-sevilə oxunmaqda, yayılmaqda idi:

*Sən sana gər yar isən var, ey könül, yar istəmə!*
*Yarü dildar ol sana, sən yarü dildar istəmə!*

*Bivəfadar çün bu aləm, kimdən istərsən vəfa?*
*Bivəfa aləmdəsən yari-vəfadar istəmə!*

*Gül bulunmaz bu dikənli dünyanın bağında çün,*
*Əbsəm ol, bihudə gülsüz yerdə gülzar istəmə!*

*Dünyanın sevgisi ağır yük imiş, məndən eşit,*
*Nəfsini yük etməana, ey səbükbar, istəmə!*

*Bir əmin məhrəm bulunmaz, ey Nəsimi, çün bu gün,*
*Xəlqə faş etmə bu rəmzi, kəşfi-əsrar istəmə!*

Nəsimi təxminən 1417-ci ildə Hələb şəhərində faciəli şəkildə qətlə yetirilmişdir. XV əsr ərəb tarixçisi Müvəffəqəddin Əhməd İbn İbrahim əl Hələbi "Günüzüzzəhəb, tarixi-Hələb"(Qızıl xəzinələri, Hələb tarixi) adlı əsərində Nəsiminin ölüm tarixçəsi haqqında geniş məlumat verir. Şairi edam etmək üçün Hələbin şeyxi, naibi, qazilər-qazisi və şəriət alimlərindən ibarət mühakimə heyəti qurulur. Verilən qərarda deyilir ki, şairin dərisi soyulsun və Hələbdə yeddi gün nümayiş etdirilsin. Sonra əl-ayaqları  kəsilsin, parçaları  Zülqədir oğlu Əlibəylə qardaşı Nəsrəddinə və Qara Yoluq Osmana göndərilsin. Sultan Müəyyəd bu əmrin verilmə səbəbini belə qeyd edirdi: "Bu adam kafirdir, mülhiddir! Onun incə şeirləri vardır".

## Nəsimi irsinin Türkiyədə və dünyada  tədqiqi

XIX və XX əsrlərdə Türkiyədə Nəsimi irsini öyrənmək sahəsində ciddi addımlar atılmış, onun "Divan"ı 1849-cu ildə İstanbulda "Təsviri- əfkar" mətbəəsində, 1881-ci ildə isə yenə orada "Əxtər" mətbəəsində nəşr olunmuşdur.
Nəsimi irsini tədqiq edən türk professoru Fuad Köprülü 1918-ci ildə "Türk ədəbiyyatında ilk mütəsəvvirlər", 1926-cı ildə isə "Azərbaycan ədəbiyyatına aid tədqiqlər" əsərlərində şair haqqında bir çox diqqətəlayiq fikirlər irəli sürmüşdür.
Türk ozan və aşıqları onun əsərlərini şərh edərək sevə-sevə ifa etmişlər.
Məhşur ingilis şərqşünası Gibb Nəsimidən bəhs edərkən bəzi məsələlərə tənqidi yanaşmağı bacarmış və özündən əvvəlki tədqiqatçılara nisbətən şair haqqında daha geniş məlumat vermişdir.

## Nəsimi şeirlərinin xüsusiyyətləri

Yaradıcılığında Azərbaycan dilinə poeziya hüququ verən, doğma dilimizdə gözəl şeirlər yaratmanın mümkünlüyünü sübut edən Nəsimi şeirlərini ideya-fəlsəfi məzmunu, bədii-poetik xüsusiyyətlərinə görə iki yerə bölmək olar:

- Sufi-hürufi şeirləri
- Dünyəvi şeirləri

Birinci qismə daxil olan şeirlərində Nəsimi sufizm-hürufilik ideyalarının təbliğinə çalışaraq ilahi eşqi və gözəlliyi, Allahın insanda təcəlla tapmasını, dünyanın, kainatın, insan və həyatın yaradılması ilə bağlı olmasını təcəssüm etdirmişdir. Nəsiminin dünyagörüşü, bədii istedadı Şərqin iki məşhur dini-fəlsəfi təriqəti olan sufizm və hürufiliyin təsiri altında kamala çatmışdır. Təsadüfi deyil ki, onun bu ruhda yazdığı əsərlərinin əsasında Allah durur, insanın mənəvi-əxlaqi kamillik yolu keçərək onunla qovuşması mühüm məsələ kimi qarşıya qoyulur.

Nəsimi dünyanı aləmi-fəna və aləmi-bəqa olmaqla iki yerə bölür, insanda iki cahan-maddi və mənəvi dünya görürdü. Şair:

*"Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam" ...*

beyti ilə başlayan qəzəlində "iki cahan" deyərkən insanın maddi və mənəvi varlığını nəzərdə tuturdu. Nəsimi öz real sevgisini ilahi bir sevgi səviyyəsinə qaldıraraq insanın gözəlliyindən, insanın böyüklük və əzəmətindən danışır, onun ağlı, zəkası və gözəlliyi qarşısında baş əyirdi.
"Səni bu hüsnü-camalü, bu kamal ilə

görüb, qorxdular haqq deməyə, döndülər insan dedilər" - deyən şairin insanlıq haqqında təsəvvürü çox yüksək idi:

*Dünya duracaq yer deyil, ey can, səfər eylə!*
*Aldanma anın alına, andan həzər eylə!*

*Bir halə qərar eyləməz əyyam, keçər ömr,*
*ey əhli-nəzər, baxma bu halə, nəzər eylə!..*

*… Şol püstədəhanın xəbərin bildi Nəsimi,*
*Şirinlərə şol tüngi-şəkərdən xəbər eylə!*

### Azərbaycan şeirində nəğmə - tərانə janrı

Nəsimi yaradıcılığında elə şeir nümunələri vardır ki, bütün misraları daxili qafiyələr əsasında qurulmuşdur. Nəsimi poeziyasında olan bu xüsusiyyəti yalnız forma məsələsi kimi izah etmək kafi deyil. Şeiri musiqiləşdirmək, onun misralarına, adətən musiqi və rəqs ahəngi vermək şairin yaradıcılığının ideya məzmunu ilə bağlıdır. Nəsimi daxili qafiyələr yaratmaqda çox irəli gedərək Azərbaycan şeirində ilk dəfə nəğmə, tərانə janrı yaratmışdır.

*Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım,*
*Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım.*

*Şəhim, mahım, dilaramım, həyatım, dirligim, ruhim,*
*Pənahım, məqsədim, meylim, muradım, sərvərim, canım …*

*…Lətifim, nazikim, xubim, həbibim, türfə məzbubim,*
*Hicazım, Kə'bəvü Turim, behiştim, hurü rizvanım.*

*Gülüm, reyhanım, əşcarım, əbirim, ənbərim, udum,*
*Dürüm, mirvaridim, kanım, əqiqim, lə'lü mərcanım …*

*… Çırağım, şəm'imü nurim, ziyamü yıldızım, şəmsim,*
*Həzarım, bülbülüm, kəbkim, Nəsimiyi-xoşəlhanım!*

Nəsimi şeirində musiqi ahəngdarlığı, ritm onun əsas bədii ünsür və məziyyələrindəndir. Şair cinasdan istifadə etməklə, bunu təmin etməyə çalışır və şeirə yeni bir ahəng və təravət gətirmişdir.

*Düşdü yenə dəli könül gözlərinin xəyalinə,*
*Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə?*

*Al ilə ala gözlərin aldadı aldı könlümü,*
*Alını gör nə al edər, kimsə irişməz alinə …*

*… Dadlı sözündən utanır abi-həyat, məhv olur,*
*Gülbəşəkər nə nəsnədir kim, irişə məqalinə?..*

*… Buldu Nəsimi çün səni, keçdi qamudan, ey sənəm,*
*Qoydu həririi ətləsi, girdi əbavü şalinə.*

Nəsimi fəlsəfi düşüncələrini, dini-mistik görüşlərini tərənnüm etdiyi zaman onun dili çətin anlaşılan mürəkkəb sözlər və ifadələrlə ağırlaşır. Vəhdəti-vücud fəlsəfəsinin bədii ifadəsini verən Nəsimi yaradıcılığı maddi aləmin birləşməsindən, ilahi qüvvənin insanda təcəllasından və öz yaradıcılıq qüdrətini ona verməsindən danışır. Belə şeirlərdə yalnız fəlsəfə deyil, eyni zamanda dini əfsanələri tarixə aid çoxlu təlmihlər, quran ayələri hədislər vardır.

*Allahü əkbər, ey sənəm, hüsnündə heyran olmuşam,*
*Qövsi-qüzehdir qaşların, yayına qurban olmuşam.*

*Üzündür ol cənnət gülü, boyun həqiqət sərvidir,*
*Eşqində mən bülbül kimi aləmdə dəstan olmuşam …*

*… Gəh çıxmışam İsa kimi, çərxüstünə oturmuşam,*
*Gəh varmışam Yusif kimi, Misirdə sultan olmuşam.*

*Sərrafi-bəhri-qüdrətəm, yaquti-kani-vəhdətəm,*
*Şimdi Nəsimiyəm, bu gün pak ilə yeksan olmuşam.*

Nəsimi sənətkarlığı onun şeirlərinin qafiyə sistemində özünü göstərir. Orta əsr klassik Azərbaycan şeirində, həmçinin Şərq poeziyasında ən zəif qafiyə "qafiyəyi-mücərrədə"dir ki, bir hərf və ya bir səs üzərində qurulur. Nəsimi yaradıcılığında isə ən çox rast gəldiyimiz "qafiyəyi-mürəkkəbə" və onun növləri olan "qafiyəyi mürəddəfə", "müqəyyədə"lərdir. Mürəkkəb qafiyələr "rəvi" adlanan qafiyə hərflərindən əvvəl gələrək başqa həmcinas hərflərin qafiyələnməsi ilə düzəlir. Nəsiminin şeirlərində üstünlük təşkil edən məhz bu cür mürəkkəb qafiyələr və onların növləridir.

20 min misranı əhatə edən ədəbi irsə sahib Nəsimi Şərq şeirinin, o cümlədən Türkiyə şeirinin inkişafına təsir göstərmiş, əsrlər boyu görkəmli türk şairlərinin müəl-

limi və ustadı olmuşdur.
O, təsir etdiyi şairlərin yaradıcılığına panteizm, hürufilik görüşləri gətirməklə bərabər, onları ədalət və həqiqətpərəstliyi tərənnüm etməyə çağırmışdır.
Məhəbbət lirikası şairin əsas məfkurə xətti ilə üzvü surətdə bağlıdır. Onun ruhunda iki zidd qüvvə mübarizə aparır: biri sufizm təsirlərindən doğan ilahi eşq, digəri şairin həyatla əlaqəsindən doğan insani, həyati eşq. Nəsiminin insana, maddi dünyaya olan məhəbbəti ilahi eşqlə birləşərək onun şeirlərinə coşqunluq, həyatilik gətirir.

*Canımı yandırdı şövqün, ey nigarim, hardasan?!*
*Gözlərim nuru, iki aləmdə varim, hardasan?!*

*Bağrımı qan eylədi aci fərağın, gəl iriş,*
*Ey ləbi vüslət şərabi, xoşgüvarim, hardasan?!.*

*...Yar üçün hər guşədə min div olur düşmən mana,*
*Ey zəvadi-ə'zəmü möhkəm hasarım, hardasan?!*

*Çün Nəsimidir bu gün əyyami-eşqin sərvəri,*
*Ey şəkər ləb, yari-şirin ruzigarım, hardasan?!*

Nəsimi yaradıcılığında sevgi şeirləri də üstünlük təşkil edir. Bədii söz sənətinin solmaz, gözəl incilərini yaradan şair Azərbaycan ədəbiyyatı tarixinə yeni bir üslub, deyim tərzi gətirmiş, poeziyamızı yeni surət-lövhələrlə zənginləşdirmişdir. Onun sevgi və duyğularını əks etdirən nəğmə və şərqiləri məzmun, dil-üslubca səmimi və aydındır.

*Dilbəra, mən səndən ayrı təndə canı neylərəm?*
*Tacü-təxtü, mülkü-malü, xanimanı neylərəm?..*

*... Ey müsəlmanlar, übilin yar ilə xoşdur bu cahan*
*Çünki yardan ayru düşdüm, bu cahanı neylərəm?..*

*... Dilbər aydır, ey Nəsimi, sabir ol, qılma fəğan*
*Mən bu gün səbr eləsəm, danla fəğanı neylərəm?*

Nəinki Nəsiminin yaşadığı dövrdə, o cümlədən, bu günə kimi tanınmış şair və ozanlar onun əsərlərinə nəzirələr yazmış, onun yaradıcılığından bəhrələnmişlər:

*Ey insanlar bilin ki, candan can ayrılır,*
*Bu dünyadan köçüb gedən, dünyadan insan ayrılır.*

*Soyulsun kafirin təni, doğranılsın onun cismi,*
*Düşünürdü qoca zahid, dünyadan şeytan ayrılır.*

*Tənini ta soysalar ah çəkmədən o, söylədi,*
*Haqq mənəm, haqq məndədir, haqdan müsəlman ayrılır.*

*Yas saxladı bütün dünya o, aşiqin ölümünə,*
*Ağlayırdı yer ilən göy, göydən kəhkəşan ayrılır.*

*Yaradanın vəsf eylədi şeir, qəzəl ustadımız,*
*Şair Qəni indi bilir ondan qəzəlxan ayrılır.*

Nəsimi şeiri öz bədii metodu, dil-üslub keyfiyyətləri baxımından şərq ədəbiyyatı ilə yaxından bağlıdır. O, öz sələflərindən Şeyxoğlu, Səyyad Həmzə, Aşıq Paşa, Öhvədi, Qazi Bürhanəddin və başqa şairlərin şeirlərinə nəzirələr yazmışdır. Bununla yanaşı Nəsimi yaradıcılığı da şərq ədəbiyyatına güclü təsir göstərmişdir. Bir sıra şairlər Nəsimi yaradıcılığından bəhrələnərək ilham almış, Nəvai, Füzuli, Lütfi, Şeyxi, Niyazi, Bəyazi, Həbibi, Xətai, Qul Nəsimi, Həqiqi və başqa sənətkarlar Nəsimi irsinə dərin rəğbət bəsləmişlər.
Nəsimi yaradıcılığı Azərbaycan bədii və fəlsəfi fikri tarixində böyük bir hadisədir.
Yaradıcılığında olan farsca şeirləri ana dilimizə Seyidzadə Mehdi, Sarovlu Abbasəli və başqaları tərcümə etmişdir.
Nəsiminin ən böyük yaradıcılıq qüdrəti onun XIV əsrin ikinci yarısında doğma ana dilində yazıb-yaratmasıdır. Üç dili mükəmməl bilmək sayəsində Nəsimi Yaxın Şərqin ən gözəl nailiyyətlərinə yiyələnmiş, türkdilli xalqların ədəbiyyatına yeni istiqamət vermişdir. O, qəzələ tamamilə yeni siyasi-fəlsəfi məzmun gətirən, xalq həyatına yönəldən novator sənətkardır.
Nəsimi şeiri dünya ədəbiyyatının xəzinəsinə qiymətli bir töhfə kimi həmişəlik daxil olmuş və xalqların dərin məhəbbətini qazanmış, əsərləri dönə-dönə çap edilmiş, haqqında tədqiqat işləri aparılmışdır.

### Nəsimi irsinin sistemli tədqiqi və adının əbədiləşdirilməsi

İmadəddin Nəsimi irsinin sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə olmuşdur. Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə

1973-cü ildə UNESCO-nun qərarı ilə dahi şairin anadan olmasının 600 illiyi dünya miqyasında qeyd olunmuş, İmadəddin Nəsiminin adı UNESCO-nun görkəmli şəxsiyyətlər siyahısına daxil edilmiş, beynəlxalq tədbirlər keçirilmiş, araşdırma və tədqiqat işləri aparılmışdır. Azərbaycanda və Moskvada keçirilən yubiley tədbirlərində dünyanın bir çox ölkəsindən gəlmiş nümayəndələr iştirak etmişdir. Nəsiminin 600 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi təkcə böyük şairin deyil, ümumilikdə Azərbaycanın dünyaya təqdimatı baxımından xüsusi əhəmiyyət kəsb edirdi.

### Nəsiminin xatirəsinin əbədiləşdirilməsi

Nəsiminin xatirəsini əbədiləşdirmək istiqamətində görülmüş bir sıra işləri də qeyd etməmək mümkün deyil. 1973-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutuna dahi şairimizin adı verilmiş, şairə həsr olunmuş film çəkilmiş və filmdə onun bədii obrazı yaradılmış, 1979-cu ildə Bakıda heykəli ucaldılmış, Bakının rayonlarından birinə Nəsiminin adı verilmişdir.
2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsidir.
2019-cu ilin iyun ayında isə Çexiya astronomları tərəfindən 1995-ci ildə Klet rəsədxanasında aşkar edilən və uzun müddət 1995 UN2 şərti adını daşıyan planetə Nəsiminin adı verilib. Planet indiyədək dünyanın müxtəlif rəsədxanalarında 807 dəfə müşahidə olunub.
Cənab Prezident İlham Əliyevin 2019-cu ili ölkəmizdə "Nəsimi ili" elan etməsi böyük şairə verilən yüksək dəyər və ehtiramın göstəricisi, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamıdır. Cənab Prezidentin sərəncamı Azərbaycan xalqının dahi şəxsiyyətlərinə, ədəbiyyatımıza olan böyük qayğısının bariz nümunəsi olmaqla yanaşı, Azərbaycan klassik ədəbiyyatının dil və üslub səviyyəsində tədqiq edilməsinin xüsusi aktuallıq kəsb edən məsələlərdən biri olduğunu və Nəsimi irsinin böyük əhəmiyyət kəsb etdiyini təsdiqləyir.

## Təsəvvüf Araşdırmaları Beynəlxalq Simpoziumu: "Nəsimi-650"

**TÜRKİYƏ / NEVŞEHİR**

9-11 sentyabr (Eylül, September) 2019

## "Nəsimi ili" ilə bağlı tədbirlər planı icra olunur

Cənab Prezident İlham Əliyev böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ili ölkəmizdə "Nəsimi ili" elan edib. Bu əlamətdar hadisə ilə bağlı Azərbaycan Universitetində də "Nəsimi ili"nə töhfə verilməsi məqsədilə tədbirlər planı icra olunur.
Tədbirlər planına əsasən Universitetin elmi jurnalı "İpək yolu" və korporativ informasiya jurnalı "Çağlayan"da Nəsiminin ədəbi irsi ilə aparılan tədqiqatların nəticələri və şairin ədəbi irsi ilə bağlı publisistik yazılar dərc olunub, "İpək yolu" jurnalının ikinci nömrəsi böyük şairin yaradıcılığına həsr olunub. İl ərzində Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş mühazirələr, tələbələrin iştirakı ilə ədəbi-bədii gecə, müsabiqə və olimpiadalar təşkil olunacaq, nəsimişünas alimlərlə tələbələrin görüşləri keçiriləcək. Tədbirlər planı çərçivəsində şairin 650 illik yubileyinə həsr olunmuş dəyirmi masa və seminarların, onun bədii irsini əks etdirən kitab sərgilərinin təşkili də nəzərdə tutulur. Tədbirlər ilin sonunadək davam edəcək.

## Azərbaycan Universitetində "Nəsimi auditoriyası" yaradılıb

Azərbaycan Universitetində "Nəsimi auditoriyası" fəaliyyətə başlayıb. Auditoriyada ilk tədbir Azərbaycan dili və ədəbiyyat kafedrası tərəfindən təşkil olunub. "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda dəyirmi masada rektor Səadət Əliyeva, kafedranın professor-müəlim heyəti və filologiya ixtisasının III kurs tələbələri iştirak edib.
Rektor Səadət Əliyeva qeyd edib ki, Azərbaycan Universiteti auditoriyada il ərzində qüdrətli söz ustası İmadəddin Nəsiminin həyat və yaradıcılığını əks etdirən müxtəlif səpkili tədbirlərlə "Nəsimi ili"nə öz töhfəsini verəcək.

Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Ülviyyə Rəhimova bildirib ki, 2019-cu il ərzində rəhbərlik etdiyi kafedra tərəfindən təşkil olunacaq mühazirə, dəyirmi masa və seminarlar vasitəsilə dahi şairin yaradıcılığının müxtəlif məqamları diqqət mərkəzində saxlanılacaq.
Kafedranın professoru Məhərrəm Qasımlı məruzəsində İmadəddin Nəsiminin milli kimliyi, yaşadığı dövr və coğrafiya, dilinin leksik tərkibi, yaradıcılığının dil və üslub xüsusiyyətləri, istifadə etdiyi obraz, motiv və rəmzlər, yaradıcılığını şəkilləndirən ictimai-siyasi zəmin, Nəsimi yaradıcılığında sufi və hurufi görüşlər, ardıcılları, Nəsimi ünvanı daşıyan şair və müridlər haqqında məlumat verib, həyatı və yaradıcılığı ilə bağlı rəvayətlər və mübahisəli məsələlərə aydınlıq gətirib.



Kafedranın professoru Qorxmaz Quliyev Nəsiminin və ədəbi irsinin dünya miqyasında tanıdılmasının istiqamətləri və əhəmiyyətindən danışıb: "Nəsimi həm şəxsiyyət kimi, həm də yaradıcılığı, ədəbi irsi ilə vəhdətdə təqdim olunmalıdır".
Kafedranın dosenti Aytən Hacıyeva bildirib ki, Sovet dövründə klassiklərimizin təhrif olunmuş şəkildə öyrənilməsi onların yenidən tədqiq olunması zərurətini yaradıb. Prezidentin sərəncamı Nəsimi irsinin tədqiqinə qayıdış olmalıdır.
Nəsimi irsinin tədqiqinə qayıdış bu gün öz aktuallığı ilə böyük əhəmiyyət kəsb edir.
"Nəsimi auditoriyası"nda ilk dəyirmi masa mövzu ətrafında müzakirələrlə başa çatıb.

## “İpək yolu” jurnalının yeni nömrəsi Nəsimiyə həsr olunub




Azərbaycan Universitetinin elmi jurnalı “İpək yolu”nun 2019-cu il üçün ikinci nömrəsi dahi şair və mütəfəkkir İmadəddin Nəsimiyə həsr olunub.
Nəşrin “Nəsimi-650” bölməsində AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Nəsimi qrupunun rəhbəri Səadət Şıxıyevanın “Poetik və irfani təxəyyül işığında Nəsimi şəxsiyyətinə baxış şəkilləri”, Azərbaycan Universiteti İctimai elmlər kafedrasının müdiri, prof. Qabil Əliyevin “İmadəddin Nəsimi və hürufilik hərəkatı”, həmin kafedranın müəllimi Məhəmməd Əliyevin “Nəsimi yaradıcılığına yeni baxış” və Azərbaycan Universiteti Tədris şöbəsinin müdiri Tariyel Qəninin “İmadəddin Nəsiminin dini-fəlsəfi, ədəbi-mədəni dünyagörüşünün ümumi aspektləri” məqalələri yer alır.
Oxucular jurnalın İqtisad elmləri və Filologiya elmləri bölmələrində isə qeyd olunmuş sahələri əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu məqalələr ilə tanış ola bilərlər.
“İpək yolu” jurnalının yeni nömrəsini onlayn formada Azərbaycan Universitetinin saytında oxumaq da mümkündür. İldə dörd dəfə nəşr olunan jurnal AAK-ın Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxildir.

## “İslam irfan ənənəsinin inkişafında İmadəddin Nəsiminin rolu” mövzusunda dəyirmi masa

Dəyirmi masanın qonağı ədəbiyyat tarixinin tədqiqatçısı, mətnşünas alim, AMEA-nın Əlyazmalar İnstitutunun direktor müavini, Multidistiplinar əlyazmalar və çap kitabları şöbəsinin müdiri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya üzrə elmlər doktoru Paşa Əlioğlu olub. Tədbirdə kafedranın professor-müəllim heyəti və filologiya ixtisası üzrə III kurs tələbələri iştirak edib.
Paşa Əlioğlu məruzəsində İmadəddin Nəsiminin milli kimliyi, ona aid olan əlyazmalar, Nəsimi yaradıcılığında irfani və hürufilik görüşləri, Nəsimi ədəbi məktəbi, Nəsimi ünvanı daşıyan şair və müridlər haqqında məlumat verib, Nəsiminin anadilli şeirləri ilə klassik ədəbiyyatın nəhəng ərəb-fars poeziyası ilə baş-başa gələ biləcək bir şair olduğunu vurğulayıb. Qonaq dahi şairin yeni tapılan əlyazmaları üzərində aparılan tədqiqat işləri haqqında da danışıb.
Kafedranın professoru Asif Hacıyev və kafedranın dosenti Aytən Hacıyeva Nəsiminin irfani və hürufilik görüşlərinin onun yaradıcılığında necə əks olunmasından danışıb. Sonda mövzu ətrafında müzakirə aparılıb, tələbələrin sualları cavabandırılıb. Dəyirmi masa xatirə şəklinin çəkilməsi ilə başa çatıb.



# 2018/2019-cu tədris ili məzunlarına həsr olunmuş XXV buraxılış Məzun Günü

Azərbaycan Universitetinin 2018/2019-cu tədris ili məzunlarına həsr olunmuş XXV buraxılış Məzun Günü tədbirində universitet rəhbərliyi, professor-müəllim heyəti, məzunlar və valideynlər iştirak ediblər.




Rəsmi hissədə rektor Səadət Əliyeva açılış nitqi ilə çıxış edərək "məzun" adını qazanan tələbələri təbrik edib. Rektor hər bir sonun həm də yeni başlanğıc olduğunu, gənclərin daha məsuliyyətli mərhələyə qədəm qoyduqlarını bildirib. Onlara həyatlarının yeni mərhələsində uğurlar arzulayan Səadət Əliyeva məzunlara daim arzularının arxasınca getməyi qarşılarına məqsəd qoymağı tövsiyə edib. Rektor deyib: "Dünyanın harasında olursanız olun, azərbaycanlı olduğunuzu unutmayın, dilimizi, bayrağımızı, himnimizi, milli – mənəvi dəyərlərimizi uca tutun, dövlətçiliyimizə sadiq olun, peşənizi ləyaqətlə, şərəflə və vicdanla icra edin".
İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev, Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Ülviyyə Rəhimova məzunlara xoş arzularını çatdırıb, onların Azərbaycan Universitetinin adını daim uca tutacaqlarına, dövlətimiz üçün layiqli vətəndaş olacaqlarına, iş dünyasında peşəkar mütəxəssis kimi çalışaraq ölkəmizin güclənməsinə öz töhfələrini verəcəklərinə əminliklərini ifadə ediblər.

Qeyd edək ki, Azərbaycan Universitetini bu il 235 məzun bitirib. İKT fakültəsinin tələbəsi Həqiqət Qasımova 96,09 orta müvəffəqiyyət göstəricisi ilə 2018/2019-cu tədris ilində Azərbaycan Universitetindən birinciliklə məzun olub. Tədbirdə Həqiqət Qasımovaya və yüksək göstəricilərlə məzun olan daha 10 tələbəyə Azərbaycan Universiteti rektorunun fəxri fərmanları təqdim olunub. Adını universitetin tarixinə yazdıran Həqiqət Qasımova 2018/2019-cu tədris ili məzunları adından çıxış edərək ona qazandırdığı dəyərlər üçün universitet kollektivinə və müəllimlərinə təşəkkür edib.




Rəsmi hissə məzunlar tərəfindən Azərbaycan Universitetinin himninin oxunması ilə yekunlaşıb.
Məzun Günü bədii proqramla davam edib. Bu hissədə ənənəvi "papaqatma" mərasimi keçirilib. Məzunlar musiqi proqramı ilə xoş anlar keçiriblər.



## Abituriyent Məsləhət Mərkəzi

Dövlət İmtahan Mərkəzi ilə Azərbaycan Universiteti arasında əldə edilmiş razılığa əsasən yaradılan mərkəz artıq 2 ildir ki, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərə kömək məqsədilə ödənişsiz əsaslarla fəaliyyət göstərir.




Mərkəzin xüsusi təlim keçmiş əməkdaşları abituriyentlərə tələbə qəbulu qaydaları, ali və orta ixtisas təhsili müəssiələrinə ərizə qəbulu, "Abituriyentin elektron ərizəsi"nin doldurulma və təsdiq edilmə qaydası və bu zaman qarşıya çıxa biləcək texniki problemlərin həlli, müsabiqə şərtləri, ixtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər və başqa bu kimi məsələlər haqqında köməklik və məsləhət xidməti göstərirlər.
Mərkəz həftənin 5 günü (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək ödənişsiz əsaslarla fəaliyyət göstərir.
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küç., 71
Telefon: (+994 12) 431 41 12 (172)



## "Açıq qapı" günləri

I, II və III ixtisas qruplarına sənəd verən abituriyentlər və onların yaxınları üçün "Açıq qapı" günləri aprel - avqust ayları arasında keçirilib.
"Açıq qapı" günlərinin iştirakçıları üçün Azərbaycan Universitetinin tədris binasına infotur təşkil olunub, onlara qəbul aparılan ixtisaslar, keçid balları, təqaüd və xaricdə təhsil imkanları, universitetin beynəlxalq əlaqələri, tələbə həyatı, həmçinin seçmək istədikləri ixtisasın karyera imkanları haqqında ətraflı məlumat verilib.
Abituriyentlər və yaxınları üçün universitetin professor-müəllim heyəti ilə söhbət etmək imkanı da yaradılıb.

## Azərbaycan Universiteti 4 ildə 2 diplom təklif edir

Tələbə və məzunlarını iş dünyasına hazırlamaq üçün müvafiq tədbir, proqram və layihələr həyata keçirən Azərbaycan Universiteti bu istiqamətdə daha bir yeniliyə imza atır. Belə ki, növbəti tədris ilindən başlayaraq tələbələrin 4 ildə 2 diplom ala biləcəkləri Universitetdaxili İki Diplom (UDİD) Proqramının tətbiqinə start verilir.
Yüksək göstəricilərlə oxuyan tələbələrin müraciət edə biləcəkləri proqram bakalavriat pilləsində təhsil alan tələbələrə şamil olunur. Proqrama qoşulan tələbələr ikinci ixtisas üzrə əlavə təhsil alaraq iki ayrı ixtisasa yiyələnə biləcək, rəqabətqabiliyyətli mütəxəssis kimi yetişəcək və əmək bazarında manevr imkanlarını artıracaqlar.
Universitetin birinci kurs tələbələri artıq proqramın məqsədi, şərtləri və qəbul qaydaları ilə tanış olublar.
Azərbaycan Universitetində hər hansı iki ixtisas üzrə UDİD proqramının açılması üçün həmin ixtisasların tədris planlarında nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 faizi ilə eynilik təşkil etməlidir. İkinci ixtisasa yiyələnmək üçün yalnız fərqli ixtisas fənlərini dinləyərək, müvafiq kreditləri toplamaq tələb olunur.

# "Kənd məktəblisinə dəstək" layihəsi Füzulidə

Azərbaycan Universitetinin "Kənd məktəblisinə dəstək" layihəsinin üçüncü dayanacağı böyük bir hissəsi işğal altında olan Füzuli rayonunun 3 nömrəli Zobucuq qəsəbəsinin 33 nömrəli tam orta məktəbi olub. Cəbhə bölgəsinə səfər eyni zamanda müasir hərb tariximizin ən böyük qələbələrindən biri olan Aprel döyüşlərinin üçüncü ildönümü münasibətilə təşkil olunub. Universitetin rektoru Səadət Əliyeva başda olmaqla bir qrup əməkdaş və tələbələrimiz məktəblə tanış olub, dərslərdə iştirak ediblər.

Gün ərzində məktəbin 9, 10 və 11-ci sinif şagirdlərinə Azərbaycan dili, ədəbiyyat, ingilis dili, tarix və informatika fənlərini tələbələr Nigar Rəhimova, Hüriyyə Səlimova, Pənah Piralıyev, Ruslan Ağakişiyev, Fəranə Mikayılova, Sarvan Əliyev, Xəyal İsmayılov və Rövşən Saatov keçib. Dərslər proyektorlar vasitəsilə slaydlarla tədris olunub.



Universitet rəhbərliyi tərəfindən məktəbə masaüstü kompüter dəsti, kitabxanaya bədii ədəbiyyat və dərslik daxil olmaqla 60 kitab hədiyyə olunub.

Məktəbin birinci sinif şagirdləri də unudulmayıb. 30-a yaxın birinci sinif şagirdinə ali məktəbin xüsusi hədiyyələri təqdim olunub.

Universitet kollektivi Füzuli rayon təhsil şöbəsinin əməkdaşları ilə birlikdə 1994-cü ildə işğaldan azad edilmiş Horadiz şəhərində olub, şəhərin girişində yerləşən və 10 hektar ərazidə salınan Bayraq meydanını gəzib.

Rəhbərlik və əməkdaşlarımız Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət edib. Muzeyin əməkdaşları burada sərgilənən eksponatlar haqqında məlumat verib, tələbələrin suallarını cavablandırıblar.



Respublikanın müxtəlif kənd məktəblərində davam edəcək layihənin məqsədi universitet – orta məktəb həmrəyliyinin gücləndirilməsi, yeni tədris texnologiyalarının təbliğinin aparılması və kənd məktəblərinin bu sahədə dəstəklənməsidir.

Layihə çərçivəsində əvvəlki tədbirlər Xaçmaz rayonunun Şəmsəddin Sədiyev adına Qımıl-qışlaq kənd tam orta məktəbi və Şəmkir rayonunun Afiq Əsədov adına Qaracəmirli kənd tam orta məktəbində keçirilib.



## Sağlam həyat tərzinin təbliği layihəsinə dəstək

Azərbaycan Universiteti yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği layihələrində tərəfdaş kimi çıxış edərək dəstək göstərir. Belə layihələrdən biri də "Məqsəd" hazırlıq kurslarının nəzdində fəaliyyət göstərən 13 yaşadək futbolçulardan ibarət komandadır.
Nümayəndə heyətimizin komandanın rəhbərliyi, üzvləri, məşqçi heyəti və valideynlərlə tanışlıq məqsədilə keçirilən görüşündə futbolçulara universitet rəhbərliyinin hədiyyəsi olan formalar təqdim olunub, sağlam həyat tərzinin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, universitet rəhbərliyi "Məqsəd" hazırlıq kurslarının nəcib təşəbbüsünü alqışlayır, komandaya cəlb olunan istedadlı uşaqların ölkəmizdə uşaq futboluna öz töhfələrini verəcəklərinə inanır.



## "DOST xonçası" kampaniyasında iştirak

Azərbaycan Universiteti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Novruz bayramı münasibətilə başlatdığı "DOST xonçası" kampaniyasına qoşulub.
Universitetin əməkdaşları Bakının Bilgəh kəndində tənha yaşayan 83 yaşlı Ağakərim Babayevin qonağı olub, "DOST xonçası"nı təqdim ediblər. Ağakərim Babayevi Azərbaycan Universitetinin kollektivi adından təbrik edən universitet əməkdaşları onunla həmsöhbət olublar.
Aksiyanın məqsədi tənha ahıl, yaşlı insanları ziyarət etmək, onlarla bayramlaşmaq, cəmiyyətdə ahıllara diqqət və qayğını aşılamaq, nəsillərdən nəsillərə ötürülən bu adət-ənənəmizi qoruyub saxlamaqdır.



## Məcburi köçkünlərlə həmrəylik aksiyasında iştirak

Azərbaycan Universiteti Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin keçirdiyi "Köçkünlərlə bərabərik" adlı aksiyaya qoşularaq həmrəylik nümayiş etdirib.
Universitetin bir qrup əməkdaşının Azərbaycan və ingilis dillərində "Köçkünlərlə bərabərik" yazılmış çərçivələrlə çəkdirdiyi şəkillər #withIDPs, #köçkünlərləbərabərik həştəqləri ilə sosial mediada paylaşılıb.
Aksiyada professor-müəllim heyəti, dekanlar, kafedra müdirləri, şöbə rəhbərləri, inzibati heyət iştirak edib.



## Akademik Yaqub Mahmudov tələbələrə ustad dərsi keçdi

AMEA-nın həqiqi üzvü, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Əməkdar elm xadimi, millət vəkili, akademik Yaqub Mahmudov Azərbaycan Universitetinin tələbələrinə "Müasir dövrdə Azərbaycan tarixinin aktual problemləri" mövzusunda ustad dərsi keçib. Akademik məruzəsində Azərbaycan tarix elmindəki mövcud vəziyyət və rəhbəri olduğu Tarix İnstitutunda görülən işlər haqqında məlumat verib, ölkə başçısının çağırış, tövsiyə və tapşırıqları ilə institut tərəfindən son illərdə Azərbaycan tarixinə dair 300-dən çox əsər və sənədlər toplusunun nəşr olunduğunu, xarici dillərə tərcümə edilərək dünyaya yayıldığını bildirib.
Tədbir çərçivəsində akademik Yaqub Mahmudov və Tarix İnstitutu tərəfindən çap olunan əsərlərin sərgisi də təşkil olunub. Tədbirdən sonra 300 adda 2 min kitab Azərbaycan Universitetinin kitabxanasına hədiyyə olunub.



## Professor Qabil Əliyev yüksək dövlət mükafatına layiq görülüb

Azərbaycan Universitetinin İctimai elmlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor Qabil Əliyev Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib.
Yubiley medalı Təhsil naziri Ceyhun Bayramov tərəfindən bir qrup alim, təhsil işçisi, o cümlədən professor Qabil Əliyevə təqdim edilib.
Qeyd edək ki, bu medalla AXC liderlərinin varisləri və Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.



## Professor Mayis Əliyev İctimai Şuranın üzvü seçilib

Azərbaycan Universitetinin Sosial işin təşkili kafedrasının professoru Mayis Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü seçilib. Professora üzvlük vəsiqəsi Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin İctimai Şuranın üzvləri ilə görüşündə təqdim edilib.



## Adil Babayevə həsr olunmuş ədəbi-bədii tədbir

Şair, tərcüməçi və dramaturq Adil Babayevin yaradıcılığına həsr olunmuş "Təzədən doğulur şair ölən gün" adlı ədəbi-bədii tədbiri Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Ülviyyə Rəhimova açaraq Adil Babayevin Azərbaycan ədəbiyyatının "gələcək üçün yazan" görkəmli nümayəndələrindən biri olaraq qalıcı əsərlər yaratdığını bildirib.
Prof. Asif Hacıyev Adil Babayevin yaradıcılığının müxtəlif məqamları haqqında məlumat verib, onun sovet dövrünün paradoks və keşməkeşlərini əks etdirən ömür yaşadığını qeyd edib.
Şair Vahid Əziz Adil Babayev haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşüb, onun yüksək mənəvi keyfiyyətləri haqqında danışıb.



Adil Babayevin oğlu, tanınmış telejurnalist Etibar Babayev atası haqqında səsləndirilən xoş fikirlərə təşəkkür edərək qeyd edib ki, onun çoxşaxəli yaradıcılığının hər sahəsi tədqiqat obyekti olub, haqqında ciddi araşdırmalar aparılıb, çoxsaylı yaradıcılıq gecələri təşkil olunub. Atasının adının Bakı, Gəncə və Naxçıvanda əbədiləşdirildiyini vurğulayan telejurnalist Azərbaycan dövlətinə təşəkkür edib.
Sonda şairin həyat və yaradıcılığından bəhs edən "Ata olsam belə, Ata istərəm" adlı film nümayiş olunub. Film şairin şeirləri və onlara bəstələnən mahnılarla müşayiət olunur.

## Türkiyəli ifaçı Aylin Şengün Taşçı ilə görüş

Türkiyəli müğənni, Türk Sənət Musiqisi ifaçısı, "Nevasel" Türk Musiqi Cəmiyyətinin bədii rəhbəri və solisti Aylin Şengün Taşçı ilə görüşdə universitetin professor - müəllim heyəti və tələbələri iştirak edib.



Bakıya ilk səfərini 1990-cı il 20 yanvar hadisələrindən dərhal sonra etdiyini bildirən Aylin Şengün Taşçı o dövrdə jurnalistika fəaliyyəti ilə məşğul olduğunu və Azərbaycanın haqq səsini mətbuat vasitəsilə Türkiyə və dünyaya çatdırdığını qeyd edib, aradan keçən illər ərzində Azərbaycanın hərtərəfli inkişafının canlı şahidi olduğunu və ölkəmizin əldə etdiyi uğurları böyük fəxarətlə izlədiyini bildirib.
Türkiyəli qonaq tədbirdə ifa etdiyi musiqi növü və rəhbərlik etdiyi cəmiyyətin fəaliyyəti haqqında da məlumat verib. Azərbaycan musiqisini sevdiyini və repertuarına daxil etdiyini bildirən Aylin Şengün Taşçı "Çırpınırdın Qara dəniz" və "Nazəndə sevgilim" mahnılarını canlı ifa edib.
Qeyd edək ki, klassik türk musiqisinin sevilən nümayəndələrindən olan Aylin Şengün Taşçı rəhbərlik etdiyi musiqi cəmiyyətinin 50-yə yaxın üzvü ilə birlikdə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Respublika Gününə həsr olunmuş konsert proqramı ilə çıxış edib.
Politologiya və beynəlxalq əlaqələr üzrə fəlsəfə doktoru olan Aylin Şengün Taşçı elmi-pedaqoji fəaliyyətlə də məşğul olub.

## Maliyyə və iqtisadiyyat kafedrasına ingilis professor Paul Gibbs rəhbərlik edəcək

Maliyyə və iqtisadiyyat kafedrasının yeni müdiri prof. Paul Gibbs inzibati heyətə təqdim olunub. Prof. Paul Gibbs bundan əvvəl Böyük Britaniyanın London şəhərində yerləşən Middlesex Universitetinin professoru olub.
Yeni kafedra müdiri təqdimatın ardından rektor Səadət Əliyevanın qəbulunda olub, kafedranın inkişafı ilə bağlı platformasını rektora təqdim edib. Görüşdə kafedra tərəfindən tədris olunan ixtisasların tədris proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması, tədris prosesinin bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla təşkil olunması, akademik imkanların gücləndirilməsi, kafedranın əməkdaşlarının beynəlxalq layihələrdə iştirakı və digər bu kimi məsələlər müzakirə olunub. Qeyd edək ki, Paul Gibbs kafedranın professoru kimi də fəaliyyət göstərəcək.



## "Elm günü"nə həsr olunmuş tədbir

"27 mart – Elm günü"nə həsr olunmuş tədbirdə AMEA-nın müxbir üzvü, professor Akif Musayev "Qloballaşma, ekologiyada baş verən dəyişikliklər və texnologiyaların inkişafının iqtisad elminin qarşısında qoyduğu problemlər" mövzusunda məruzə ilə çıxış edib.
Məruzədə müasir dövrdə iqtisad elminin qarşısında duran problemlərə diqqət çəkilib, maliyyə sektorunun real sektorla müqayisədə xüsusi çəkisinin daha böyük olması, xidmətin xüsusi çəkisinin maddi istehsalla müqayisədə çox böyük olması, əmək haqqı bölgüsündə anormallıq, rəqəmsal iqtisadiyyatın nəticələrinin qiymətləndirilməsi, kriptovalyutanın və bitkoinin yayılması və bu kimi məqamlara toxunub.



## Müasir Amerika ədəbiyyatına həsr olunmuş seminar

Seminar Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Ülviyyə Rəhimovanın moderatorluğu, sim-sim.az saytının rəhbəri, şair, esseist Qismət Rüstəmovun iştirakı ilə təşkil olunub. Tədbirdə çağdaş dünya ədəbiyyatındakı meyillər, XXI əsr Amerika ədəbiyyatındakı istiqamətlər və aparıcı mövzular, radikal paradiqma dəyişikliyi, forma axtarışlarından söhbət açılıb, mövzu ətrafında müzakirə aparılıb. Tədbirdə kafedranın professor-müəllim heyəti və Ədəbiyyatşünaslıq (Amerika ədəbiyyatı) ixtisası üzrə təhsil alan magistratura tələbələri iştirak edib.



## Doktorant və dissertantlarla görüş



Tanışlıq və təlimat xarakterli görüşdə doktorant və dissertantların təhsil aldıqları müddətdə görəcəkləri işlər barədə məlumat diqqətə çatdırılıb. Magistratura və doktorantura şöbəsinin müdiri Nüşabə Quliyeva yeni doktorant və dissertantları təbrik edib, onlara məsləhət və tapşırıqlarını verərək, gələcək elmi fəaliyyətlərində uğurlar arzulayıb.

## "Beynəlxalq Ailə Günü"nə həsr olunmuş dəyirmi masa

"15 May - Beynəlxalq Ailə Günü"nə həsr olunmuş "Millilik və müasirlik kontekstində ailə dəyərləri" mövzusunda dəyirmi masada "Yeni həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova, Sosial iş sahəsində müstəqil ekspert Nəzakət Balabəyova, kafedranın müdiri Aygün Musayeva, kafedranın müəllimləri Tünzalə Verdiyeva, Züleyxa Nəcəfova və Sosial iş ixtisası üzrə təhsil alan III və IV kurs tələbələri iştirak edib.



Tədbirdə ailə anlayışı, növləri, funksiyaları, ailə dəyərləri, ailə üzvlərinin hüquqları və öhdəlikləri, ailədə məsuliyyət və vəzifələr, ailə münasibətlərinin tənzimlənməsi, ailə institutunun müasir problemləri kimi məsələlərə aydınlıq gətirilib, tələbələrin və ekspertlərin fikirləri dinlənilib, real keyslər əsasında mövzu ətrafında müzakirələr aparılıb.

## İcmalarla sosial işin spesifik xüsusiyyətlərinə həsr olunmuş dəyirmi masa

Dəyirmi masada Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Şuşa Humanitar Kolleci, Bakı Dövlət Sosial - İqtisadi Kollecinin müəllimləri, Qərbi Azərbaycan, Naxçıvan, Qazax, Şəki, Şamaxı Mingəçevir, Tovuz icmalarının nümayəndələri iştirak edib.



Naxçıvan Dövlət Universitetinin əməkdaşları dəyirmi masaya onlayn şəkildə qoşulublar. Sosial işin təşkili kafedrası tərəfindən təşkil olunan tədbirdə kafedranın baş müəllimi Tünzalə Verdiyeva "İcmalarla sosial işin spesifik xüsusiyyətləri" mövzusunda təqdimatla çıxış edib. Təqdimat icma anlayışı, icmaların təsnifatı, icma səfərbərliyi, icma resursları, icma liderliyi, icma fondları, icmanın davamlılığı və dayanıqlılığı kimi mövzuları əhatə edib. Dəyirmi masa mövzu ətrafında müzakirələrlə davam edib, iştirakçıların probleminin həlli yolları barədə təklifləri dinlənilib.

## "Gənc mühasiblər" İctimai Birliyindən təşəkkür


AZƏRBAYCAN GƏNCLƏR FONDU

TƏŞƏKKÜRNAMƏ

Azərbaycan Universiteti

Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə Gənc Mühasiblər İctimai Birliyi tərəfindən həyata keçirilən " Gənclər üçün Mühasibatlıq üzrə II Olimpiadanın təşkili " adlı layihə çərçivəsində göstərdiyi təşkilati dəstəyə və səmərəli əməkdaşlığa görə təltif edilir.

30 mart 2019-cu il.
Bakı Konqres Mərkəzi
Bakı şəhəri.

Gənc Mühasiblər
İctimai Birliyinin sədri
Solmaz Əliyeva

Universitetimiz Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Gənc Mühasiblər" İctimai Birliyi tərəfindən keçirilən "Gənclər üçün Mühasibatlıq üzrə II Olimpiadanın təşkili" adlı layihə çərçivəsində göstərdiyi təşkilati dəstəyə və səmərəli əməkdaşlığa görə təşəkkürnamə ilə təltif olunub.
Ümumilikdə 11 universitetin 400-dən çox tələbəsini əhatə edən müsabiqənin final mərhələsində 45 tələbə iştirak edib.

## Rektor Səadət Əliyeva xanım əməkdaşları mükafatlandırıb

Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə universitetin bütün xanım əməkdaşlarını və müəllimlərini mükafatlandırıb. Universitetin əldə etdiyi uğurlarda xanım kollektivinin böyük əməyi olduğunu qeyd edən rektor, onlara təşəkkür edib, xoş arzularını çatdırıb.




## "Zəfər Kursları"nın təhsil sərgisində iştirak

Azərbaycan Universiteti Zəfər Kurslarının təşkilatçılığı ilə "Park Inn Hotel"də keçirilən "Azərbaycan Universitetlərinin Təhsil Sərgisi"ndə öz stendi ilə təmsil olunub.
Stendin ziyarətçilərinə Azərbaycan Universitetinin fəaliyyəti, beynəlxalq əlaqələri, tələbələr üçün yaradılan imkanlar haqqında ətraflı məlumat verilib, abituriyent, müəllim və valideynlərin qəbul prosesi, ixtisas seçimi haqqında sualları cavablandırılıb.
Sərgidə 26 universitet, kollec və hazırlıq kursu təmsil olunub.



## DİM zal nəzarətçisi sertifikatı almaq istəyənlər üçün silsilə təlimlər keçirib

Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən Azərbaycan Universitetində zal nəzarətçisi sertifikatı almaq istəyənlər üçün silsilə təlimlər keçirilib. Təlimlərdə iştirakçılara DİM haqqında ümumi məlumat, imtahanlar, imtahanların təşkili və idarə edilməsi, imtahanlara cəlb olunan məsul şəxslərin seçimi, təyinatı, qiymətləndirilməsi, imtahanların texnologiyası, auditoriyanın idarə edilməsi, zal nəzarətçilərinin və digər şəxslərin vəzifələri və funksiyaları haqqında nəzəri məlumatlar verilib, tapşırıqlar qoyulub və fikir mübadiləsi aparılıb.

## Ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən anım tədbirində universitet rəhbərliyi, professor-müəllim heyəti, inzibati heyət və tələbələr iştirak edib.
Tədbir iştirakçıları səhər saatlarında Fəxri Xiyabanı ziyarət edərək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.
Universitetin tədris binasının foyesində ümummilli liderin büstü önünə əklil qoyulub, xatirəsi ehtiramla yad edilib.
Tədbirdə ümummilli liderin hakimiyyətinin hər iki dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisi, dövlət quruculuğu, müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi, dövlətimizin beynəlxalq nüfuzunun gücləndirilməsi sahəsində gördüyü işlərə nəzər salınıb.



## Professor Qabil Əliyev "Azərtac"a müsahibə verib

Azərbaycan Universitetinin professoru, tarix üzrə elmlər doktoru, ictimai elmlər kafedrasının müdiri Qabil Əliyev "Azərtac"a müsahibə verib. Müsahibədə qeyd olunur ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikası keçid dövrünün ağrılı problemlərini Dağlıq Qarabağda erməni separatçılarının və Ermənistan respublikasının hərbi təcavüzünü dəf etməklə bir arada həll etmək məcburiyyətində qalmışdı. Həmin dövrdə ölkə rəhbərliyində təmsil olunan şəxslərin zəif iradəli olmaları, kadrların bacarıqsızlığı və səriştəsizliyi xalqımızı yeganə ümid yeri kimi Heydər Əliyevə üz tutmağa məcbur etdi.



Ulu öndərin uzun müddət Azərbaycana rəhbərlik etməsi, respublikamızı qısa müddət ərzində bütün əsas göstəricilər üzrə qabaqcıllar sırasına çıxarması, Sovet İttifaqı rəhbərliyində uğurlu addımları qədirbilən xalqımızın xatirəsində idi. Ona görə də o zamankı rəhbərliyin hər növbəti səhvi, ordumuzun cəbhədəki uğursuzluğu Heydər Əliyevi xilaskar kimi görənlərin sayını artırırdı.
Qabil Əliyev qeyd edib ki, ümummilli liderin xalqın təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, ordu quruculuğunda, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başlandı. Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş xain addımların qarşısı bir-birinin ardınca alındı, dövlət müstəqilliyi qorunub saxlandı.
Bu gün Azərbaycanda qazanılan böyük uğurların bir səbəbi var – o da ölkəmizdə Heydər Əliyev siyasi kursunun ardıcıl şəkildə davam etdirilməsidir. Heydər Əliyev siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasət dövlət müstəqilliyinin qorunmasına və daha da möhkəmləndirilməsinə xidmət edir.

## Xocalı soyqırımına həsr olunmuş anım tədbiri

Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş anım tədbirində Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, iştirakçılara Xocalı soyqırımının beynəlxalq miqyasda tanınması istiqamətində görülmüş işlər haqqında məlumat verilib.
Universitetin rektoru Səadət Əliyeva faciənin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq miqyasda tanınması üçün aparılan ideoloji təbliğatın əhəmiyyətini qeyd edib, Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının artıq konkret nəticələr verdiyini diqqətə çatdırıb.



Universitetin qonağı yazıçı, publisist, jurnalist, Qarabağ müharibəsi veteranı, Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri Səriyyə Müslim qızı "Xocalı soyqırımı şahidinin gördükləri" mövzusunda çıxış edərək faciə gecəsi yaşadığı və şahidi olduğu hadisələri tədbir iştirakçıları ilə bölüşüb.
Sonda tədbir iştirakçıları üçün Xocalı soyqırımının 27-cı ildönümünə həsr edilmiş "Xocalıda məhv olmuş 8 ailə" filmi nümayiş olunub. Film Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Erməni təcavüzünün tanıdılması" İctimai Birliyi tərəfindən lentə alınıb. Gün ərzində isə universitet tələbələri üçün akt və konfrans zallarında "Xoca" filminin nümayişi təşkil olunub.

## "Azərbaycanlıların Soyqırımı Günü"nə həsr olunmuş tədbir



"31 Mart-Azərbaycanlıların Soyqırımı Günü"nə həsr olunmuş anım tədbirində ermənilər tərəfindən müxtəlif dövrlərdə xalqımıza qarşı törədilmiş soyqırımı cinayətlərinin mahiyyəti və məqsədləri, bu sahədə aparılmış yeni tədqiqatlar haqqında məlumat verilib.
İctimai elmlər kafedrasının müdiri, prof. Qabil Əliyev qeyd edib ki, erməni işğalçılarının və onları dəstəkləyən qüvvələrin Azərbaycan xalqına qarşı yeritdiyi düşmənçilik siyasətinin 200 ilə yaxın tarixi var. Professor çıxışında bu məkrli siyasətin tarixi faktlara əsaslanaraq ifşa edilməsinin əhəmiyyətini vurğulayıb.
Tədbirin qonağı, tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-ci ilin mart – aprel hadisələrinin tədqiqi məqsədilə görülmüş işlər haqqında danışıb, qeyd edib ki, AXC-nin süqutu prosesin başa çatmasına imkan verməyib. Qonaq bildirib ki, müstəqilliyin bərpasından sonra ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman bu sahədə aparılan tədqiqatların istiqamətini dəyişib.
Məhərrəm Zülfüqarlı çıxışında bu istiqamətdə apardığı və nəticələri "Şamaxı soyqırımı" (2011), "Göyçay döyüşləri" (2017), "Göyçay döyüşləri Türkiyə tarixşünaslığında" (2018) kitablarında yer alan yeni tədqiqatları haqqında məlumat verib.

# Azərbaycan Universiteti şəhid məzunu Fəxrəddin Qurbanlını unutmur



2016-cı il Aprel döyüşlərində şəhid olan məzunu Fəxrəddin Qurbanlının xatirəsini daim uca tutan Azərbaycan Universitetində 1-6 aprel tarixləri "Fəxrəddin Qurbanlını anım həftəsi" elan olunub.
Anım həftəsi çərçivəsində dərslərdə tələbələrə Azərbaycan Ordusunun qələbə əzmini və ədalətin bərpa olunacağını bütün dünyaya sübut edən "Aprel döyüşləri və nəticələri" haqqında məlumat verilib, şəhidin xatirəsi hörmət və ehtiramla yad edilib.
Universitetdə Fəxrəddin Qurbanlının xatirəsinə guşə yaradılıb, I kurs tələbələri üçün şəhidin xatirəsinə həsr olunmuş "Lələtəpədə yazılan dastan" sənədli filminin nümayişi təşkil olunub. Şəhidin ailə üzvləri filmi universitet heyəti və tələbələrlə birlikdə izləyib.
Aradan keçən 3 il ərzində Fəxrəddin Qurbanlının ailəsinə daim mənəvi dəstək olan Universitet rəhbərliyi bu il də şəhidin yas mərasimində iştirak edərək mənəvi həmrəylik nümayiş etdirib.
Qeyd edək ki, Azərbaycan Universiteti tərəfindən 2016-cı ildə "Şəhid Fəxrəddin Qurbanlı adına təqaüd" təsis olunub. Aprel döyüşlərinin ikinci ildönümündə isə şəhidin xatirəsinə həsr olunmuş "Şəhidlər ölmür" adlı xatirə kitabı nəşr olunub.
Allah bütün şəhidlərimizə rəhmət eləsin!

## Şəhid Fəxrəddin Qurbanlı adına Təqaüd

"Şəhid Fəxrəddin Qurbanlı adına Təqaüd" Azərbaycan Universiteti tərəfindən 2016-cı ildə təsis olunub. Təqaüd 2016/2017-ci tədris ilindən etibarən birinci tədris ilinin birinci semestrində universitetə ən yüksək balla qəbul olmuş tələbəyə verilir. Təqaüdün ümumi məbləği 500 manat təşkil edir.
Şəhidin adının əbədiləşdirilməsi məqsədilə təsis olunan təqaüdə indiyə qədər 4 tələbə layiq görülüb.

**Şəhid Fəxrəddin Qurbanlı**
Qurbanlı Fəxrəddin Seyfəddin oğlu 1994-cü ildə Bakı şəhərinin Binəqədi rayonunda anadan olub. Qorxmaz Baxşıyev adına 179 nömrəli tam orta məktəbi bitirib.
2011-ci ildə Azərbaycan Universitetinin Sosial iş ixtisasına qəbul olub. Əlaçı və nümunəvi tələbə olub. "Hüquq Dünyası" Hüquqi Təbliğat İctimai Birliyi, "SOS" Uşaq Kəndləri, UAFA (United Aid For Azerbaijan - Azərbaycana birgə yardım) kimi təşkilat və layihələrdə könüllü kimi işləyib.
2015-ci ildə Sosial iş fakültəsindən üçüncülüklə məzun olub. Həmin ilin iyul ayında hərbi xidmətə yollanıb. 2016-cı il aprel ayının ilk günlərində cəbhə xəttinin Tərtər istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən şəhid olub. Sabunçu rayon Pirşağı qəsəbəsindəki kənd qəbiristanlığında dəfn edilib. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

## Polşanın WSB Universiteti ilə əməkdaşlıq yeni mərhələyə qədəm qoyur

Azərbaycan Universiteti Polşanın tərəfdaş WSB Universiteti ilə əməkdaşlığı genişləndirir. Ali məktəbin Beynəlxalq əlaqələr üzrə prorektoru Rafal Rebilas və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Pavel Urgacz bu məqsədlə prorektorumuz Yusif Qasımovla görüşüb.

Görüşdə ali təhsil müəssisələri arasında yeni əməkdaşlıq sahələri müəyyənləşdirilib və təfərrüatlar müzakirə olunub. Əsas diqqət isə beynəlxalq ikili diplom proqramlarının yaradılmasına yönəlib. Bu istiqamətdə əməkdaşlıq həm bakalavriat, həm də magistratura pilləsini əhatə edəcək.



## Ukrayna universiteti ilə əməkdaşlığa start verildi

Azərbaycan Universiteti ilə Ukraynanın Xarkov Milli Radio Elektronika Universiteti arasında anlaşma Memorandumu imzalanıb. Sənəd ali təhsil müəssisələri arasında qarşılıqlı maraq doğuran sahələrdə çoxşaxəli əməkdaşlığa zəmin yaradır.

Memorandumda birgə layihələrin həyata keçirilməsi, ikili diplom proqramlarının yaradılması, birgə laboratoriya və tədris mərkəzinin qurulması, Azərbaycan Universiteti tələbələrinin Xarkov Milli Radio Elektronika Universitetində təhsil almaları və başqa bu kimi məsələlər öz əksini tapıb. Mərasimdə Xarkov Milli Radio Elektronika Universitetinin rektoru prof. Valeri Semenes, Beynəlxalq əlaqələr üzrə prorektor Murad Omarov, Kompüter mühəndisliyi fakültəsinin dekanı Aleksey Lyasenko, Sistemotexnika kafedrasının müdiri İqor Qrebennik iştirak edib. Azərbaycan Universitetini mərasimdə İnformasiya – kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev təmsil edib.



## Azərbaycan Universiteti Almaniyada beynəlxalq tədbirdə təmsil olunub

Azərbaycan Universiteti Almaniyanın Koblenz Universitetində keçirilmiş ənənəvi "International Week" tədbirində təmsil olunub. İyun ayında keçirilən tədbirdə Azərbaycan Universitetini Beynəlxalq əlaqələr şöbəsinin müdiri Bəxtiyar Bədəlov və Azərbaycan Universitetinin Erasmus tələbələrindən Christiane Richter təmsil edib. Tədbirin məqsədi dünyanın fərqli ölkələrindən olan universitetləri bir araya gətirmək və onların sərgisini təşkil etməkdir.



## Almaniyalı professor tələbələrimizə mühazirə oxuyub

Almaniyanın Koblenz Universitetinin professoru Martina Brück tələbələrimizə mühazirə oxuyub. "Erasmus+" mübadilə proqramı çərçivəsində Bakıya gələn professor iki həftə ərzində tədris prosesində iştirak edib.
Martina Brückün mühazirələri bakalavriat pilləsində biznes və iqtisadiyyat fakültəsinin ingilisdilli ixtisaslarında tədris olunan korporativ maliyyə, maliyyə menecmenti və statistika fənlərini, MBA qruplarında isə maliyyə analizi və kredit strukturlarına giriş fənlərini əhatə edib. Alman professor universitetin Təlim və Tədris mərkəzində "Layihələrin idarə olunması" və "Koblenz Universitetində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi" mövzularında təlim də keçib.
Qonaq professor ölkəsinə yola düşməzdən əvvəl rektor Səadət Əliyeva ilə görüşərək həm Azərbaycan Universiteti, həm də Bakı haqqında xoş təəssüratlarını bildirib.



## Əməkdaşlarımız Xorvatiyada ezamiyyətdə olub

Müəllimlərimiz Xədicə Ələkbərova və Ləman Qasımlı beynəlxalq "Erasmus+" mübadilə proqramı çərçivəsində Xorvatiyanın Dubrovnik Universitetində ezamiyyətdə olub. İki həftə davam edən səfər çərçivəsində əməkdaşlarımız tədris prosesində iştirak edib, təcrübə keçiblər. Xədicə Ələkbərova bu ali məktəbin Erasmus tələbələri üçün "Təşkilati davranış" fənni üzrə mühazirələr aparıb. Mühazirələr "Təşkilati davranışda yanlış qavrama və qavramaya təsir edən amillər, "Qrup halında qərar qəbul etmə" kimi mövzuları əhatə edib.
Xarici dillər kafedrasının müəllimi Ləman Qasımlı isə Dubrovnik Universitetinin Karyera mərkəzi, Dil mərkəzi və Elmi kitabxanasında təcrübə keçib.

## Müəllimimiz Hüseyn Hüseynli Türkiyə universitetinin tələbələrinə mühazirə oxuyub

Azərbaycan dili və ədəbiyyat kafedrasının baş müəllimi Hüseyn Hüseynli "Mövlanə" Mübadilə Proqramı çərçivəsində Türkiyənin Mehmet Akif Ersoy Universitetinə ezam olunaraq bu ali məktəbdə tədris prosesində iştirak edib. Hüseyn Hüseynli iki həftə ərzində türk dili və ədəbiyyat ixtisası üzrə təhsil alan tələbələrə mühazirə oxuyub, ikili dərslər təşkil olunub. Mühazirələr Orta əsrlər Azərbaycan ədəbiyyatı, Azərbaycanın dahi şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Şah İsmayıl Xətainin həyat və yaradcılığını əhatə edib.
Müəllimimiz bu ali məktəbdə "XIX əsr Azərbaycan ədəbiyyatı" mövzusunda konfransda məruzə ilə çıxış edib. Məruzədə iştirakçılara Azərbaycan ədəbiyyatı və incəsənəti haqqında məlumat verilib, fikir mübadiləsi aparılıb.



## Xorvatiyalı prorektor Azərbaycan Universitetində mühazirə oxuyub

Xorvatiyanın Dubrovnik Universitetinin iqtisadi məsələlər üzrə prorektoru Nebojsa Stojcic və bu ali məktəbin Biznes və iqtisadiyyat kafedrasının müdiri Katja Vojvodic "Erasmus+" mübadilə proqramı çərçivəsində Azərbaycan Universitetinə ezam olunublar.

Prorektor Nebojsa Stojcic Biznes və iqtisadiyyat fakültəsinin tələbələrinə mühazirə oxuyub. Katija Vojvodic isə universitetin struktur bölmələrində təcrübədə olub, magistratura tələbələri üçün elmi tədqiqat işlərinin yerinə yetirilməsinə dair seminar aparıb.



## Əməkdaşlarımız növbəti PETRA təlimlərində iştirak edib

Avropa Komissiyasının "Erasmus+" proqramı üzrə PETRA "Azərbaycan universitetlərində tədris və təlimin təkmilləşdirilməsi" layihəsi çərçivəsində növbəti təlimlər Gəncə Dövlət Universitetində keçirilib. Azərbaycan Universiteti Beynəlxalq əlaqələr şöbəsinin müdiri Bəxtiyar Bədəlov və Monitorinq və qiymətləndirmə üzrə mütəxəssis Elçin Cəfərov təlimlərdə iştirak ediblər.

Təlimlərdə "Moodle" proqramının tətbiqinə dair müxtəlif tapşırıqlar ətrafında qrup işi həyata keçirilib.

## Müəllimlərimiz Türkiyədə beynəlxalq tədbirlərdə iştirak edib

Maliyyə və iqtisadiyyat kafedrasının baş müəllimi Ruhəngiz Əliyeva və kafedranın müəllimi Elmin Nurməmmədov Türkiyənin İstanbul şəhərində keçirilən V Beynəlxalq "Təhsil və sosial elmlər konqresi"ndə (TÜRKCESS 2019) məqalə ilə iştirak ediblər. Konqresə Yıldız Teknik Universiteti evsahibliyi edib.

Əsas mövzusu "XXI əsr bacarıqları və 2023 təhsil vizyonu" olan beynəlxalq tədbirdə 25 ölkədən 900-ə yaxın alim və tədqiqatçı iştirak edib.




Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti Lalə Əliquliyeva və baş müəllimi Ülkər İbrahimova isə yenə İstanbul şəhərində keçirilən II Beynəlxalq "Dil, təhsil və mədəniyyət" konqresində (ICLEC 2019) məruzə ilə iştirak ediblər. Əməkdaşlarımızın məruzələri öz elmi yeniliyi ilə diqqəti cəlb edib. Konqres Medipol Universitetinin evsahibliyində keçirilib.



## Rektor Səadət Əliyevanın yeni kitabı çap olunub

Azərbaycan Universitetinin rektoru Səadət Əliyevanın həmmüəllifi olduğu "Robert Börns: Şeir, nəğmə körpüsü və sözlə hörülmüş dünya" adlı yeni dərs vəsaiti çap olunub. Kitabın digər həmmüəllifi filologiya elmləri doktoru, professor Şahin Xəlillidir. Dərs vəsaitində Britaniya poeziyasının klassik şairi, şotland əsilli Robert Börnsün həyat və yaradıcılığına dair ədəbi esselər, onun şeir və nəğmələrinin bir qisminin orijinaldan tərcümələri, eləcə də dövlət xadimi, şair və yazıçıların şotland bardı haqqında mühakimə və şərhləri təqdim edilir. Börns yaradıcılığı çevrəsində Azərbaycan – Şotlandiya qarşılıqlı əlaqələrinə dair rəsmi sənəd, tarixi əsərlər və yaradıcılıq nümunələri diqqətə çatdırılır.




Dərs vəsaiti 376 səhifə, ön söz, dörd hissə və epiloqdan ibarətdir.  Börns yaradıcılığının tədqiqatçısı, Robert Börnsün seçmə əsərlərinin yeni Oksford nəşrinin müəllifi, Börnsşünaslığın dünyada mərkəzi sayılan Qlazqo Universitetinin professoru Naycel Lisk kitaba ön söz yazıb. Ön sözdə kitabın şotland bardının həyatının və poeziyasının ayrı-ayrı aspektlərinə, eləcə də onun həm şotland ədəbi ənənələrinə, həm də dünyanın digər ölkələrindəki şair və yazıçılara təsiri məsələsinə həsr olunmuş çoxsaylı elmi esselər məcmusu olduğu qeyd olunur, kitabın azərbaycanlı tələbələr üçün dəyərli elmi mənbəyə çevriləcəyinə əminlik ifadə edilir.

## Professor Qorxmaz Quliyevin yeni kitabı çap olunub

Azərbaycan Universitetinin professoru Qorxmaz Quliyevin "Ədəbi cərəyanlar və istiqamətlər" adlı yeni kitabı çap olunub. Dərs vəsaiti kimi təqdim olunan kitabın elmi redaktoru Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Ülviyyə Rəhimova, rəyçiləri isə filologiya üzrə elmlər doktoru, professor Asif Hacıyev və filologiya üzrə elmlər doktoru Cavanşir Yusiflidir.




Kitabda bədii estetik inkişafın müəyyən konkret mərhələsində ədəbi-estetik istiqamətlərin və cərəyanların meydana gəlməsi səbəbləri, onların bir-birini əvəz etməsi, aralarında mövcud olan ziddiyyətlər və onların həlli yolları öz əksini tapıb. Kitabda ənənəvi cərəyanlarla yanaşı müasir dövrdə formalaşmış ədəbi istiqamətlər və cərəyanlar da ətraflı şəkildə təhlil olunurlar.
Monoqrafiyada mövcud ədəbi cərəyanlar və istiqamətlərin həm nəzəri kontekstdə, həm də ədəbi-bədii praktikada paralel olaraq araşdırılması bu istiqamətdə yazılan tədqiqatlar üçün nəzəri baza rolunu oynayır və çağdaş elmi-nəzəri fikrimizdə ədəbi cərəyanlar və istiqamətlər probleminə yenidən baxmanı zəruri edir.
260 səhifədən ibarət olan dərs vəsaiti ali məktəb tələbələri, magistrant, doktorant və dissertantlar üçün nəzərdə tutulub, o cümlədən ədəbiyyat nəzəriyyəsi ilə maraqlanan oxucu kütləsinə ünvanlanıb.

## Rektorun müşaviri Nüşabə Quliyevanın kitabı çap olunub

Azərbaycan Universiteti rektorunun müşaviri, Magistratura və doktorantura şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nüşabə Quliyevanın Almaniyada monoqrafiyası çap olunub.

"LAP Lambert Academic Publishing" beynəlxalq nəşriyyatı tərəfindən rus dilində nəşr olunan "XX əsrdə Şimali Azərbaycanda İslam təhsili" adlı kitabda qeyd olunur ki, dini təhsilin rolunun öyrənilməsi ənənəvi cəmiyyətin xüsusiyyətlərinin düzgün anlaşılmasında böyük əhəmiyyət kəsb edir.




Geniş spektrli mənbələrə, sənədlərə və elmi ədəbiyyata istinad etməklə Şimali Azərbaycanda islam təhsilinin və maarifçiliyinin əsas institutlarının uzun müddət məscid, məktəb və mədrəsələr olmasının sübuta yetirilməsi monoqrafiyanın əhəmiyyətini artırır. Bildirilir ki, XX əsrin sonunadək ölkədə elmi fikir və düşüncələrin inkişafı dini təhsil sistemi çərçivəsində aparılıb. Azərbaycan ziyalılarının nümayəndələri Şimali Azərbaycanda dini (islam)-kübar təhsil sisteminin banisi olublar. Sovet hakimiyyəti illərində unudularaq xatirələrdən silinmiş bu təhsil sistemi XX əsrin sonunda yenidən dirçələrək mütərəqqi və dinamik inkişafa nail olub. 146 səhifədən ibarət monoqrafiya tədqiqatçılar, tarixçilər, islam təhsili ilə maraqlananlar, həmçinin geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

## Professor Qabil Əliyevin yeni kitabı çap olunub

Azərbaycan Universiteti İctimai elmlər kafedrasının müdiri, professor Qabil Əliyevin "Qafqazda nəqliyyatın inkişafı" (XVIII əsrin sonu–XX əsrin başlanğıcı) adlı yeni kitabı çapdan çıxıb.

Kitabda XVIII əsrin sonu–XIX əsrin başlanğıcında - regionun Rusiya imperiyası tərəfindən işğal olunması ərəfəsində və dövründən başlayaraq sonrakı yüzillik ərzində ənənəvi karvan yollarının vəziyyəti, Xəzər və Qara dəniz sahillərinə, Qafqazın inzibati mərkəzinə çevrilən Tiflisə və Rusiyanın Avropa hissəsinə doğru yolların əhəmiyyətinin artmağa başlaması, Kür çayında və Xəzər dənizində gəmiçiliyi inkişaf etdirmək tədbirləri araşdırılıb.

Müəllif kitabda imperiya miqyasında ilk dəmir yollarının çəkilməsi və Qafqazda dəmir yolları inşası haqqında layihələr və onların reallaşdırılması sahəsində tədbirlərdən geniş şəkildə bəhs edib.

Kitabda XIX əsrin sonu-XX əsrin ilk onilliklərində dəmir yolu nəqliyyatının və şoseləşdirilmiş yolların iqtisadi, sosial və mədəni həyata təsiri məsələləri tədqiq




edilib. Nəqliyyatın Qafqazda ümumi inkişafa əhəmiyyətli təsir göstərməsi vurğulanıb. 400 səhifədən ibarət olan kitabın elmi redaktoru akademik Yaqub Mahmudov, rəyçiləri professor Camal Mustafayev, tarix üzrə elmlər doktoru İradə Bağırova və tarix üzrə elmlər doktoru Sevinc Əliyevadır.

## Professor Asif Hacıyev rusiyalı tələbələr üçün dərs vəsaitləri hazırlayıb

Rusiya Federasiyasında Azərbaycan Universitetinin professoru Asif Hacıyevin Rusiya ali təhsil müəssisələrinin tələbələri üçün iki dərs vəsaiti dərc olunub. Hər iki kitab Ali təhsilin Federal dövlət təhsil standartlarının tələblərinə uyğun yazılıb və "Filologiya", "Rus dili və ədəbiyyatı", "Jurnalistika" ixtisasları üzrə təhsil alan rusiyalı tələbələr üçün nəzərdə tutulub. Dərs vəsaitləri Rusiyanın ali təhsil müəssisələri üçün tədris resurslarının nəşri üzrə ixtisaslaşmış "Ali təhsil" (Saratov, "Вузовское образование") nəşriyyatının təşəbbüsü və vəsaiti hesabına dərc edilib.
"Ədəbiyyatşünaslığın tarixi və metodologiyası" adlı tədris-metodik vəsaitdə ədəbiyyatşünaslıq fəaliyyətinin xüsusiyyətləri, klassik estetika və ədəbi fikrinin əsas inkişaf mərhələləri, XIX-XX əsrlər ümumavropa ədəbiyyatşünaslıq məktəbləri, ədəbiyyatşünaslığın filoloji ixtisaslarda tədrisinin metodikası və səciyyəsi haqqında məlumat verilir.
"Rus şəbəkə ədəbiyyatı: kontekst, tarix, tipologiya, poetika" adlı dərs vəsaitində müasir tarixi-ədəbi kontekstin, əsrlərin qovşağında rus ədəbi prosesindəki ədəbi cərəyanların, rus şəbəkə ədəbiyyatının əsas inkişaf mərhələlərinin, yaradıcılıq xüsusiyyətlərinin və sosial-hüquqi aspektlərinin öyrənilməsini nəzərdə tutan xüsusi kursun məzmunu əks olunub.




## Professor Asif Hacıyevin kitabı haqqında Rusiyada resenziya dərc olunub

Professor Asif Hacıyevin Almaniyanın LAP LAMBERT Academic Publishing beynəlxalq nəşriyyatı tərəfindən dərc edilmiş "Rus nəsrinin mifopoetikası. XX əsrin ikinci yarısı" (2018) adlı monoqrafiyası haqqında Rusiyanın nüfuzlu "Nauçnıy dialoq" (Научный диалог) jurnalında müsbət resenziya dərc olunub. Resenziyanın müəllifi




Rusiya Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasının professoru, filologiya elmləri doktoru Darya Borisovna Tereşkinadır.
Rusiyalı professor XX əsrin ikinci yarısı rus nəsrinin mifoloji poetikasına həsr olunmuş monoqrafiyada bu məsələnin nəzəri və praktik məsələlərinin vəhdətdə tədqiq edildiyini qeyd edərək, bildirir ki, Asif Hacıyev bədii obraz, müəllif, kompozisiya, süjet, xronotop, janr kimi nəzəri anlayışları və Vasiliy Şukşin, Vasliy Belov, Valentin Rasputin, Vladimir Makanin, Anatoli Kim, Çingiz Aytmatov, Timur Pulatov və digər rus və rusdilli yazıçıların əsərlərini mifopoetika baxımından araşdırmış, şəxsi elmi qənaətini təqdim etmişdir.
Rəydə monoqrafiyanın elmi-nəzəri dəyəri ilə yanaşı, tədris üçün də əhəmiyyəti qeyd olunur, tədqiqatın poetika məsələləri ilə bərabər, həm də XX əsrin ikinci yarısında rus yazıçılarını narahat edən mənəvi məsələləri əhatə etdiyi bildirilir.

# Gənc tədqiqatçıların II respublika elmi konfransı

Gənc tədqiqatçıların II respublika elmi konfransında 44 təhsil müəssisəsi, akademiya, elmi-tədqiqat institutlarında oxuyan və fəaliyyət göstərən magistrant, doktorant, dissertant və gənc tədqiqatçılar əldə etdikləri elmi yenilikləri müzakirə edib, fikir mübadiləsi aparıblar.



Tədbiri giriş sözü ilə universitetin rektoru Səadət Əliyeva açıb. Rektor qeyd edib ki, Cənab prezident İlham Əliyev Azərbaycanda neft ixracına əsaslanan iqtisadiyyatdan insan kapitalına və texnologiyalara əsaslanan iqtisadiyyata keçid strategiyasını bəyan edib. Ölkəmizdə yeni innovativ texnologiyalara əsaslanan sənaye sahələrinin qurulmasını nəzərdə tutan bu strategiyanın uğurla yerinə yetirilməsi innovativ biliklərə malik insan kapitalının yaradılmasından asılıdır. Bu kapital isə məktəb, universitet, auditoriya, seminar və konfranslarda formalaşır.



Ölkəmizdə hər il fevral ayının 2-nin Gənclər günü kimi qeyd olunması, həmin gün müxtəlif sahələr üzrə uğur qazanmış gənclərin Prezident sərəncamı ilə mükafatlandırılması, tələbə, magistrant və doktorantların təqaüdlərinin artırılması, onların sosial problemlərinin həlli istiqamətində ciddi addımların atılması artıq öz nəticələrini verir. Azərbaycan Universiteti gəncləri yeniliklərə, innovasiyalara, yeni texologiyalara yönəltmək istiqamətində də iş aparır. Bu konfrans məhz bu fəaliyyətin tərkib hissəsidir.
AMEA-nın Tarix İnstitutunun Azərbaycan-Rusiya əlaqələri tarixi şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru Sevinc Əliyeva, Ali Attestasiya Komisssiyası təbiət elmləri şöbəsinin müdir müavini, fizika üzrə elmlər doktoru Sakin Cabarov, Azərbaycan Müəllim İnkişaf Mərkəzinin direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Xədicə Cəfərova çıxış edərək bu tipli tədbirlərin bütün alimlərin əldə etdikləri nəticə və yenilikləri ictimaiyyətə çatdıra biləcəkləri əvəzedilməz platformalar olduğunu bildirib.
Açılışın ardından konfrans işini tarix və hüquq; filologiya - ədəbiyyat; filologiya – dilçilik; iqtisadiyyat; sosiologiya; riyaziyyat, fizika və İKT; tədris metodikası olmaqla 7 bölmədə davam etdirib.



Konfrans bağlanış mərasimi ilə başa çatıb. Mərasimdə universitetin elmi işlər üzrə prorektoru, prof. Yusif Qasımov hesabatla çıxış edib, istiqamətlər üzrə ən yaxşı elmi tədqiqat işlərinin müəllifləri xüsusi sertifikatla mükafatlandırılıb.

## V Avropa İqtisadi Konqresi

Azərbaycan Universiteti bir ilkə imza ataraq Avropa İqtisadi Konqresləri seriyasından olan beşinci tədbirin nüfuzlu iqtisadçı alimlərin iştirakı ilə Bakıda keçirilməsinə nail oldu. Türkiyənin Kocaeli və Polşanın WSB Universiteti ilə birgə keçirilən tədbir "Qlobal iqtisadi trendlər" mövzusuna fokuslandı.



Açılış mərasimində çıxış edən rektor Səadət Əliyeva qeyd edib ki, dünyada gedən qloballaşma tendensiyası və onun iqtisadiyyat da daxil olmaqla insan fəaliyyətinin bütün sahələrinə təsiri iqtisad elminin də qarşısına yeni tələblər qoyur. Azərbaycanda Prezident İlham Əliyevin elan etdiyi iqtisadi islahatlar paketləri və onların həyata keçirilməsi nəticəsində əldə olunan uğurların davamlı olmasının bir təminatı da qloballaşma şəraitinin doğurduğu reallıqların nəzərə alınması, onların elmi-nəzəri və praktiki əsaslandırılmasının təmin edilməsidir. Səadət Əliyeva konqresin təklif etdiyi platformanın belə məsələlərin müzakirəsi, onlara müxtəlif elmi baxışların formalaşdırılması və konkret elmi nəticələrin alınması baxımından uğurlu olacağına inandığını deyib.
Daha sonra millət vəkilləri Qənirə Paşayeva, Aydın Mirzəzadə, Kocaeli və WSB universitetlərinin nümayəndələri Selçuk Koç və Pavel Urgacz, AMEA-nın müxbir üzvü, prof. Akif Musayev, İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru, prof. Vilayət Vəliyev çıxış edərək tədbirin iqtisadiyyat elminə töhfələr verəcəyinə əminliklərini ifadə edib, konqresin işinə uğurlar arzulayıblar.
Tədbirin plenar iclasında dəvətli məruzəçilər - Almaniyanın Oldenburg Universitetinin professoru Hans - Michael Trautwein, İspaniyanın Extremadura Universitetinin professoru Rui Alexandre Castanho, İtaliyanın Roma Tre Universitetinin professoru Roberto Ciccone, Polşanın Meterologiya və Su Təsərrüfatı İnstitutunun professoru Tomasz Kasprowiczin çıxışları dinlənilib.



Fasilənin ardından tədbir işini bölmə iclaslarında davam etdirib.
3 gün davam edən konqresin bölmələrində 13 ölkəni təmsil edən müəlliflərin müasir iqtisadiyyatın aktual problemlərinə həsr olunmuş 100-ə yaxın məruzəsi dinlənilib.




Konqres, "Tədqiqatyönümlü ali təhsil müəssisəsi" statusuna nail olunması və Azərbaycan Universitetinin beynəlxalq elmi nüfuzunun artırılması istiqamətində aparılan ardıcıl və məqsədyönlü işlərin tərkib hissəsi olaraq həyata keçirildi.

## "Azərbaycan ali təhsilinə beynəlxalq prizmadan baxış: problemlər və perspektivlər" respublika konfransı

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycan ali təhsilinə beynəlxalq prizmadan baxış: problemlər və perspektivlər" mövzusunda respublika elmi konfransının məqsədi yeni çağırışlar qarşısında olan Azərbaycan ali təhsil sisteminin problemləri və inkişaf perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün elmi platforma tətbiq etməkdir.
Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru, prof. Yusif Qasımov, Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini Anar Nağıyev, Bakı Dövlət Universitetinin pedaqogika kafedrasının müdiri, prof. Ləzifə Qasımova açılış mərasimində çıxış edərək müzakirə olunacaq mövzuların əhəmiyyətini vurğulayıb, tədbirin işinə uğurlar arzulayıblar.



Plenar iclasda prof. Yusif Qasımovun "Elm-təhsil-sənaye: müasir çağırışlar" mövzusunda məruzəsi dinlənilib. Yusif Qasımov prezident İlham Əliyev tərəfindən "neft kapitalını insan kapitalına çevirmək" ideyasının irəli sürüldüyünü xatırladaraq keyfiyyətli insan kapitalının yaradılmasının yolunun bütün pillələrdə yüksək səviyyəli təhsildən keçdiyini vurğulayıb, ölkəmizdə və Azərbaycan Universitetində bu istiqamətdə görülən işlər haqqında məlumat verib.

Konfransın bölmə iclaslarında Azərbaycan təhsilində kurikulum çərçivə sənədi və pedaqoji kadr hazırlığı məsələləri, dil kimliyi elm və təhsil kollaborasiyası aspektində, ümumi təhsildə məzmun islahatları və digər bu kimi aktual məsələlər müzakirə olunub.

## Azərbaycan Universiteti payızda iki elmi konfrans keçirəcək

Azərbaycan Universiteti payızda biri respublika, digəri isə beynəlxalq miqyaslı olmaqla iki elmi konfrans keçirəcək.
"Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri" mövzusunda respublika konfransında davamlı inkişaf strategiyalarının müzakirəsi, bu istiqamətdə humanitar elmlərin qarşısında duran problemlərin müzakirə olunması nəzərdə tutulur.
24 oktyabr 2019-cu il tarixində keçiriləcək konfrans ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunur.
28 noyabr 2019-cu il tarixində keçiriləcək "Gender problemi və müasir Azərbaycan" konfransının əsas məqsədi Azərbaycanda gender bərabərliyinin təmin olunması məsələsini diqqət mərkəzində saxlamaq, bu sahədə əldə olunan elmi nailiyyətləri və təcrübələri paylaşmaq, mövcud problemlərin təhlili və onların həll yolları üçün təkliflərin irəli sürülməsini təmin etmək, bu sahədə ölkədə əldə edilən uğurları beynəlxalq təcrübə ilə müqayisə etməkdən ibarətdir.
2017 və 2018-ci illərdə respublika miqyasında keçirilən tədbirin bu ildən başlayaraq beynəlxalq statusda təşkil olunması nəzərdə tutulur. Konfransa göstərilən maraq və diqqət bu qərarın alınmasına öz təsirini göstərib. İki konfransın təcrübəsi göstərdi ki, bu sahəyə maraq böyükdür və mütəxəssislərin müzakirə etmək üçün xeyli ideya və yanaşmaları mövcuddur.

AZƏRBAYCAN
UNİVERSİTETİ

# Payız konfransları

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş "Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri" mövzusunda respublika konfransı

**24 oktyabr 2019-cu il**

"Gender problemi və müasir Azərbaycan" mövzusunda beynəlxalq konfrans

**28 noyabr 2019-cu il**

AzerbaycanUnv
AzerbaijanUnv
www.au.edu.az
AzerbaijanUnv
AzerbaijanUnv
qebul@au.edu.az

## Yanvar ayının əməkdaşı: Rəhimə Mayılova



Tədris şöbəsinin metodisti Rəhimə Mayılova Azərbaycan Universitetində yanvar ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşımızın vəzifə öhdəliklərini yerinə yetirməsində göstərdiyi çalışqanlıq və operativlik nəzərə alınıb.
Rəhimə Məhərrəm qızı Mayılova 1991-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu Dağ mühəndisi-hidrogeoloq ixtisası üzrə bitirib. Əmək fəaliyyətinə Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda başlayıb.
2012-ci ildən Azərbaycan Universitetində çalışır.



## Fevral ayının əməkdaşı: Səadət Paşayeva

Maliyyə departamentinin mühasibi Səadət Paşayeva Azərbaycan Universitetində fevral ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşımızın vəzifə öhdəliklərini keyfiyyət və dəqiqliklə yerinə yetirməsi nəzərə alınıb.
Səadət Sabir qızı Paşayeva 2003-cü ildə Maliyyə İqtisad Kollecini dövlət büdcəsi ixtisası üzrə bitirib.
Əmək fəaliyyətinə 1988-ci ildə Bakı Elektron Hesablama Maşınları zavodunda başlayıb.
2008-ci ildən Azərbaycan Universitetində çalışır.

## Mart ayının əməkdaşı: Səadət Hacıyeva



Biznes və iqtisadiyyat fakültəsinin tyutoru Səadət Hacıyeva Azərbaycan Universitetində mart ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşımızın vəzifə öhdəliklərini yerinə yetirməsində göstərdiyi fəallıq nəzərə alınıb.
Səadət Vəli qızı Hacıyeva 2002-ci ildə Bakı Dövlət Universitetini tətbiqi fizika ixtisası üzrə bitirib.
Əmək fəaliyyətinə Azərbaycan Universitetində başlayıb.



## Aprel ayının əməkdaşı: Qərənfil Bədirova

İctimai elmlər kafedrasının laborantı Qərənfil Bədirova Azərbaycan Universitetində aprel ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşımızın verilən tapşırıqları yüksək keyfiyyət və dəqiqliklə yerinə yetirməsi nəzərə alınıb.
Qərənfil Əziz qızı Bədirova 2012-ci ildə Ulyanov adına Çuvaş Dövlət Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirib.
Əmək fəaliyyətinə 2014-cü ildə Azərbaycan Universitetində başlayıb.

## May ayının əməkdaşı: Təhminə Novruzlu



İctimaiyyətlə əlaqələr şöbəsinin mütəxəssisi Təhminə Novruzlu Azərbaycan Universitetində may ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşımızın verilən tapşırıqların yerinə yetirilməsində göstərdiyi dəqiqlik, məsuliyyətlilik, yaradıcılıq və operativliyi nəzərə alınıb.
Təhminə Elbrus qızı Novruzlu 2015-ci ildə Azərbaycan Universitetini jurnalistika ixtisası üzrə bitirib.
Əmək fəaliyyətinə 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri komitəsində redaktor olaraq başlayıb.
2017-ci ildən Azərbaycan Universitetində çalışır.



## İyun ayının əməkdaşı: Günay İsmayılova

Humanitar fənlər fakültəsinin dekan müavini Günay İsmayılova Azərbaycan Universitetində iyun ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşımızın verilən tapşırıqların yerinə yetirilməsində göstərdiyi fəallıq nəzərə alınıb.
Günay Arif qızı İsmayılova 2010-cu ildə Azərbaycan Dillər Universitetini ingilis dili müəllimi ixtisası üzrə bitirib. 2012-ci ildə Azərbaycan Universitetindən ingilis dili ixtisası üzrə magistr dərəcəsi alıb.
Əmək fəaliyyətinə 2013-cü ildə İ. İbrahimov adına 167 saylı məktəbdə laborant olaraq başlayıb.
2017-ci ildən Azərbaycan Universitetində çalışır.

## İyul ayının əməkdaşı: Afiq Nadirov



Magistratura və doktorantura şöbəsinin müdir köməkçisi Afiq Nadirov Azərbaycan Universitetində iyul ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşın vəzifə öhdəliklərinin yerinə yetirilməsində sərgilədiyi nümunəvi davranış nəzərə alınıb.
Afiq Hafiz oğlu Nadirov 2017-ci ildə Azərbaycan Universitetini tarix müəllimliyi ixtisası üzrə bitirib. 2019-cu ildə Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üzrə magistr dərəcəsi alıb.
2018-ci ildən Azərbaycan Universitetində çalışır.



## Avqust ayının əməkdaşı: Fuad Qırxlarov

Mühasibatlıq şöbəsinin kompüter mütəxəssisi Fuad Qırxlarov Azərbaycan Universitetində avqust ayı üzrə "Ayın əməkdaşı" seçilib. Seçimdə əməkdaşın əmək fəaliyyətini keyfiyyətlə yerinə yetirməsi nəzərə alınıb.
Fuad Nadir oğlu Qırxlarov 1982-ci ildə Bakı Dövlət Universitetini fizika ixtisası üzrə bitirib. Əmək fəaliyyətinə 1982-ci ildə Azərbaycan Aerokosmik Agentliyində mühəndis olaraq başlayıb.
2011-ci ildən Azərbaycan Universitetində çalışır.

## Doktorant Xumar Abdullayevanın ilkin müzakirəsi



Azərbaycan dili və ədəbiyyat kafedrasının açıq iclasında Xumar Vəliyəddin qızı Abdullayevanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "İngilis-Azərbaycan fantastika ədəbiyyatının inkişaf təmayülləri (Herbert Uels və Azərbaycan elmi fantastikası)" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda qeyd edilib ki, müəllif ingilis ədəbi-bədii fikrində elmi-fantastik ədəbiyyatın yaranması, tarixi, inkişaf mərhələləri, habelə görkəmli sənətkar Herbert Uellsin fantastikası ilə elmi tərəqqi arasında mövcud olan münasibətlər sistemini araşdırıb.
Kafedranın professor-müəllim heyəti təqdim olunmuş dissertasiyanı müzakirə edib, irad və təkliflərini bildiriblər. Yekunda elmi işin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiə üçün tövsiyə olunub.

## Doktorant Ceyhun Bayramlının ilkin müzakirəsi



İctimai elmlər kafedrasının açıq iclasında Ceyhun Məhərrəm oğlu Bayramlının tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Xürrəmilər hərəkatının tarixşünaslığı" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. Kafedra müdiri, prof. Qabil Əliyev müzakirə iştirakçılarına namizədi təqdim edib, elmi-pedaqoji fəaliyyəti haqqında məlumat verib. Kafedranın professor-müəllim heyəti təqdim olunmuş dissertasiyanı müzakirə edib, irad və təkliflərini bildiriblər.
Sonda elmi işin tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiə üçün tövsiyə olunub.

## Doktorant Gülnar Rzayevanın ilkin müzakirəsi



Azərbaycan dili və ədəbiyyat kafedrasının açıq iclasında Gülnar Mirsəlim qızı Rzayevanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Cek Keruakın yaradıcılığında kontrkulturanın bədii təzahürü" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib.
Dissertasiya XX əsrin ikinci yarısında Amerika humanitar fikrində mühüm rol oynamış "kontrkultura" sosial-ideoloji fenomeninin C. Keruakın məşhur "Yolda" romanının timsalında bədii ədəbiyyatda təcəssümü xüsusiyyətlərinə həsr olunub.
Müzakirə iştirakçıların açıq səsvermə yolu ilə iddiaçının növbəti mərhələyə buraxılması qərarı ilə başa çatıb.

AZƏRBAYCAN UNİVERSİTETİ

*Gələcəyini bu gün seç!*

# SUMMER SCHOOL

## LEADERSHIP AND EMPLOYABILITY SKILLS FOR A GLOBAL JOB MARKET



**September 7-14, 2019**

**PARTNER UNIVERSITIES**

Azerbaijan University
University of Applied Science Koblenz (Germany)
Tbilisi State University (Georgia)

**Contact:** International Relations Office
E-mail: international.office@au.edu.az
Phone: +994 12 431 41 12 (130)



Filologiya elmləri doktoru, professor Qorxmaz Quliyev ilə müsahibə

# Böyük sənət əsərlərini – "Leyli və Məcnun", "Kral Lir", "Faust", "Ölülər"i mütaliə etdikcə insan ruhi əbədiyyətə qovuşur

*Professor Qorxmaz Quliyev XX əsrin əvvəllərində Qərb ədəbiyyatşünaslığında hakim mövqe tutan ədəbi-estetik konsepsiya və cərəyanları ilk dəfə Azərbaycan ədəbiyyatşünaslığına təqdim edən alimlərdən biri, Qərb ədəbiyyatının Azərbaycandakı ən məşhur tədqiqatçılarındandır.*
*1941-ci ildə Bakı şəhərində anadan olub. M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun (indiki Azərbaycan Dillər Universiteti) fransız dili fakültəsini bitirib.1981-ci ildə namizədlik, 1991-ci ildə doktorluq dissertasiyası müdafiə edib.*
*2013-cü ildən professordur.*
*1970-1980-ci illərdə Əlcəzairdə fransız-rus dili tərcüməçisi, Strasburq Universitetində mühazirəçi kimi fəaliyyət göstərib. 90-cı illərdə Azərbaycan Dillər Universitetində elmi işlər üzrə prorektor, tədris işləri üzrə prorektor vəzifələrində çalışıb. 1993-cü ildən 2001-ci ilədək bu ali məktəbin rektoru olub.*
*Onun rəhbərliyi altında ondan çox aspirant və dissertant namizədlik dissertasiyası müdafiə edib, bir çox iddiaçının opponenti və rəyçisi olub.*
*6 elmi monoqrafiya, 4 dərs vəsati, 150-dən artıq elmi məqalənin müəllifidir.*

Müsahibimiz ədəbiyyatşünas alim, tərcüməçi Qorxmaz Quliyevdir. Qorxmaz müəllim müsahibədə qloballaşmanın Azərbaycan ədəbiyyatına təsiri, ədəbi prosesin struktur xüsusiyyəti, ölkəmizdə qərb ədəbiyyatının tədrisi, onun fars dilli klassik şairlərimizin milli kimliyinə münasibəti, müasir ədəbi-bədii fikrin əsas problemləri kimi məsələlərə aydınlıq gətirib.
Müsahibəni Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Ülviyyə Rəhimova aparıb.

**Sizi oxucularımız adından salamlayır və bizə vaxt ayırdığınız üçün təşəkkür edirik. Çağdaş dövrümüzdə qloballaşma prosesi milli mədəniyyətlərin əksəriyyətinə güclü təsir göstərir və paradoksal şəkildə bir çox cəhətdən onları məhdudlaşdırır. Fikrinizcə bu, Azərbaycan mədəniyyətinə necə təsir edir? Biz bu qloballaşan dünyada nəyi itirdik, nəyi qazandıq ?**

Bu suala cavab verməzdən əvvəl "qlobalaşma" anlayışının özünə aydınlıq gətirmək lazımdır. Qloballaşma prosesinin əlamətlərini Yeni dövrün başlanğıcından müşahidə etmək mümkündür. Coğrafi kəşflər, dünya müstəmləkə sisteminin yaranması qlobalaşmaya misal ola bilər. Lakin lap əvvəldən qlobalaşma antiqlobalaşma meyilləri ilə üzləşdi. Bu son dərəcə mürəkkəb bir prosesdir və onun incəliklərini çözmək faktiki olaraq XIV əsrdən üzü bəri bəşər tarixini açıqlamaqdır. Dünya sosialist sisteminin dağılması və SSRİ-nin süqutu ilə bağlı qloballaşma meyilləri gücləndi. Bu obyektiv qlobalaşmadır və təbii ki, dünyada bu durumdan maksimum öz mənafeləri üçün istifadə etmək niyyətində olan güclər meydana gəldilər. Bu güclər qloballaşmanı birmənalı şəkildə iqtisadi faktorlara müncər etdilər və faktiki olaraq bəşəriyyətə zəngin dövlətlərin daha da zənginləşməsi, yoxsul dövlətlərin daha da yoxsullaşması konsepsiyasını təklif etdilər. Lakin məlum oldu ki, bəşəriyyət "fil qulağı"nda yatmayıb: dünya xalqlarına təklif olunan qloballaşma modelini qətiyyətlə rədd edən antiqloballaşma meyilləri meydana gəldi və gücləndi. Bizim günlərin reallığı xalqlara müxtəlif vasitələrlə qəbul etdirilən "qloballaşma"nın iflasa uğramasından, ən azı iflasa uğrama ərəfəsində olmasından xəbər verir.
Mədəniyyətimiz qloballaşma prosesinə XIX əsrdə Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunandan sonra qoşulmuşdur. Bu dövrdən başlayaraq mədəniyyətimiz öz identikliyini qoruyub saxlamaq üçün son dərəcə ağır problemlərlə üzləşmiş, lakin bu sınaqlardan üzüağ çıxmışdır; görünür Azərbaycan xalqının və mədəniyyətinin yadelli təsirlərə hələ kifayət qədər dəyərləndirə bilmədiyimiz müqavimət göstərməyə qadir immuniteti varmış. Biz dünya sivilizasiyasının nailiyyətlərindən bəhrələnmişik; ədəbiyyatımızın janr sistemində həyata keçirilən köklü islahat buna əyani misal ola bilər. Bununla yanaşı xalq danışıq dilinə maksimum yaxın, eyni zamanda insan hisslərinin və düşüncələrinin ən incə çalarlarını ifadə edən ədəbi dilimizi formalaşdırmağa nail olmuşuq.
Qloballaşmanın misli görünməmiş vüsət kəsb etdiyi XXI əsrin əvvəllərində biz yeni sınaqlarla üzləşirik. Qəribə olsa da, mən milli mədəniyyətimizin öz identikliyini qoruyub saxlamasını bütün istiqamətlərə açıqlıqla bağlayıram. Bu gün öz qınına qısılmaq ölümə bərabərdir. Biz bu gün cəsarətlə dünya mədəniyyətinin çağırışlarına cavab vermək, yeni meyilləri saf-çürük etmək, mədəniyyətimizin inkişafına xidmət edən cəhətləri özümüzünküləşdirmək iqtidarındayıq.

**Sizcə, bədii ədəbiyyatın təyinatı nədir? Onu "məhrəm hisslərin oyanması, zövqlərin, duyğuların tərbiyə olunması" adlandırırlar. Həqiqətən belədirmi?**

Əslində hər bir ədəbi-bədii nümunə həyatın yığcam modelidir. Buna görə də həyatı yaşadığımız kimi ədəbiyyatı da hərtərəfli yaşamaq lazımdır: həyatın məhrəm, zövqləri oxşayan, hissləri tərbiyə edən tərəfləri mövcuddur. Sanki dənizin sahilin-



dəyik: biri qarmaqla balıq tutub aclığını dəf edir, bir başqası dənizin gözəlliyindən zövq alır, üçüncüsü dənizin ucsuz-bucaqsızlığı qarşısında özünü itirib açıq məkan xəstəliyinə tutulur – böyük sənət əsəri dənizdir, hərə ordan gördüyünü, görə bildiyini götürür. Buna görə də ədəbi əsərin içinə daxil olub onun imkanlarından maksimum bəhrələnmək lazımdır. Ədəbiyyat həyatdır. Lakin mən həyatımı bir dəfə yaşayıram, ədəbi-bədii nümunəni dönə-dönə oxumaq, deməli yazıçının mənə bəxş etdiyi həyat parçasını dönə-dönə yaşamaq imkanını əldə edirəm. Böyük sənət əsərlərini – "Leyli və Məcnun", "Kral Lir", "Faust", "Ölülər"i mütaliə etdikcə insan ruhi əbədiyyətə qovuşur.

**Adətən bədii ədəbiyyatı öngörən adlandırırlar. Bəs məhz böyük sənətkarların öngörənliyi nəyə əsaslanır?**

Öngörənlik ədəbi prosesin struktur xüsusiyyətidir, mən hətta deyərdim, ədəbiyyatın alın yazısıdır. Müəllif ədəbi-bədii nümunəni indiki zamanda yaradır, lakin o, əsərilə sabah, birigün, sonsuz gələcəkdə onu oxuyacaq oxuculara müraciət edir. Deməli, ilk baxışdan bu və ya digər şəkildə - vəlvələdən yaxud zəlzələdən gələcək oxucularını, deməli bəşəriyyətin inkişaf perspektivlərini nəzərə almalıdır. Çox qəribə də olsa, böyük sənətkarların öngörənliyi bəşər tarixinin dəyişkənliyinə deyil, invariantlarına, zamanda və məkanda dəyişməyən ümumbəşəri dəyərlərə əsaslanır: həmişə ülvi məhəbbət olacaq, deməli Leyli və Məcnun Füzulinin öngörənliyi kimi təkrar olunacaq, bəşər övladının kainatın sirlərinə yiyələnmək acgözlüyü bitib-tükənməyəcək, deməli Faust mövcud olacaq, daima insanlar sadəlövh, təmizqəlb insanları lağa qoyacaq və eyni zamanda onlara həsəd aparacaqlar, deməli Don Kixot arıq yabısının yəhərində peyda olacaq. Böyük sənətkarlar öngörənlik iddiasında olmurlar, bu xassə onların əsərlərinin mahiyyətindən doğur. Bu, "əbədi" qəhrəmanların müəllifin onlardan ötrü müəyyən etdiyi hüdudları aşıb fövqəlzaman və fövqəlməkan xarakter kəsb etmələri, universallaşması, daha doğrusu, müxtəlif durumlara uyğunlaşması ilə bağlıdır. Şekspir nə biləydi ki, XX əsrin əvvəllərində Azərbaycanda Kefli İskəndərin simasında yeni dramatik kolliziyada təkrar olunacaq.

**Humanitar elmlərə maraq Qərbdə, xüsusilə Amerikada get-gedə azalır. Bəlkə də bunun təsiri ilə ölkəmizdə filologiya da tənəzzülə uğrayır. Sizcə bunun səbəbi nədir? XIX əsrin sonu XX əsrin əvvəllərində də buna bənzər hadisələr baş vermişdi. Həmin dövrdə yaranmış yeni konsepsiyalar, cərəyanlar incəsənəti böhrandan xilas etmək cəhdi idi. Bəs indi, bu vəziyyədən çıxış yolunu nədə görürsünüz? Ümumiyyətlə, filologiya cəmiyyətə lazımdırmı?**

Humanitar elmlərə Qərbdə marağın azalması mənə inandırıcı görünmür. Birincisi, bunun hansı kriteriyalar əsasında müəyən olunması haqqında dəqiq məlumat yoxdur. İkincisi, humanitar elmlərin bir sıra sahələri təbiət elmləri ilə bilavasitə təmasdadır. Heç də təsadüfi deyildir ki, təbiət elmlərinin son sözü olan sinergetika qədim yunan dilində "birlikdə", "bir yerdə" mənasını verir, yəni təbiəti yalnız dəqiq elmlərlə humanitar elmlər əl-ələ verib üzə çıxarırlar. Yada salıram ki, sinergetikanın təməlini təşkil edən xaosun kosmosa keçidi ilk dəfə humanitar səciyyəli kosmoqonik miflərdə öz əksini tapmışdır. Bu prosesin əbədi xarakterini-xaosun kosmosa və kosmosun

xaosa keçməsinin təbiətin təməl qanunu olmasını sinergetika elmi haqqında təsəvvürlərin yaranmasından xeyli əvvəl Ceyms Coys misli görünməmiş yığcamlıqla "xaosmos" anlayışında ifadə etmişdir. Filologiya elminin durumu ilə bağlı fikirlərimi izah etməzdən əvvəl anlayışın mənasını xatırladıram: filologiya "sözü sevmək" mənasını verir- insan sözdən, dildən dünyanı dərk etmək üçün istifadə edən yeganə varlıqdır. Bu həqiqət həm təbiət, həm də humanitar elmlərə şamil oluna bilər. İnsan həyatının bütün durumlarında sözdən istifadə etməyə, deməli onu sevməyə məhkumdur. Amma bununla yanaşı əlbəttə ki, filologiya elmində müəyyən böhran durumu hiss olunur. Nə qədər qəribə olsa da, bunda ən böyük "günahkar" dilin özüdür; dil o qədər hərəki, plastik, tez-tez dəyişən, rəngdən-rəngə girəndir ki, ənənəvi metodlarla və üsullarla onun yaxasından yapışıb sirlərindən agah olmaq mümkün olmur.



Deməli filoloji elmdə konseptual yanaşmanı köklü şəkildə dəyişmək lazımdır: filologiyada sinergetikasayağı inqilab həyata keçirmək tələb olunur. Lakin bu dəfə əks istiqamətdə hərəkət etmək lazımdır: humanitar elmlər öz problemlərini həll emək üçün təbiət elmlərinin imkanlarını səfərbər etməlidir. Mən əminəm ki, filologiyanın bu günkü böhranı onun həmişəyaşarlılığının qarantıdır.

**Siz bütün ömrünüz boyu Qərb ədəbiyyatşünaslığını tədqiq və tədris etmisiniz. Deyə bilərsinizmi Azərbaycan ədəbiyyatında da qərb bədii estetik düşüncə tərzinin təsirinin olmasına baxmayaraq fransızların təbirincə desək, Fransız müstəsnalılığı varmı?**

Mənim fəaliyyətimlə bağlı bir kiçik düzəliş etmək istəyirəm: mən uzun illər Qərb ədəbiyyatşünaslığını deyil, qərb ədəbiyyatını tədris etmişəm. Qərb ədəblyyatşünaslığına gəldikdə onun bəzi aspektləri respublikanın ali məktəblərində magistratura səviyyəsində cəmisi bir neçə ildir tədris olunur. Yeri gəlmişkən, bu fənnin hədəfinin müəyyən olunmasında Azərbaycan Universitetinin filoloqları tərəfindən hazırlanmış tədris vəsaitlərinin böyük rolu olmuşdur.
Ədəbiyyatın müstəsnalığına gəldikdə təkcə fransız ədəbiyyatı yox, təmsil etdiyi millətin dünyaduyumunu və dilini təmsil edən hər bir ədəbiyyat təkrarolunmazdır. Mən dünyaduyumu heç də təsadüfən ön plana çəkmədim. Bir misalla fikrimi izah etmək istəyirəm. Məlumdur ki, sovet dönəmində türk xalqları misli görünməmiş ruslaşdırma təzyiqinə məruz qalmışdılar. Müəyyən səbəblərə görə qırğız xalqı-onun mədəniyyəti və dili daha ağır sınaqlarla üzləşməli oldu. Planlı şəkildə tədris dili qismində rus dili qırğız dilini "bütün cəbhə boyu" sıxışdırmağa başladı. Hətta ədəbi-bədii nümunələr də kütləvi şəkildə rus dilində yazılmağa başladı. "Manas"ın dili real məhv olma təhlükəsi ilə üzləşdi. Belə bir böhran anında qırğız milli dünyaduyumu əksər əsərlərini rus dilində yazan Çingiz Aytmatovun yaradıcılığında üsyan qaldırdı; onun məşhur "manqurt" neologizmi təkcə fərdin yox, millətin də yaddaşdan məhrum olma təhlükəsi ilə üzləşməsinin ifadəsidir. Mənə elə gəlir ki, bütün təzyiqlərə rəğmən yaşamaq əzmini nümayiş etdirən dünyaduyumu ədəbi-bədii fikrə gətirdiyinə görə Aytmatov türk aləminin ən böyük sənətkarıdır və rus dilli, milli dünyaduyumlu qırğız ədəbiyyatı təkrarolunmazdır.

**Bizim ədəbiyyatşünaslığımızda tez-tez klassik sənətkarların türk, azərbaycanlı olmasını üzə çıxaran tədqiqat əsərlərinə rast gəlinir. Sizcə buna lüzum varmı?**

Bu problemin qabardılması, ədəbiyyatşünaslığın az qala mərkəzi probleminə çevrilməsi mənim fikrimcə gülüncdür; kaş "Sarı gəlin"in kimliyinə sərf etdiyimiz enerjini Müqəddəs Şuşanın azad olunmasına yönəldə biləydik... Əlbəttə ki, hər bir böyük sənətkarın şəcərisini müəyyən etmək maraqlıdır. Lakin onun hansı mədəniyyətə məxsus olması fikrimcə başqa amillərlə müəyyən olunur. Bir neçə misalla fikrimi izah edim. Avropa İntibahının böyük nümayəndəsi Rotterdamlı Erazmus elə təxəllüsündən göründüyü kimi holland əsillidir. O bütün əsərlərini latın dilində yazıb. Lakin bütün xidmətləri ilə yanaşı o, alman ədəbi fikrinin formalaşmasında müstəsna rol oynamışdır və almanlar haqlı olaraq bu baxımdan ona yiyə dururlar.



Mən hələ bu istiqamətdə holland-alman deyişməsinin yaxud müharibəsinin şahidi olmamışam. Yaxud XX əsrin görkəmli şairləri Boris Pasternak və İosif Brodski yəhudi əsilli olmuşlar, lakin onlar özlərini rus gerçəkliyinin – rus mədəniyyətinin və rus dilinin nümayəndələri kimi təqdim etmişlər və rus mədəniyyəti onlara haqlı olaraq yiyə çıxmışdır və mən hələ indiyə kimi yəhudilərin bunu problemə çevirmələrinin şahidi olmamışam. Başa düşürəm, sizi fars dilli klassik şairlərimizin milli kimliyinə münasibətim maraqlandırır. Mənə elə gəlir ki, bu problemlə bağlı ədəbi fikrimiz öz strateji mövqeyində müəyyən düzəlişlər aparmalıdır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Nizami də, Xaqani də Xəyyam kimi, Hafiz kimi, Sədi kimi, Rumi kimi, lap Nəsimi və Füzuli kimi Yaxın Şərq mədəniyyətinin daşıyıcıları olmuş və bu mədəniyyəti təmsil etmişlər və onları milli kimlikdən daha çox bölgə üçün ümumi olan problemlər maraqlandırmışdır. Əlbəttə ki, mən bu günün nəzər nöqtəsini Nizami dövrünün nəzər nöqtəsi ilə eyniləşdirmək istəmirəm: bu böyük sənətkarlar torpağımızda doğulduqlarına və şəxsiyyət kimi məhz burada formalaşdıqlarına görə onları özümüzünküləşdirməyə haqqımız var. Bu baxımdan onların milli kimliklərinin müəyyən olunması ilk addım ola bilər. Lakin bu qətiyyən kifayət etmir. Nizamiyə yiyə çıxmaq üçün onun yaradıcılığının estetik-etik dəyərini üzə çıxaran müxtəlif yönümlü tədqiqat işləri həyata keçirmək lazımdır: sənətkar onu daha dərindən öyrənən və daha səmərəli şəkildə təqdim edən mədəniyyətin nümayəndəsidir. Lakin bu halda son dərəcə ehtiyatlı olmaq lazımdır: Yaxın Şərq ədəbi-bədii fikrinin nümayəndələri bir qayda olaraq öz yaradıcılıqlarında ümumbəşəri dəyərləri vurğulayırdılar. Nizamini milli mədəniyyətin çərçivəsində qapatmaqla onun dünyaya çıxış imkanlarını məhdudlaşdırmaq olar. Deməli şairin milli kimliyi onun əsərlərində təcəssüm olunan universal ümumbəşəri dəyərlərin qabardılmasına xidmət etməlidir. 2019-cu ilin Nəsimi ili elan olunması ilə bağlı bizim əlimizə unikal fürsət düşüb: Nəsimini həm şəxsiyyət, həm də sənətkar kimi universal mənəvi-ruhi dəyərlərin daşıyıcısı qismində dünyaya tanıtmaq. Bundan ötrü ilk növbədə Nəsimini aparıcı dünya dillərinə son dərəcə yüksək səviyyədə tərcümə emək lazımdır. Bu halda biz Nəsimini qərb aləminə ən azı Hafiz, Sədi, Xəyyam səviyyəsində təqdim edə bilərdik. Halbuki Nəsimi belə bir populyarlığa adı çəkilən sənətkarlardan daha layiqdir. Mən belə təşəbbüslərə təsadüf etməmişəm.



**Necə düşünürsüz? Oxucu üçün sensasiya daha maraqlıdır, yoxsa əsl həqiqət?**

Mənə elə gəlir ki, problem XIX əsrdə həyat həqiqətlərini bəzəksiz-düzəksiz ədəbiyyata gətirmək cəhdi ilə bağlı olmuşdur: belə hesab olunurdu ki, ədəbi-bədii fikrin əsas vəzifəsi adi, gündəlik gerçəkliyi təcəssüm etməkdir. Lakin nəzərə alınmırdı ki, hadisəsiz-filansız həyatın gedişi yaddaşda heç iz buraxmadığı kimi onun təcəssümü də oxucuya təsir edə bilməz. Bu halda sensasiyanın, yəni gözlənilməz hadisələrin təcəssümü kütləvi ədəbiyyatın ixtiyarında qaldı. Halbuki diqqətlə fikir verdikdə məlum olur ki, böyük ədəbiyyat həmişə gözlənilənlə gözlənilməyənin dialektik vəhdəti üzərində qurulmuşdur: Aristotelin peripetiya nəzəriyyəsi məhz bu vəhdətin nəticəsidir. Həqiqətən də, məsələn, Edipin sağ qalması, Korinf çarının onu oğulluğa götürməsi, atasını öldürməsi, anası ilə evlənməsi, yəni pyesin peripetiyaları bir-birini şərtləndirən sensasiyalar silsiləsidir. Postmodernist ədəbiyyat sensasiyanı yenidən bədii fikrə gətirmişdir, daha doğrusu, onu bədii strukturun aparıcı elementinə çevirmişdir: Məsələn, Umberto Ekonun "Qızılgülün adı" əsərində cərəyan edən hadisələr sensasiyanın-Aristotelin itmiş əsərinin ətrafında fırlanırlar. Deməli müasir ədəbi-bədii fikrin əsas problemlərindən biri sensasiyanı kütləvi ədəbiyyatın əlindən alıb onu böyük ədəbiyyata qaytarmaqla bağlıdır.

**Anton Çexovun belə fikri olduğunu deyirlər: "Universitetlər tələbələrin həm bacarıqlarını, həm də bacarıqsızlığını ortaya çıxarır". Sizcə ?**

Düzü, Çexovun belə bir sözünə rast gəlməmişəm. Amma mən öncədən tam əminəm ki, ümumiyyətlə bacarıqsız insan yoxdur: hər bir fərd ucu-bucağı görünməyən intellektual potensialı ehtiva edir. Fərdin intellektual yönünün müəyyən olunmamasında ailədən tutmuş məktəbə qədər bir sıra təsisatlar günahkar ola bilərlər. Universitet bacarığın yönünü müəyyən edən instansiya deyil. Ali məktəb dəqiq şəkildə müəyyən olunmuş ixtisaslar üzrə cəmiyyətin sifarişini və tələbənin tələbini həyata keçirir. Bu sifarişin yerinə yetirilməsinin keyfiyyəti tələbəni öz gözləntisinə bağlaya yaxud ondan uzaqlaşdıra bilər. Bu tədris prosesi ilə bağlı mürəkkəb bir problemdir və onu bu sualın çərçivəsində cavablandırmaq qeyri-mümkündür.

**Bu gün qloballaşan dünyanın ədəbi mühiti daha ciddi, intellektual oxucu tələb edir yoxsa buna ehtiyac yoxdur? Necə düşünürsüz?**

Sizin sualınızla bağlı özümə aydınlıq gətirmək istəyirəm. Bir neçə məqama diqqət vermək lazımdır. Birincisi, mənim üçün nə qədər çətin olsa da, etiraf etməliyəm ki, yeni nəsil bizə nisbətən xeyli yüksək intellektual bacarıq nümayiş etdirir. İkincisi, intellektlərin özünü şərti olaraq "cəld" və "ləng" deyə iki yerə bölmək olar. Keçən əsrin 30-cu illərində son dərəcə həssas intuisiyaya malik amerikan yazıçıları bu fərqli sifarişləri yerinə yetirmək üçün iki yerə bölündülər. Birinci tipə E. Heminqueyi aid etmək olar: o yalnız aysberqin kiçik bir hissəsini nümayiş etdirməklə öz missiyasını bitmiş hesab etdi. Yazıçı bununla sanki






oxucuya deyirdi ki, vaxtın-vədən imkan verirsə, qalanını özün müstəqil şəkildə axtar və tap. Yeri gəlmişkən, bu oxucunun yaradıcılıq fəallığını yüksəltmək üçün ən kəsə yoldur. Folkner ikinci tipə aid edilə bilər: o, oxucunun diqqətini insan hisslərinin və düşüncələrinin ən incə çalarlarına yönəldirdi. Müasir oxucu öz intellektual tələbləri ilə ənənəvi oxucudan kardinal şəkildə fərqlənir. Bunu nəzərə almasaq aramızdakı uçurum get-gedə dərinləşəcək.

**Mənəvi dəyərlərin ədəbiyyatda əks olunması prosesi necə baş verir? Ümumiyyətlə ədəbiyyat ədəbi olmalıdırmı?**

Mənə elə gəlir ki, babalarımız ədəbiyyatı ədəbə müncər etməklə onun inikas imkanlarını xeyli məhdudlaşdırmışlar. Yenidən təkrar etmək istəyirəm, əsl ədəbi-bədii nümunə mənimlə həmsöhbət olan həyatın bir parçasıdır. Ədəbi əsərdə gerçəklik təcəssüm olunur. Ondan təsirlənmək və ibrət dərsi almaq isə oxucunun boynuna düşür. Yeganə missiyası öyrətmək olan ədəbiyyat isə mənə aramsız şəkildə nəsihət verir. Klassik ədəbiyyatşünaslıq durumu daha da mürəkkəbləşdirir-hər sözün arxasında rəmz axtarır. Deyək ki, sən tamamilə haqlısan. Amma axı mənim də Füzulinin şeirindən birbaşa, simvolsuz-filansız zövq almaq ixtiyarım var. Deyirlər, olmaz! Yeri gəlmişkən, postklassik dövrdə ədəbiyyatımız Vaqifin erotik şeirləri ilə, Zakirin söyüşə köklənmiş həcvləri ilə klassik konsepsiyaya öz etirazını ifadə etmişdir. Qısası, ədəbiyyat ədəbi yox, həyati olmalıdır. Onda onun oxucunun məmnuniyyətlə əxz etdiyi ədəbi olmağa imkanı yaranır.

**Qorxmaz müəllim, müsahibəyə vaxt ayırdığınız və maraqlı söhbət üçün sizə təşəkkür edir, fəaliyyətinizdə uğurlar arzulayırıq.**

# İpək yolu: (ISSN 1810-911X)
## Azərbaycan Universitetinin elmi jurnalı




İpək Yolu jurnalının indeksləndiyi beynəlxalq bazalar: Academic Keys (USA), ResearchBib (Academic Resource Index) (Japan), Scientific Indexing Services SIS (USA), Directory of Research Journals Indexing (India), Advanced Science Index (ASI) (Germany), Root Indexing - Journal Abstracting and Indexing Service (India), Eurasian Scientific Journal Index (ESJI) (Russia), Science Library Index (Australia), JI Factor (USA), E-Library (РИНЦ) (Russia).

# XARI BÜLBÜL ÇİÇƏYİ

## QAFQAZ QAŞ SƏHLƏBİ



**AMEA Botanika İnstitutunun Herbari laboratoriyasının müdiri, biologiya üzrə fəlsəfə doktoru Pərvanə Qaraxani:**

**"Şuşadakı Xarı bülbül haqqında əlimizdə məlumat yoxdur"**
**"Herbarilər bizim bu torpaqlarda qədimlərdən məskən saldığımızı təsdiq edir"**

*“Milli-mədəni irsimiz” səhifələrində bu dəfə adını daim Qarabağla bilikdə çəkdiyimiz və Şuşanın rəmzi olan Xarı bülbül çiçəyi haqqında danışacağıq. Haqqında rəvayətlər, əfsanələr, nağıllar var. Şairlərə, yazıçılara, bəstəkarlara ilham qaynağı olub. Çiçəyə bu ad öz formasıyla bülbülü xatırlatdığı üçün verilib. “Xar” sözü tikan mənasını versə də, tikanı yoxdur. Dəqiq təəsvvürü isə ancaq onu görməklə əldə etmək mümkündür.*

Müsahibimiz AMEA Botanika İnstitutunun Herbari laboratoriyasının müdiri, biologiya üzrə fəlsəfə doktoru Pərvanə Qaraxanidir. Uşaqlığı Qarabağda - Ağdamda keçən müsahibimiz söhbətin başında Şuşa ilə bağlı xatirələrini bizimlə bölüşür: "Biz anamın təkidi ilə bir neçə il Şuşada olmuşuq. Amma Şuşa mənim yaddaşımda ən yaxşı 3-cü sinifdə oxuyanda qalıb. Həmin yay bacımla Şuşadakı pioner düşərgəsinə dincəlməyə getmişdik. İlk dəfə idi ki, valideynlərimizdən ayrı qalmışdıq.

Şuşa keçmiş SSRİ-nin mühüm istirahət zonalarından biri idi. Burada məktəblilər üçün pioner düşərgələri ilə yanaşı çoxlu sayda sanatoriyalar, müalicə və istirahət mərkəzləri, müxtəlif turizm obyektləri vardı. Hər addımbaşında turistlərə rast gəlmək mümkün idi. Cıdır düzü həmişə qonaqlı-qaralı olurdu. O Cıdır düzü ki, həm də Xarı bülbül çiçəyinin əsas yayılma sahələrindən biri idi ”.
Pərvanə xanım deyir ki, şuşalılar Xarı bülbül çiçəyindən dəstə bağlayır, onu böyük fəxarətlə qonaqlara, turistlərə təqdim edirdilər. Bu, demək olar ki, adət halına gəlmişdi: "Mənə elə gəlir ki, şuşalıların Şuşanı, onun təbiətini tərənnüm, öz elini - obasını, torpağın zənginliyini, sahib olduqları dəyərləri göstərmə, təqdim etmə, onunla qürur duyma forması idi. Əlbəttə ki, insanlar çiçəyin endemik olduğunu bilmir, tükənmək təhlükəsi ilə üzləşən bitkini qorumaq əvəzinə sistemsiz olaraq dəstə-dəstə dərirdilər”.





Düşərgə anamın anadan olduğu Mamayı məhləsində yerləşirdi. Əvvəllər bəy evi olan düşərgənin pəncərələri Cıdır düzünə açılırdı.
Cıdır düzü böyük, hamar, yamyaşıl düzənlik idi. Molla Pənah Vaqifin məqbərəsi Cıdır düzünün yaxınlığında idi. İsa bulağı, Topxana meşəsi bir qədər aralıda idi. Bülbül, Üzeyir Hacıbəyov, bütün digər görkəmli şəxsiyyətlərimizin ev muzeyləri, tarixi binalar indiki kimi gözümün önündədir. Şəhərin bütün küçələrinə daş piltələr döşənmişdi, məhəllələr enişli-yoxuşlu idi.

Müsahibimizin sözlərinə görə, məhz Xarı bülbül çiçəyinin kortəbii şəkildə dəstə-dəstə yığılaraq Şuşanı ziyarət edən turistlərə verilməsi ənənəsi bitkinin yalnız Şuşada yetişdiyinə dair fikir formalaşdırıb. Əslində isə Xarı bülbülə təkcə Şuşada yox, Azərbaycanın bir çox bölgələrində rast gəlmək mümkündür. Onun yaşadığı yer dağlıqdır. Şamaxı, Tovuz, Qazax, Ağstafa, Qax, Gədəbəy, İsmayıllı, Şəkidə var. Şuşada olan Xarı bülbül digər bölgədə olanlardan bir naxışına görə fərqlənir. Onun quşabənzər hissəsində olan sarılığa

digər bölgələrdəki xarı bülbüllərdə rast gəlinmir. Həmçinin xarı bülbüllərdə "H" hərfinə bənzər naxış var ki, bu da Şuşada olan xarıbülbüldə yoxdur.
Pərvanə Qaraxani dağlıq əraziləri özünə məskən tutan Xarı bülbülə Bakıda, Balaxanıda rast gəlinməsini isə təsadüf adlandırır: "Xarı bülbül kök yumruları ilə çoxalır və geofit bitkidir. Geofit – torpaq altında gizlənən deməkdir. Yəni, havaların soyuması ilə bu bitkilərin üst hissələri məhv olur, alt soğanaq, kök yumrusu və kökümsovları torpağın altında qalır. Növbəti il isə bitkidən cücərti başlayır, yenidən inkişaf edir. Geofit bitkilər torpağın altında artırlar. Köklərində xüsusi mikorilza deyilən göbələk var ki, bu göbələk Xarı bülbülün çoxalması üçün vacib şərtdir. Tozlanması isə zərqanadlı həşəratların köməyi ilə baş verir. Göbələklərdən və müəyyən növ həşəratlardan asılı olması yetişdirilməsini və başqa yerdə əkilməsini çətinləşdirir.

verir: "Xarı bülbül kimi tanıdığımız çiçəyin elmi adı Qafqaz qaş səhləbidir. Çoxillik ot bitkisidir. Səhləbkimilər - orxideyalar (lat. Orchidaceae) fəsiləsinə, ofris (lat. Ophrys) cinsinə aiddir. Ofris cinsinin 50-dən çox növü var və bunların bir çoxu Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qafqaz və Zaqafqaziya ərazisində mövcuddur. Bu bitkinin Azərbaycanda bitən bütün növləri Xarı bülbül adı ilə tanınır. Bu ad ona üzərinə qonmuş bülbülü xatırlatdığı üçün verilib. Latınca Ophrys Caucasica adlanır. Ophrys – yunan mənşəli söz olub, mənası "qaş" deməkdir".
Pərvanə xanım bildirir ki, Qafqaz qaş səhləbi ilk dəfə elmə 1928-ci ildə gətirilib və bitkinin təsviri Qafqaz bölgəsindən verilib. Ofrislər çox həssas olduqları üçün nadir bitkilər hesab olunur və dövlət tərəfindən qorunurlar. Xarı bülbül (Ophrys Caucasica) və ofrislərin bir





Xarı bülbülün ömrü çox qısadır, martın sonu aprelin əvvəlində çıxır. Aprelin sonu mayın əvvəlində isə meyvələməyə başlayır. Mayın 15-dən sonra Xarı bülbülü görə bilməzsiniz. Tək halda bitir və bir neçə Xarı bülbül çiçəyini bir yerdə görmək mümkün deyil.
Özünəməxsus ətirə malik olan Xarı bülbül həm də müalicə əhəmiyyətli bitkidir. Xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsi üçün geniş istifadə edilir".
Müsahibimiz həm gözəlliyi, həm də qeyri-adiliyi ilə seçilən çiçəyin botanika elmindəki yeri haqqında da məlumat

çox başqa növləri Qırmızı kitabda qeydə alınıblar: "Azərbaycan Qırmızı kitabında nəsli kəsilməyə həssas olanlar kateqoriyasındadır. Dekorativ əhəmiyyətinə görə intensiv toplanması və antropogen amillər səbəbilə bu kateqoriyaya daxil edilib".
Azərbaycanın nadir, endem və itmə təhlükəsində olan bitkiləri və Azərbaycanın Qırmızı Kitabının I və II nəşrləri haqqında da məlumat verən müsahibimiz deyir ki, Qırmızı kitab rəsmi dövlət sənədidir. 1989-cu ildə işıq üzü görən I nəşrdə 140 növ ali bitki haqqında məlumat yer alıb. II nəşrdə isə daxil edilən 300 növdən

266-sı ali bitkilərə, 20-si ibtidai bitkilərə (6 yosun, 13 şibyə, 1 mamır), 14-ü göbələk növlərinə aiddir. Pərvanə xanım böyük təəssüflə əlavə edir ki, endem və nadir bitkilərin mühafizəsi üçün sistemli iş aparılmır.

Pərvanə xanımın iş otağında başlayan söhbətimiz herbari laboratoriyasında davam edir. Müsahibimiz Herbari Fondunda saxlanılan dəyərli nümunələr, onların saxlanılma şəraiti haqqında da məlumat verir. "Herbari "qurudulmuş bitki" deməkdir. Azərbaycanın ən böyük herbari fondu AMEA Botanika İnstitutunun Herbari fondudur. Herbari Fondu 1936-cı ildə İnstitut yarandığı vaxtdan fəaliyyət göstərir. Fondda 270 tip nümunəsi,  600 min nüsxə, 4 min 500 növ var. Herbarilər xüsusi soyuducularda saxlanılır. Burada saxlanan ən qədim herbari 1844-cü ilə aiddir. Fondda Azərbaycanın işğal altında olan torpaqlarında yetişən bitkilərin nümunələri də qorunub saxlanılır. Onlar bizim bu torpaqda lap qədimlərdən məskən saldığımızı təsdiq edir.

Azərbaycan bitkilərinin herbariləri dünyanın müxtəlif ölkələrinin botanika institutlarında və muzeylərində saxlanır, bizim adımızla təqdim edilirlər. Muğamımız, xalçalarımız, mətbəximiz kimi herbarilərimiz də bizi dünyada tanıdır, ölkəmizin gözəlliklərini təbliğ edirlər.

Bizim əsas işimiz Azərbaycan florasına daxil olan bitkilərin toplanması, herbari halına salınması, təyinatı, cinsinin, növünün və tərkibinin öyrənilməsidir. Bu məqsədlə ölkəmizin müxtəlif guşələrinə ekspedisiyalar təşkil olunur. Azərbaycanda 230-dan artıq endem bitki var ki, onlar ancaq burada bitir. Onlar bizim qürur yerimizdir".

Söhbətimiz herbari nüsxələri haqqında məlumat və şəkillərin rəqəmsallaşdırıldığı otaqda yekunlaşır. Pərvanə xanım deyir ki, dəyərli tip nümunələri rəqəmsallaşdırılaraq Avropa məlumat bazasına daxil edilir. Herbari kolleksiyası elmə böyük xidmətlər göstərir. Botaniklər bitkilərin ekoloji, coğrafi və fərdi dəyişkənliyinin tədqiqatı üçün Herbari Fondundan istifadə edirlər.

Nadir bitkiləri herbariləməyə icazə verilmir. Ancaq bir bitkidən 20 dənədirsə, fondda qalmağı üçün qurutmaq mümkündür.

Müsahibimiz sonda Siyəzəndən toplanmış Xarı bülbül herbarisini göstərərək, herbarilərin toplanması və işlənməsi qaydalarını da izah edir.

Şuşadakı Xarı bülbül haqqında hazırda əllərində heç bir məlumatın olmadığını bildirən Pərvanə xanım ən böyük arzusunun Xarı bülbül çiçəyini yenidən Şuşada görmək olduğunu deyir: "Mənə elə gəlir ki, Xarı bülbül Şuşada bizim yolumuzu gözləyir".

Maraqlı müsahibə və verdiyi dəyərli məlumatlar üçün Pərvanə xanıma təşəkkür edirik.

> **“Şuşadakı Xarı Bülbül haqqında əlimizdə məlumat yoxdur. Ən böyük arzum Xarı bülbül çiçəyini Şuşada yenidən görməkdir. Mənə elə gəlir ki, Xarı bülbül Şuşada bizim yolumuzu gözləyir.**

### Xarı bülbül çiçəyinin qısa morfoloji təsviri

Xarı bülbül (Qafqaz qaş səhləbi) çoxillik ot bitkisidir. Kök yumrusu şarvari, 0,8-1,5 sm diametrindədir. Gövdəsi 12-35 sm hündürlükdədir. Yarpaqları gövdənin qaidəsində cəmləşmişdir, uzunsov-lansetvari, sivriləşmiş qınlardan hündürdürlər. Çiçəkyanlıqlarının xarici yarpaqcıqları 10-12 mm uzunluqda, uzunsov-lansetşəkilli, sarımtıl-yaşıl, daxildəkilər xətti -lansetşəkilli, birdamarlı, yaşılımtıl-qonur; dodaq məxməri, enli, tərs-yumurtavari, tünd-qırmızı, qonur, H hərfi formasında mavi, bənövşəyi, tam və ya üçdilimlidir.

# İxtisas qruplarının təsnifatı

2020-ci ildən etibarən, ali məktəblərin bakalavriat səviyyəsi üzrə qəbul aşağıdakı ixtisaslar qrupu və ixtisaslar üzrə aparılacaq.

Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 nömrəli qərarına əsasən, Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatını təqdim edirik. Qeyd edək ki, bu qərar 2019-cu il 15 sentyabr tarixindən qüvvəyə minəcək.

## Təhsil ixtisasları qrupu

| | |
|---|---|
| **050101** | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| **050102** | Biologiya müəllimliyi |
| **050103** | Coğrafiya müəllimliyi |
| **050104** | Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) |
| **050105** | Fizika müəllimliyi |
| **050106** | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi |
| **050107** | İbtidai sinif müəllimliyi |
| **050108** | İnformatika müəllimliyi |
| **050109** | Kimya müəllimliyi |
| **050110** | Kimya və biologiya müəllimliyi |
| **050111** | Korreksiyaedici təlim |
| **050112** | Məktəbəqədər təhsil |
| **050113** | Musiqi müəllimliyi |
| **050114** | Riyaziyyat müəllimliyi |
| **050115** | Riyaziyyat və informatika müəllimliyi |
| **050116** | Tarix müəllimliyi |
| **050117** | Tarix və coğrafiya müəllimliyi |
| **050118** | Təhsildə sosial-psixoloji xidmət |
| **050119** | Təsviri incəsənət müəllimliyi |
| **050120** | Texnologiya müəllimliyi |
| **050121** | Xarici dil müəllimliyi (dillər üzrə) |

## Humanitar və sosial ixtisaslar qrupu

| | |
|---|---|
| **050201** | Beynəlxalq münasibətlər |
| **050202** | Dinşünaslıq |
| **050203** | Dövlət və ictimai münasibətlər |
| **050204** | Fəlsəfə |
| **050205** | Filologiya (dil və ədəbiyyat göstərilməklə) |
| **050206** | Hüquqşünaslıq |
| **050207** | İslamşünaslıq |
| **050208** | Jurnalistika |
| **050209** | Kitabxanaçılıq və informasiya fəaliyyəti |
| **050210** | Politologiya |
| **050211** | Psixologiya |
| **050212** | Regionşünaslıq (regionlar üzrə) |
| **050213** | Sosiologiya |
| **050214** | Tarix |
| **050215** | Tərcümə (dillər üzrə) |

## Mədəniyyət və incəsənət ixtisasları qrupu

| | |
|---|---|
| **050301** | Aktyor sənəti |
| **050302** | Bədii yaradıcılıq və ekran dramaturgiyası |
| **050303** | Bəstəkarlıq |
| **050304** | Dekorativ-tətbiqi sənət (sahələr üzrə) |
| **050305** | Dirijorluq (sahələr üzrə) |
| **050306** | Dizayn (sahələr üzrə) |
| **050307** | Heykəltəraşlıq |
| **050308** | İnstrumental ifaçılıq (sahələr üzrə) |
| **050309** | Musiqişünaslıq |
| **050310** | Muzey, arxiv işi və abidələrin qorunması |
| **050311** | Operator sənəti |
| **050312** | Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə |
| **050313** | Qrafika |
| **050314** | Rejissorluq |
| **050315** | Rəngkarlıq |
| **050316** | Sənətşünaslıq (sahələr üzrə) |
| **050317** | Vokal sənəti (sahələr üzrə) |
| **050318** | Xoreoqrafiya sənəti (sahələr üzrə) |

## İqtisadiyyat və idarəetmə ixtisasları qrupu

| | |
|---|---|
| **050401** | Beynəlxalq ticarət və logistika |
| **050402** | Biznesin idarə edilməsi |
| **050403** | Davamlı inkişafın idarə edilməsi |
| **050404** | Dövlət və bələdiyyə idarəetməsi |
| **050405** | İqtisadiyyat |
| **050406** | Maliyyə |
| **050407** | Marketinq |
| **050408** | Menecment |
| **050409** | Mühasibat |
| **050410** | Statistika |

## Təbiət ixtisasları qrupu

| | |
|---|---|
| **050501** | Biologiya |
| **050502** | Biotexnologiya |
| **050503** | Coğrafiya |

**050504** Ekologiya
**050505** Fizika
**050506** Geologiya
**050507** Hidrometeorologiya
**050508** Kimya
**050509** Kompüter elmləri
**050510** Mexanika
**050511** Riyaziyyat

## Texniki və texnoloji ixtisaslar qrupu

**050601** Aerokosmik mühəndislik
**050602** Aqromühəndislik
**050603** Aviasiya təhlükəsizliyi mühəndisliyi
**050604** Cihaz mühəndisliyi
**050605** Dəniz naviqasiyası mühəndisliyi
**050606** Ekologiya mühəndisliyi
**050607** Elektrik və elektronika mühəndisliyi
**050608** Energetika mühəndisliyi
**050609** Gəmi energetik qurğularının istismarı mühəndisliyi
**050610** Gəmiqayırma və gəmi təmiri mühəndisliyi
**050611** Geofizika mühəndisliyi
**050612** Geomatika və geodeziya mühəndisliyi
**050613** Hava nəqliyyatının hərəkətinin təşkili
**050614** Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi
**050615** İnformasiya təhlükəsizliyi
**050616** İnformasiya texnologiyaları
**050617** İnşaat mühəndisliyi
**050618** Kimya mühəndisliyi
**050619** Kommunikasiya sistemləri mühəndisliyi
**050620** Kompüter mühəndisliyi
**050621** Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi
**050622** Maşın mühəndisliyi
**050623** Materiallar mühəndisliyi
**050624** Mədən mühəndisliyi
**050625** Meliorasiya mühəndisliyi
**050626** Memarlıq
**050627** Metallurgiya mühəndisliyi
**050628** Mexanika mühəndisliyi
**050629** Mexatronika və robototexnika mühəndisliyi
**050630** Mühəndis fizikası
**050631** Neft-qaz mühəndisliyi
**050632** Nəqliyyat mühəndisliyi
**050633** Nəqliyyat tikintisi mühəndisliyi
**050634** Proseslərin avtomatlaşdırılması mühəndisliyi
**050635** Qida mühəndisliyi
**050636** Radiotexnika və telekommunikasiya mühəndisliyi
**050637** Şəhərsalma
**050638** Sənaye mühəndisliyi
**050639** Uçuş mühəndisliyi
**050640** Yanğın təhlükəsizliyi mühəndisliyi

## Kənd təsərrüfatı ixtisasları qrupu

050701 Aqronomluq
050702 Bağçılıq və tərəvəzçilik
050703 Balıqçılıq
050704 Baytarlıq təbabəti
050705 Bitki mühafizəsi
050706 Meşəçilik
050707 Şərabçılıq
050708 Su bioehtiyatları və akvakultura
050709 Torpaqşünaslıq və aqrokimya
050710 Yerquruluşu və daşınmaz əmlakın kadastrı
050711 Zoomühəndislik

## Səhiyyə, rifah və xidmət ixtisasları qrupu

050801 Bədən tərbiyəsi və idmanda reabilitasiya
050802 Əczaçılıq
050803 Fizioterapiya və tibbi reabilitasiya
050804 İdman menecmenti və kommunikasiya
050805 Məşqçilik
050806 Nəqliyyatda servis (nəqliyyat növləri üzrə)
050807 Sosial iş
050808 Tibb bacısı işi
050809 Turizm bələdçiliyi
050810 Turizm işinin təşkili

## Əsas (baza ali) tibb təhsili üzrə ixtisaslar qrupu

050901 Hərbi tibb
050902 İctimai səhiyyə
050903 Stomatologiya
050904 Tibb

## Xüsusi təyinatlı ixtisaslar qrupu

XTB050101 Hərbi kompozisiya materialları mühəndisliyi
XTB050102 Hərbi rabitə vasitələri mühəndisliyi
XTB050103 Optotexnika mühəndisliyi
XTB050104 Pirotexniki və partladıcı vasitələr mühəndisliyi
XTB050105 Sərhəd təhlükəsizliyi və idarəetmə
XTB050106 Silah və silah sistemləri mühəndisliyi
XTB050107 Sistemlər mühəndisliyi
XTB050108 İctimai təhlükəsizlik və idarəetmə

# BAZAR İQTİSADİYYATI, YOXSA KAPİTALİZM?


## Nəriman Böyükkişi
Maliyyə və iqtisadiyyat kafedrası, dosent




XX əsrin sonlarında sosializmin və planlı sosialist təsərrüfatının iflasa uğramasından sonra "kapitalizm", "kapitalist" və bunlarla əlaqəli bir çox terminlərin iqtisadi və siyasi müzakirələr, dərsliklər və elmi əsərlərdə istifadəsi demək olar ki, aradan qalxdı. Əvəzində isə bu terminlərin sinonimləri olaraq "bazar iqtisadiyyatı", "sahibkar", "biznesmen" və digər bu kimi anlayışlardan geniş istifadə edilməyə başlandı.

İlk baxışdan bu söz əvəzləmələri köhnəlmiş və yeni cəmiyyətə xas olmayan həmin ifadələrin müasir və daha mütərəqqi anlayışlarla əvəz olunması kimi qəbul edilə bilər. Bu onunla izah olunur ki, adları çəkilən "köhnəlmiş" terminlər əhalinin böyük əksəriyyətində istismar, varlılar və kasıblar arasında əmlak bərəbərsizliyi, sosial ədalətsizlik və başqa bu kimi neqativ fikirlər yaradırdı. Həmin dövrdə sosialist ideologiyasının hakimliyi və bütün iqtisadi biliklərin nəzəri cəhətdən siyasi iqtisad fənninə əsaslandığını nəzərə alsaq bunu tamamilə təbii qəbul etmək olar.

Məsələyə digər tərəfdən baxdıqda, bütün oxşarlıqlarına və sıx surətdə qarşılıqlı əlaqələrinin olmasına baxmayaraq "bazar iqtisadiyyatı" və "kapitalizm" anlayışları və bunların arxasında duran nəzəri açıqlamaların eyni olmadığını və fərqli cəhətlərini qeyd etmək lazımdır.

**"Bazar iqtisadiyyatı" və "kapitalizm" anlayışları**

Kapitalizm həqiqətən bazar iqtisadiyyatıdır, lakin hər bazar iqtisadiyyatı kapitalizm deyil. Bazar və şəxsi mülkiyyət kapitalizm olmadan da mümkündür. Bazar iqtisadiyyatını şərtləndirən əsas amil bazar anlayışıdır. Bazar- istehsal, bölgü, mübadilə və istehlak prosesləri daxil olmaqla insanlar arasında iqtisadi münasibətlər sistemidir.

**"Bazar" anlayışı**

"Bazar" anlayışı sadə şəkildə alıcılarla satıcıların görüşdükləri məkan, yer mənasını verir, alıcılarla satıcıların əlaqələrinin məcmusudur. Bazar min illər əvvəl, ictimai əmək bölgüsü nəticəsində meydana çıxmışdır və müxtəlif məhsulların sahibləri arasında mübadilə münasibətlərini əmələ gətirmişdir. İnsanların ehtiyacları, xüsusi mülkiyyətin mövcudluğu, əmək bölgüsü və ixtisaslaşması kimi amillərin təsiri altında əmək məhsulları digər məhsullar üçün ekvivalent mübadilə yolu ilə əldə edilə bilən bir əmtəəyə çevrilir.

**Bazar mexanizminin elementləri**

Bazar mexanizmi aşağıdakı elementləri özündə birləşdirir:

• İqtisadi subyektlər
(satıcılar, alıcılar, vasitəçilər, dövlət qurumları və s.)
• Obyektlər
(müxtəlif növ məhsullar, iş və xidmətlər)
• Subyektlər arasındakı iqtisadi əməkdaşlıq və ya rəqabət əlaqələri
• İqtisadi əlaqələrin qurulması üçün qəbul edilmiş qərarlar barədə məlumat
• Qiymət mexanizmi

**Bazar iqtisadiyyatının formaları**

İctimai istehsal üsullarına uyğun olaraq, tarixən bazar iqtisadiyyatının aşağıdakı formaları olmuşdur:

• Quldarlıq
• Feodal
• Kapitalist
• Sosialist

Yuxarıda göstərilən hər bir bazar sistemi öz iqtisadi mexanizminə və istehal üsullarına görə bir-birindən fərqlənmişlər. Tarixə nəzər salsaq, bəşəriyyətin böyük əksəriyyətinin bazar iqtisadiyyatı şəraitində- xüsusi mülkiyyət və bazar mexanizmi şəraitində yaşadığını görərik.

**"Kapitalizm" anlayışı**

Kapitalizm isə nisbətən daha gənc iqtisadi sistem və ictimai-siyasi formasiyadır. Onun yaranması orta əsrlərə təsadüf edir və 500 ilə yaxın bir müddətdə davam etmişdir. Kapitalizm Avropaya tacirlər dövründən, istehsalın, nəqliyyatın, malların satılması və xidmətlərin ortaya çıxmasından sonra gəldi. Sonra güc və nüfuza sahib olan, bununla da birbaşa və ya dolayı yolla əmlak (kapital) əldə edən sənayeçilər və kapital qarşısında müdafiəsiz və seçim qarşısında qalan muzdlu işçilər meydana gəldi.

Kapitalizm- xüsusi mülkiyyətə, hüquqi bərabərliyə və azad sahibkarlığa əsaslanan iqtisadi sistemidir. Burada iqtisadi qərarlar qəbul etməyin əsas meyarı kapitalın artırılması, qazanc əldə etmək istəyidir. Bazar və şəxsi mülkiyyət olmadan kapitalizm həqiqətən ağlasığmazdır. Kapitalizm bütün digər bazar sistemlərindən onunla fərqlənir ki, o, istehsalın əsas elementi olan iş qüvvəsini əmtəəyə çevirir. Digər sosial-iqtisadi sistemlərdən fərqli olaraq, müasir cəmiyyət iki əsas komponentdən- istehsal vasitələrinin sahiblərindən və əməyini əmlak sahiblərinə satan işçilərdən ibarətdir. Buna görə də, belə istehsal üsulunda "kapitalizm" ifadəsinin istifadəsi qəbuledilə ndir. Kapitalizm üçün yalnız bazar və xüsusi mülkiyyətə sahib olmaq kifayət deyil. Kapitalizm şəxsən azad insanların bazar iqtisadiyyatıdır. Şəxsi azadlıq yalnız həqiqi təhlükəsizlik, şəxsi mülkiyyətin qanunla, adət və mədəniyyətlə qorunması, vətəndaşların bir-birinə və hakimiyyətə münasibətdə hüquqi bərabərliyi şəraitində mümkündür. Əgər bazar iqtisadiyyatı və özəl mülkiyyət varsa, lakin hüquqi nizam - fərdi azadlıq, əmlak zəmanəti, qanunun aliliyi yoxdursa onda kapitalizm də yoxdur. Göründüyü kimi hər iki termin eyni iqtisadi sistemin fərqli xüsusiyyətlərini nəzərə almaqla əslində bir-birini tamamlayır və bunlardan hansının daha tam və dəqiq olmasını müəyyən etmək üçün daha dərin xüsusi araşdımalar aparılmasına ehtiyac vardır.

> “
>
> **Kapitalizm həqiqətən bazar iqtisadiyyatıdır, lakin hər bazar iqtisadiyyatı kapitalizm deyil.**
> **Bazar və şəxsi mülkiyyət kapitalizm olmadan da mümkündür.**
> **Bazar iqtisadiyyatını şərtləndirən əsas amil bazar anlayışıdır.**

# Yapon mənəviyyatının reallıqları



*Rəna Kərimova*
*Baş müəllim*
*Xarici dillər kafedrası*

Dünya mədəniyyətinə bir sıra töhfələr vermiş bu özəl şərq ölkəsinin adı anılanda hər zaman ikebana, suşi, cüdo, karaoke göz önündə canlanır. Gündoğan məkanın mədəniyyəti və həyat tərzində əxlaq normaları və mənəviyyatın böyük fəlsəfəsi duyulur. Bu həyat fəlsəfəsinə heyran olduğum üçün yapon dilini öyrənməyə həvəsləndim. Bu yazıda sizinlə yapon həyat tərzinin bəzi məqamlarını bölüşmək istəyirəm.

**Meyvaku**

Meyvaku sözünün mənası narahat etmək və yaxud narahatlığa səbəb olmaqdır. Yaponların həyat prinsipi "meyvaku"ya yol verməmək, daha doğrusu öz davranışınla heç kimə zərər verməmək və ətrafdakıları qıcıqlandırıb, onların sinirləndirməməkdir. Yaşam tərzi razılıq və harmoniyanın vəhdətindən ibarət olmalıdır, hər kəs ətrafdakıları düşünməlidir: telefonla uca səslə danışarkən, ictimai yerdə dava-dalaş salarkən təmkinini qoruya bilmək bacarığı – "meyvaku"dur. Qonşunun avtopark meydanında öz maşını ilə iki yer tutduğunu seyr edəndə, "Yaxşı olardı ki, biz karaokedən daha çox, meyvaku prinsipini mənimsəyəydik"-deyə düşündüm.

**Sükubo**

Qədim Budda məbədinin ərazisində yerləşən zəvvar mehmanxanasında bir sıra adətlərə riayət edilir. Burada bir neçə əsr öncə olduğu kimi tataminin (bambuk döşəyi) üstünə qoyulmuş futon, yəni, yer döşəyinin üstündə yatmaq və yalnız tərəvəzdən ibarət vegetarian qidaları qəbul etmək olar. Kumako-kodo marşrutu ilə səyahət etmək istəyənlər üçün Sükubo mehmanxanasında gecələmək çox münasibdir, çünki dincəldikdən sonra Vakayama bələdiyyəsinə gedən yol, dağlar qoynundan keçən, qəlbi riqqətə gətirən, gözoxşayan füsunkar mənzərəsi ilə insanı valeh edir. Səyyahlara kiçik bir məsafəni qət edərək, ecazkar Natino-taki adlı şəlalənin yaxınlığında yerləşən Kumano-nati taysya adlı heyrətamiz bir məbədi ziyarət etmək təklif edilir.

**Onsen**

Bu, yaponlarda təbii isti sulardan faydalanmağın qədim ənənəsidir. Yapon dilində "onsen" isti su bulağı mənasını verir. Mehmanxanalarda, ticarət mərkəzlərində, hətta yaşayış evlərində də, təbiətdən qaynaqlanan mineral isti su hovuzları vardır. Ümumiyyətlə, yaponlar ağır iş günündən sonra rahatlanıb dincəlməyi önəmli sayırlar. Alimlər sübut edirlər ki, müntəzəm şəkildə "onsen" qəbul etmək bir sıra xroniki xəstəliklərin müalicəsinə təsir göstərir. Yaponlar bu mülahizəni şübhəsiz qəbul edirlər.
"Onsen"dən əvvəl, hər kəs paltarlarını soyunub, məxsusi yerdə təmiz yuyunub pak olmalıdır. "Onsen" məkanlarına dərisinə tatuaj rəsmləri vurmuş gənclərin girişi qadağandır.

# TEXNOLOJİ YENİLİKLƏR

## "Ağıllı" bilərzik kəllə sümüyü vasitəsilə telefon danışıqları aparır

İtaliyanın Turin Politexnik Universitetinin məzunları Eduardo və Emiliano Parini qardaşları "Get" startapını təqdim ediblər. Qurğuda düymə, sensor ekran və digər qurğuların qoşulması üçün konnektor yoxdur. O, yüngül zərbələrə və 10 m dərinliyə enməyə davamlıdır. Qurğunu 1 dəfə enerji ilə doldurduqda 5 gün işlətmək mümkündür. Bilərzik sahibini barmaq izi vasitəsilə tanıyır.
"Get"in idarəetmə sistemi jestlərə əsaslanır. Hər bir istifadəçi istənilən qədər jest-komanda düşünə, onları öz qadcetinə öyrədə və ya hazır təlimatlar dəstini yükləyə bilər. Bilərzik kənar istehsalçıların qurğuları və xidmətləri ilə işləyir, "Siri", "Google Assistant", "Alexa" və "Cortana" səs köməkçilərini dəstəkləyir.



## Süni beyin yaradırlar

Melburn Kral Texnologiya Universitetinin alimləri beyinin bioloji funksiyalarını təqlid edən mikroçip yaradıblar. Bu, xatirələri yaratmağa və yaddaşda saxlamağa imkan verir. Texnologiyanın əsasında optogenetika dayanır.
Mikroçip elektrik müqavimətinin müsbətdən mənfiyə doğru dəyişilməsi üçün işıq dalğalarından istifadə edir ki, bu da sinir əlaqələrinin formalaşması və qırılmasına gətirib çıxarır. Bu, xatirələrin yaradılması və itkisi ilə əlaqələndirilir. Yəni işığa qarşı həssas olan süni sinaps yaradılıb. Alimlər müxtəlif rəngli işıqlardan istifadə edərək, sinapsı aktivləşdirib və ya söndürüblər.



Bu sistem yeni nəsil süni intellektin əsasında dayana bilər. O, əsl insan kimi özünü inkişaf etdirəcək, öyrənəcək, yeni xatirələr yaradacaq və lazımsız informasiyanı siləcək.

## Mobil telefonları bədənin hərarəti ilə şarj edəcək material

Rusiyanın Milli Tədqiqat Texnoloji Universitetində (MİSiS) tədqiqatlar aparan beynəlxalq alimlər qrupu nano borucuqların əsasında termoelektrik polimer hazırlayıblar. Bu material insan bədəninin hərarəti ilə mobil cihazları şarj edən bilərzik-qurğuların hazırlanmasında istifadə olunacaq.
Kimyəvi birləşmələr və metal əritmələri termoelektrik materiallara aid edilir və onlar istini elektrik enerjisinə çevirə bilir.



# MƏN BELƏ ADAMAM, NEYLƏYİM DAHA

**Humanitar fənlər fakültəsinin dekanı, dosent Səfər Məmmədov Əli Həsənovun yaradıcılığı haqqında yazır.**
**Əli Həsənov Azərbaycan Universiteti rektorunun məsləhətçisi, universitetin Biznes və iqtisadiyyat fakültəsinin dekanıdır.**
**AFAM GROUP MMC-nin Direktorlar Şurasının üzvüdür.**
**Uzun müddət vergi orqanlarında rəhbər vəzifələrdə işləyib.**
**Ədəbi yaradıcılıqla da məşğul olur.**

Mənəviyyatı, insanlığı, mədəniyyətilə "mən axı insanam, mələk deyiləm" yazan mələklərdən də mələksima qələmdaşım, hər vaxtın xeyir. Son vaxtlar heç kim haqqında heç nə yazmasam da, sənin bu sətrinin sehrinə düşüb ürəyimi boşaltmaq istədim. Səni tanımasaydım, bu sətirlər olmayacaqdı. Xətrinə dəyməsin, indi onsuz da hamı yazır, yazmağı cəhənnəm, özünü az qala dünyanın ən böyük yazarı sayır. Saysın, kim nə deyir ki... Onsuz da məddahların, tərbiyəsizlərin, yaltaqların at oynatdıqları söz bazarına tarix öz damğasını vuracaq və onda həqiqi söz sahibləriylə yalançı söz "pəhləvanları" bir-bir əlahəzrət söz ələyindən keçməli olacaq. Onda kimin kim olduğu bilinəcək, kimdən gələcəyə nə qalacağı bəlli olacaq. İndi isə...

"Bu dəli sevdaya düçar olandan, Məni qınamayın, uşaq kimiyəm", - yazırsan şair. Sevmək elə uşaqlıq qədər pak olmaq deməkdir, qardaşım. Dünyanın hisi-nə-pasına bulaşmamış uşaqlıq. Hər sözə inanan, dünyanın yalnız ağ atlı oğlanlardan ibarət olduğuna inanan uşaqlıq. Elə bir dövr ki, burada şeytanlar, iblislər hələ at oynada bilmir, ancaq və ancaq xoş ətirli laləzarlıq var. Şər yoxdur, böhtan yoxdur, yalnız "körpə" ürəklərdən keçən "min istək" var. Bunu hamı başa düşsəydi, onda nə vardı ki... Nə müharibələr olardı, nə ölüm-itim, nə də ki dünyanı bürüyən aclıq, səfalət. Axı hər kəsin nə vaxtsa yaşadığı eşq havacatının əzəl nəqarəti də uşaqlıqdan yoğrulub. Bunu dərk edənlər Allah dərgahında mükafatlanar, dərk etməyənlər isə... Bax burda biz susuruq. Qoy hər kəs bu barədə özü düşünsün. Sizdən və bizdən demək qalacaq. Bir də həqiqi sevənlər başa düşəcək bunu. Sevgililərinə demək üçün ürəkləri dağ şəlaləsi kimi sözlə coşub-daşan həqiqi sevənlər. O zaman danışmağa da hacət qalmayacaq. Yalnız susmaq və sevgilinin dodağından süzülən bal kimi sözlərə qulaq asmaq, onu dinləmək keçəcək adamın ürəyindən:

Ürəyin dolu idi...
Sən buluddun, yağışdın,
Sevincindən alışdın,
Elə hey sən danışdın,
Mən də səni dinlədim...

Görəsən bu sətirləri yazanda hansı lövhəni yaratdığının fərqinə vardınmı, ay insafsız? Və ya nə vaxtsa əlinə fırça alıb, gözəl bir məhəbbət lövhəsi yaratmaq keçibmi ürəyindən? Buna cəhd etmisənmi? Etməmisənsə, dayan. Onsuz da bundan gözəl, bundan poetik nəsə yarada bilməyəcəksən. Sadəcə sus və dinlə. Qoy o danışsın. Sənsə onun "hər səhər" su yox, ürəyinin odu, hərarətilə suladığı "çiçəklər" ömür boyu yaşasın deyə həqiqi eşqdən danış, dünyanı mehvərindən qopara biləcək məhəbbət dastanını aləmə car çək. Başqa bir şeirində olduğu kimi:

Qanadlanıb qonaraq,
Çiyninə mələk kimi,
Köksündə ürək kimi,
Döyünmək istəyirəm...

Səmimi, özü də çox səmimi sətirlərdir. Adam təkcə bu sətirlərin hənirtisinə aylarla, illərlə isinə bilər. Yox, isinmək yox, bu sətirlərin əlindən tutub baş alıb dünyanın o başına gedər. Əzrail imkan verənə kimi. Əli müəllimin də istəyi budur:

Cənabi-Əzraildən,
Bir az möhlət istəyib,
Doyunca görüb səni,
Sonra əynə kəfəni,
Geyinmək istəyirəm...
Gözlərinə baxıb ölmək istəyirəm...

Həqiqi eşqin sonu ölümdür. Bəxtəvər ölüm buna deyirlər. Dəli kimi sevirsən, sevilirsən və bir də onda görürsən ki, yoxsan. Sevgilinin gözlərinə baxa-baxa həyatla vidalaşmısan. Heç "uf" da deməmisən. Bax əsl sevgi fəlsəfəsi (buna sevgi nağılı demək daha düzgün olar) budur. Vay ondadır ki, oxun daşa dəyə. Ən ülvi hisslər cavabsız qalanda dünya da mehvərindən qopar, onda qiyamət günü dediyimiz gün gələr və həyat sönər. Amma, deyəsən Əli müəllimin bu məsələyə də öz yanaşması var. Belə olmasaydı o, özünəməxsus soyuqqanlıqla:

Axan göz yaşını qurutmağını,
Közərən atəşi soyutmağını,
Ötəni, keçəni unutmağını,
Nakam məhəbbətdən küsməyi öyrən, -

deyə xoşbəxtliyi varda-dövlətdə axtaranlara belə xitab etməzdi. Müəllifi şəxsən tanımasaydım və ya onun iç dünyasına bələd olmasaydım, bəlkə də onun yazdıqlarına şübhə ilə yanaşar, səmimiyyətinə inanmazdım. Amma bəxtim onda gətirib ki, haqqında yazdığım adamı şəxsən tanıyıram və hər sətrin həzin bir musiqi kimi haqqdan yoğrulduğuna əminəm. Musiqidən söz düşmüşkən. Mənə elə gəlir ki, biz :

Köksümdə bir atəş qalanır mənim,
Ruhum bədənimdən ayrılır mənim,
Ölüm serenadam çalınır mənim,
Qəmli musiqinin sədası altda. -

deyən Əli müəllimin iç dünyasına səyahət etdikcə onun həm həyat fəlsəfəsini, həm də eşqə, məhəbbətə münasibətini daha yaxından dərk edəcəyik. Görünən odur ki, musiqi onun üçün təkcə incəsənətin bir növü deyil, kamillik və paklıq məqamıdır. Hər kəs bu mərtəbəyə çata bilmir. Xoş çatanların halına.

Getsəm də ruhumu aparacağam,
Ruhunu ruhumla qovuşduracam,
Sənə bir şeir də həsr edəcəyəm,
Qəmli musiqinin sədası altda.

Burdan o tərəfi olmur. Əsl sənətkarlıq budur. Musiqi adamı göylərə də qaldırır, yandırıb yaxa da bilir. Həqiqi eşq kimi. Gözəl musiqi də elə həqiqi eşqdən doğur. Sadəcə kimsə onu içində çəkir, onun istisinə, soyuğuna, qarına, küreyinə için-için yanır və bu barədə heç kimə heç nə deyə bilmir (daha doğrusu nəzmə çəkə bilmir), kimsə də Allahın ona bəxş etdiyi bu hissi hamıyla paylaşa bilir. Şeir, sənət diliylə. Bunların hər ikisi bəxtəvərliyin ən uca zirvəsinə qalxmış seçilmişlərdi. Dahi rus yazıçısı Kuprin yadınızdadırmı? Məhəbbəti dünyanın tacı sayırdı.

Könlümü vermək üçün,
Saçını hörmək üçün,
Üzünü görmək üçün,
Yerə göydən enəsən.

İnsan arzularla yaşayır. Kimsə təmtaraqlı həyat arzulayır, kimsə də sadəcə və sadəcə sevgilisinin saçlarına tumar çəkə-çəkə əcəl şərbətini içməyi. İkincilər daha xoşbəxtdilər. Səsləri də Allah dərgahına daha tez yetər.
Aqillərdən biri deyib ki, yazarlar söz oyunbazlarıdır. Yaxşı deyimdir. Amma xırda bir dəqiqləşməyə ehtiyacı var. Söz adamları həm də gözəl rəqqasdırlar. Sözlərin əsrarəngiz ritmlərinə qol götürüb süzməyi bacaran rəqqas. Əli müəllim kimi.
Uzatma saçlarını...

Sənsiz keçən hər ilim,
Doğransa dilim-dilim.
Ömürün son anında,
Gözünə baxa bilim.
Uzatma saçlarını...
Uzatma saçlarını...

Bakı, 07.08.2018

# V ənənəvi Karyera Günü

"Karyerada ilk addım" şüarı ilə bu il beşincisi təşkil olunan "Karyera Günü"ndə müxtəlif profilli şirkət, idarə və müəssisələr, dövlət orqanları, təhsil müəssisələri iştirakçılara öz vakansiyalarını, tələbələr üçün nəzərdə tutulan təcrübə və təqaüd proqramlarını təqdim ediblər.
Şirkət nümayəndələri və insan resursları üzrə menecerlər iştirakçıların həm iş müraciəti, həm də təcrübə keçmək üçün doldurduqları anketləri qəbul edib, onlara düzgün CV hazırlanması, iş müsahibələrinə hazırlıq, özünü təqdimetmə üsulları haqqında məsləhət və tövsiyələrini veriblər.




İş dünyasının aparıcı şirkətləri ilə birbaşa təmasda olan tələbə və məzunlar özəl sektor və dövlət qurumlarında işə qəbul prosesinin qaydaları və mərhələləri ilə tanış olub, suallarını insan resursları departamentinin nümayəndələrinə ünvanlama imkanı əldə ediblər.
Karyera Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirin məqsədi yuxarı kurs tələbələri və məzunlara müvafiq platforma təqdim etməklə onların iş dünyasına çıxışının dəstəklənməsi və gənclərin məşğulluq probleminin həllinə kömək göstərilməsidir.

**Tədbirdə iştirak edən şirkətlər**

AtaBank
AtaTravel
Synergy Group
Dövlət İmtahan Mərkəzi
Azərbaycan Respublikasının Prezdenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN Xidmət)
ASAN İnnovasiyalar Mərkəzi
İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu
İDRAK Texnoloji Transfer MMC
AtaHolding
Ataşgahsığorta
ATL Tech
Azercell
Baş Məşğulluq İdarəsi
Barattson
Cybernet
Azərbaycan Dəmir Yolları
Mənzil İnşaatı Dövlət Agentliyi
Mərkəzi Bank
Kapital Bank
Nikoil Bank
Exspressbank
AzərTürkBank
Azərbaycan Beynəlxalq Bankı
Millikart
"Nömrə 1" Tədris Mərkəzi
Oxbridge Academy
R.İ.S.K Company
SOCAR
Ultra
Veysəloğlu
Gilan Holding
"İnci" Şirkətlər qrupu
AVT Logistika
Odlar Yurdu sığorta brokeri
Şəms Tərcümə Xidmətləri
Vision Academy
Oscar Education



## "Vətən dərsi: Şəhadət" filminin nümayişi

Azərbaycan Universitetində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında Mənəvi Dəyərlərin Təbliği Fondu və "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin birgə layihəsi əsasında lentə alınmış "Vətən dərsi: Şəhadət" sənədli filminin nümayişi və müzakirəsi keçirilib.
Filmdə torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman oğul və qızlarımızın timsalında şəhidliyin uca və müqəddəs zirvə olduğu vurğulanır, paralel olaraq radikal dini cərəyanların qurbanına çevrilmiş şəxslərin doğmaları yaxınlarının bu cərəyanlara qoşulmasından və yaşadıqları əziyyətlərdən danışırlar.



Filmin nümayişi 2016-cı il aprel döyüşlərinin üçüncü ildönümü münasibətilə təşkil olunub.



## I kurs tələbələri üçün "Lələtəpədə yazılan dastan" filminin nümayişi

Azərbaycan Universitetinin məzunu və Aprel şəhidi Fəxrəddin Qurbanlının xatirəsinə həsr olunan sənədli film Şəhid Ailələrinə Yardım və Hüquqlarının Müdafiəsi İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə hazırlanıb.
Filmdə şəhidin ailə üzvləri, orta məktəb və universitet müəllimləri, sinif və qrup yoldaşları, yaxınları onun keçdiyi həyat yoluna işıq salır, xatirələrini bölüşürlər.
Şəhidin ailə üzvləri filmi universitet heyəti və tələbələrlə birlikdə izləyib.

## "Empatiya" klubunun üzvləri Dövlət Pantomim Teatrında

Sosial işin təşkili kafedrasının nəzdində fəaliyyət göstərən "Empatiya" klubunun təşəbbüsü, Azərbaycan dili və ədəbiyyat kafedrasının dəstəyi ilə Tərcümə (İngilis dili), Sosial iş və Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisaslarında təhsil alan tələbələrin Azərbaycan Dövlət Pantomim Teatrında "Underground" (Yeraltı) tamaşasına baxışı təşkil olunub.
Teatrın repertuarında xüsusi yer tutan yeni "Underground" tamaşası aktyorların fantaziyasında qaranlıq yeraltı dünyada baş verən proseslərdən, insanın qarşılaşdığı problemlərdən xilas ola bilmək bacarığından bəhs edir. Tamaşanın məqsədi XXI əsrin bəlası olan narkomaniya və onun törətdiyi sağalmaz fəsadların yeniyetmə və gəncləri qarşısı alınmaz təhlükəyə sürüklədiyini çatdırmaqdan ibarətdir.



## "Audiokitab" layihəsinin təqdimatı

Təqdimatda layihənin tarixi, məqsədləri, texniki tərəfləri haqqında məlumat verilib. Layihənin rəhbəri Həsən Həsənov "Audiokitab"ın 2015-ci ildə fəaliyyətə başladığını, 2018-ci ilin dekabr ayından isə bütün dünyada yayımlandığını qeyd edib. Layihə rəhbəri bildirib ki, Azərbaycanda ilk dəfə həyata keçirilən layihədə ədəbiyyatın bütün sahələrinə aid 700-dən çox kitab peşəkar aktyorların ifasında səsləndirilib. "Audiokitab"da Azərbaycan tarixi, Türk xalqları və Şərq ölkələrinin tarixi haqqında mühazirələr də öz əksini tapıb. Kitabların səsləndirilməsi davam edir.



Mətnləri səsləndirən aktyorlar Kamal Yaşar, Əhliman Ərşadlı, YUĞ Dövlət Teatrının aktrisası Təranə Ocaqverdiyeva və sənətşünaslıq üzrə fəlsəfə doktoru, aktrisa Zülfiyyə Eldarqızı tədbir iştirakçıları üçün ədəbi nümunələr və şeirlər səsləndiriblər. Layihə mobil tətbiq üzərindən xidmət göstərir. AppStore yaxud GooglePlay üzərindən "Audiokitab" mobil tətbiqini ödənişsiz yükləyib kitablarla tanış olmaq mümkündür.
"Audiokitab" ictimai nəqliyyatda səyahət zamanı, istirahətdə, müəyyən işləri yerinə yetirərkən kitab dinləməyə imkan yaradır. Gözdən əlilliyi olan insanlar da layihədən asanlıqla faydalana bilərlər. "Audiokitab" sayəsində  Azərbaycan tarixi və ədəbiyyatı ölkəmizin hüdudlarından kənarda yaşayan bütün həmvətənlərimiz üçün əlçatandır.

## "Enterprise Azerbaijan"ın startap təlimi

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin www.enterpriseazerbaijan.com portalı və Vergilər Nazirliyinin dəstəyi ilə "Startapa necə başlamalı: iqtisadi, hüquqi və təşkilati əsaslar" mövzusunda təlimdə 100-dən çox tələbəmiz iştirak edib. Təlim yeni ideya və layihələr həyata keçirmək istəyən startapçıları, o cümlədən kiçik və mikro sahibkarları biznesə başlamanın hüquqi və praktiki tərəfləri haqqında məlumatlandırmaq məqsədilə təşkil edilib.
Portalının meneceri Aytən Məmmədova portalın fəaliyyəti və həyata keçirilən layihələr haqqında danışıb.  Azexport.az portalının rəhbəri Zaur Qardaşov iştirakçıları saytın fəaliyyəti, "Baku E-Commerce Academy" ilə birlikdə həyata keçirilən "Amazonla qazan" layihəsi və internetdə özünüməşğulluq haqqında məlumatlandırıb.



Vergilər Nazirliyinin nümayəndəsi Hacı Qasımov "Vergi məcəlləsinə 2019-cu il yanvarın 1-dən qüvvəyə minmiş dəyişikliklər, onların tətbiqi mexanizmi, yeni anlayışlar, tətbiq edilən mexanizmlər" haqqında məlumat verib.
"EnterpriseAzerbaijan" portalının ekosistemində yer alan və "British Council"ın "Kreativ qığılcım" layihəsinin meneceri kimi fəaliyyət göstərən Oruc Dursunzadə layihənin praktiki tərəfləri barədə danışıb.

## Tələbələrimiz ADİU-nun beynəlxalq konfransında

Biznes və iqtisadiyyat fakültəsinin tələbələri Həsrətli Ləman, Musayeva Mədinə, Mehdiyeva Ülviyyə, Məmmədova Rübabə, Bayramzadə İlahə, Mikayılova Afət, Novruzlu Elbəy, Sədiyeva Vəfa və Vəliyev Tuncay Azərbaycan Dövlət İqtisad Universitetində "Tədqiqatçı Gənclərin Beynəlxalq Konfransı"nda məruzə ilə iştirak ediblər. Tələbələrimiz konfransa Maliyyə və iqtisadiyyat kafedrasının müəllimi Zeynəb Qiyasovanın rəhbərliyində hazırlaşıblar.



## Tələbələrimiz ADMİU-nun konfransında

Sosial iş ixtisası üzrə təhsil alan bakalavriat tələbələri Elçin Abdullayev, Rahib Qaraşlı və magistrantlar Mehriban Qənbərova, Əsli Xəlilova Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilən "Sosial iş tədrisində nəzəriyyə və təcrübənin qarşılıqlı əlaqəsinin əhəmiyyəti" mövzusunda I ümumrespublika tələbə konfransında məruzə ilə iştirak ediblər.



Elçin Abdullayev və Rahib Qaraşlı "Görmə məhdudiyyətli gənclərin qarşılaşdığı çətinliklər" mövzusunda məruzə ediblər. Mehriban Qənbərovanın məruzəsi "Yeniyetməlik yaşında mövcud olan problemlərin həllində sosial işin rolu" mövzusuna həsr olunub. Əsli Xəlilova isə "Əlilliyi olan gənclərlə sosial işin praktikası" mövzusunda çıxış edib.

## Tələbələrimiz ADU-da tələbə-şagird elmi konfransında

Humanitar fənlər fakültəsinin tələbələri Fəranə Mikayılova, Könül Piriyeva, Sarvan Əliyev, Orxan Eyvazlı, Pənah Piralıyev, Ruslan Ağakişiyev və Tünzalə Kazımova Azərbaycan Dillər Universitetinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və müasir Azərbaycan təhsili" respublika tələbə-şagird elmi konfransında məruzə ilə iştirak ediblər.



Konfransda Fəranə Mikayılova "Sərgüzəşti-mərdi-xəsis" (Hacı Qara) komediyasında Hacı Qaranın xəsisliyinin üzə çıxdığı məqamlar", Könül Piriyeva "Bədii əsərlərdə antitezanın üslubi imkanları", Sarvan Əliyev "F.Kərimzadənin "Xudafərin körpüsü" əsərində toponimlər", Orxan Eyvazlı "Qloballaşan dünyada multikulturalizmin modelləri", Pənah Piralıyev "Qafqaz evi və Azərbaycan", Ruslan Ağakişiyev "Azərbaycanın Rusiya ilə münasibətlərində neft amili", Tünzalə Kazımova "Azərbaycan Respublikasının Avropaya inteqrasiyası" mövzusunda çıxış edib.

## Tələbələrimiz dağ yəhudiləri sinaqoqunu ziyarət edib

Sosial iş ixtisası üzrə təhsil alan III kurs tələbələrinin müəllimlər Tünzalə Verdiyeva və Gülnar Abbasovanın rəhbərliyində



Bakıdakı dağ yəhudiləri sinaqoqunda icma sədri Milix Yevdayevlə görüşü keçirilib. Milix Yevdayev tələbələrə icmanın və sinaqoqun fəaliyyəti haqqında məlumat verib, tələbələrin yəhudilərin inanc və ibadətləri ilə bağlı suallarını cavablandırıb.

## Baş narkoloq Araz Manuçəri tələbələrə mühazirə oxuyub

Sosial iş tələbələri üçün narkotiklə mübarizə sahəsində maarifləndirmə tədbirləri çərçivəsində  təşkil olunan seminarı Respublika Narkoloji Mərkəzinin direktoru, baş narkoloq Araz Manuçəri aparıb.



Seminarda narkomaniyanın cavanlaşmasının səbəbləri, risk faktorları və onların aradan qaldırılması yolları, narkomaniyanın zahiri və davranış əlamətləri, insan orqanizmində yaratdığı fəsadlar, faciəvi nəticələri, səbəb olduğu xəstəliklər və narkotik asılılığı olan insanların müalicə prosesi haqqında məlumat verilib.

## Sosioloq Əhməd Mansurov tələbələrə mühazirə oxuyub

"Gənclər İnkişaf Naminə" İctimai Birliyinin sədri, sosioloq Əhməd Mansurov qonaq mühazirəçi qismində Sosial iş tələbələrinə "Zorakılıq və məişət zorakılığı" mövzusunda mühazirə oxuyub.



Mühazirə zorakılıq anlayışı, səbəbləri, növləri, əlamətləri, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun tətbiqi və başqa bu kimi mövzuları əhatə edib.

## "İcma quruculuğu" təlimi

Praktik təlimdə icma səfərbərliyinin mərhələli həyata keçirilməsi prosesində sosial işçinin rolu, yerli icmaların təşkili, icmadaxili və icmalararası inteqrasiya, icma şəbəkələrinin təşkili haqqında məlumat verilib, "İnsan məskən salır" mövzusunda psixo-drama keçirilib.



## "Dil normalarını pozan qısaltmalar" mövzusunda seminar

Tədbir Azərbaycan Universitetinin tərcümə ixtisası üzrə təhsil alan bakalavriat tələbələri və Xəzər Universitetinin dilşünaslıq ixtisası üzrə təhsil alan magistratura tələbələri üçün təşkil olunub. "İkimənalılıq və sosial şəbəkələrdə dil normalarını pozan qısaltmalar" mövzusunda seminarı Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Milana Abbasova və Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimova aparıb.



Seminarda elmi tədqiqat işinin yazılması prosesində mövzu seçimi, tədqiqat işinin strukturu, yazılması qaydaları, elmi mənbələrdən istifadə haqqında məlumat verilib, sosial şəbəkələrdə abreviatura, akronim, numeronim və piktoqramların istifadəsi nəticəsində yaranan ikimənalılıq və dil normalarının pozulmasından bəhs edilib.

## Karyera yüksəlişinə həsr olunmuş mühazirə

Biznes və iqtisadiyyat fakültəsinin tələbələri üçün növbəti fərdi inkişaf mühazirəsi karyera yüksəlişinin planlaşdırılmasına həsr olunub. Mühazirəni maliyyə və audit sahəsi üzrə mütəxəssis, "Deloitte" şirkətinin Avstraliya üzrə nümayəndəliyinin əməkdaşı Elnur Fətullayev aparıb. "Deloitte" ilə birlikdə böyük audit dördlüyünə daxil olan "Ernst&Young" şirkətində də təcrübəsi olan Elnur Fətullayev tələbələrə karyera planlaşdırılmasının əhəmiyyəti, karyera yüksəlişi üçün hədəf və məqsədlərin düzgün müəyyənləşdirilməsi haqqında danışıb, öz uğur hekayəsini tələbələr ilə bölüşərək seçdikləri ixtisasa dərindən yiyələnmələrini tövsiyə edib.
Qonaq tələbələrə böyük dördlük şirkətlərində təcrübə ilə bağlı məlumat verib, onların suallarını cavablandırıb.



## Təhsil tətbiqlərinə həsr olunmuş seminar

"Educational Apps in Classrooms" (Sinif otaqlarında təhsil tətbiqləri) adlı təlimi Xarici dillər kafedrasının müəllimi Pərvanə Mövsümova aparıb.
Təlimdə iştirakçılara dilin öyrənilməsi üçün lazım olan bir sıra tətbiqlərin istifadə qaydaları və səmərəli istifadəsi haqqında məlumat verilib.
Dil öyrənmə prosesinin asanlaşdırılması üçün göstərilən tətbiqlər tələbələrin böyük marağını cəlb edib.



## "CanSat Azərbaycan"ın finalında iştirak



Azərbaycan Universitetinin "AU&SAT" komandası "CanSat Azərbaycan 2019" tələbə model peyk müsabiqəsinin final mərhələsində mübarizə aparıb. Komandanın tərkibinə Lalə Muxtarlı (kompüter elmləri, magistratura), Fəhmin Zakirli (kompüter mühəndisliyi, bakalavriat), Əlizaman Həbibli (kompüter mühəndisliyi, bakalavriat) və Xəyal İsmayılov (kompüter mühəndisliyi, bakalavriat) daxildir.
Bu mərhələdə iştirak hüququ əldə edən komandaların sayı 13-dür. Komandamız 9-cu yerdə qərarlaşıb.

## İnformatika olimpiadasının finalında iştirak



İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin kompüter mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələri Əlizamin Həbibli, Fəhmin Zakirli və Nigar Ələkbərovadan ibarət komandamız "Ali məktəb tələbələri arasında informatika üzrə Ümumrespublika Olimpiadası"nın final mərhələsində iştirak edib.
Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi və AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən olimpiada "17 May — Dünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü"nə həsr olunur.
Olimpiadanın final mərhələsinə respublika üzrə 17 ali təhsil müəssisəsinin ən yaxşı nəticə göstərən 17 komandası vəsiqə qazanıb.

## Mühasibatlıq olimpiadasında yüksək nəticə



Biznes və iqtisadiyyat fakültəsinin tələbəsi Rəhimli Kənan "Gənclər üçün Mühasibatlıq üzrə II Olimpiada"da VI yerə çıxıb. Azərbaycan Universiteti müsabiqənin final mərhələsində 4 tələbə ilə təmsil olunub. Rəhimli Kənan ilə yanaşı Cəfərova Fatimə, Məmmədli Hilal və Saatov Rövşən daxili seçim turunda yüksək nəticə göstərərək müsabiqənin finalında iştirak hüququ qazanıblar.
Olimpiadanın finalı Bakı Konqres Mərkəzində keçirilib. Ümumilikdə 11 universitetin 400-dən çox tələbəsini əhatə edən müsabiqənin final mərhələsində 45 tələbə iştirak edib.
Olimpiada Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Gənc Mühasiblər" İctimai Birliyi tərəfindən təşkil olunub.

## ECDL və PTE beynəlxalq sertifikat kurslarında 20 tələbə iştirak edib

Beynəlxalq sertifikatların geniş karyera imkanlarını, daxili və xarici əmək bazarında qazandırdığı üstünlükləri nəzərə alan Azərbaycan Universitetində aylıq 200 manat təqaüd alan əlaçı tələbələr üçün ECDL və PTE təlimləri təşkil olunub. Təlimlərdə 20 tələbə iştirak edib. Kursların və imtahanların ödənişləri universitet tərəfindən qarşılanır.



Təlimlərin ardından keçiriləcək imtahanlardan uğurla keçən tələbələr ingilis dili biliklərini və kompüter bacarıqlarını beynəlxalq səviyyəli sertifikatla təsdiq edə biləcəklər.

## Erasmus tələbələri

Beynəlxalq əlaqələrin genişləndirilməsini daim diqqət mərkəzində saxlayan Azərbaycan Universiteti öz tələbələrinə Türkiyə və Avropanın qabaqcıl universitetlərində təqaüdlü təhsil imkanları yaradır. Universitetin qoşulduğu mübadilə proqramları və layihələrlə xaricdə oxuyan tələbələrin sayı hər il daha da artır.
Humanitar fənlər fakültəsində Tərcümə (İngilis dili) ixtisası üzrə təhsil alan tələbələrimiz Hüriyə Səlimova (IV kurs) və Nurlan Vəlizadə (III kurs) 2019/2020-ci tədris ilinin payız semestrində təhsillərini Almaniyanın Koblenz Universitetində davam etdirəcəklər. "Erasmus+" mübadilə proqramı çərçivəsində seçim prosesinin bütün mərhələlərini uğurla keçərək bu universitetdən dəvət alan tələbələrimiz sentyabr ayında Almaniyaya yola düşəcəklər.



Tələbələrimiz Toğrul Quliyev (Menecment, IV kurs) və Ayaz Mirzəyev (Maliyyə, III kurs) isə 2018/2019-cu tədris ilinin yaz semestrini Xorvatiyanın Dubrovnik universitetində oxuyub. Tələbələrimiz semestri uğurla başa vurub vətənə qayıdıblar.
2018/2019-cu tədris ilinin yaz semestrini "Erasmus+" mübadilə proqramı ilə Azərbaycan Universitetində oxuyan Almaniyanın Koblenz Universitetinin tələbələri Lea Kordus və Alexandra Piscalar da təhsillərini uğurla başa vurub ölkələrinə qayıdıblar.



Erasmus tələbələri təhsil aldıqları dövrdə tam təqaüdlə (hər ay üçün 800 avro) təmin olunurlar, eyni zamanda yol xərcləri (500 avro) qarşılanır. Tərəfdaş universitetlərdə əldə olunan kreditlər tələbənin təhsil aldığı universitetə transfer olunur və müvafiq qaydada tanınır.

## Azərbaycan Universitetinin tələbələri beynəlxalq PTE sertifikatı alıb

Azərbaycan Universitetinin üç tələbə və bir məzunu PTE (Pearson Test of English) imtahanlarında müvəffəqiyyət əldə edərək beynəlxalq dil sertifikatının "Upper-intermediate" (level 3) səviyyəsini təmin edib. İmtahan yazılı və danışıq olmaqla iki hissədən ibarət olub.
İmtahanda keçən il "Intermediate" səviyəsi üzrə sertifikat əldə edən və növbəti pillə üçün təlimlərə cəlb olunan 8 tələbə iştirak edib. Onlardan 4-ü bir üst səviyyəyə - "Upper-intermediate" səviyyəsinə keçməyə nail olub. Əldə olunan göstərici beynəlxalq imtahanların ekvivalentliyi üzrə B2= IELTS 5-6.5 və ya TOEFL 87-109-ə bərabərdir. Təlimlərin və imtahanın xərcləri Azərbaycan Universiteti tərəfindən qarşılanıb.
Uğurlu tələbələr Biznes və iqtisadiyyat fakültəsinin tələbələri Elmixan Əliyev (Maliyyə, IV kurs), Nicat Zeynalov (Maliyyə, IV kurs), Humanitar fənlər fakültəsinin tələbəsi İslam Şirəliyev (Tərcümə, ingilis



dili, III kurs), uğurlu məzun isə Əfsanə İsmayılovadır. O, universiteti 2019-cu ildə Maliyyə ixtisası üzrə bitirib. İmtahan iştirakçıları ilə müqayisədə yüksək nəticə göstərən Elmixan Əliyev daha üstün sertifikatla (Pass with merit) təltif olunub. Beynəlxalq sertifikatların geniş karyera imkanlarını, daxili və xarici əmək bazarın-



da qazandırdığı üstünlükləri nəzərə alan Azərbaycan Universiteti öz tələbələrinə bu sertifikatları əldə etmək üçün geniş imkanlar yaradır. PTE (Pearson Test of English) IELTS və TOEFL ilə yanaşı ingilis dili biliyini beynəlxalq səviyyədə təsdiq edən ən məşhur sertifikatlardan biri olub, bir-biri ilə sıx bağlı 6 pillədən ibarətdir.
Qeyd edək ki, Azərbaycan Universiteti PTE-nin imtahan alt mərkəzi kimi təsdiq olunub. Universitetin bu sertifikatın təlimlərini və imtahanlarını təşkil etmək hüququ var.

## Bakalavriat və magistratura tələbələri diplomqabağı təcrübə keçib

Bakalavriat pilləsində təhsil alan 161 tələbə 18 fevral – 24 may tarixləri arasında müxtəlif qurumlarda istehsalat təcrübəsi keçib. Vergilər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, ASAN Xidmət, Kapital Bank, Respublika Bank, AMEA-nın müxtəlif institutları, Yasamal rayon Bələdiyyəsi, SOS Uşaq Kəndləri və digər dövlət orqanları və biznes qurumlarında təcrübəçi tələbələrə 38 müəllim rəhbərlik edib.
7 ixtisas üzrə 32 magistratura tələbəsi isə 12 fevral -11 mart tarixləri arasında elmi tədqiqat, 12 mart – 8 aprel tarixləri arasında elmi-pedaqoji təcrübədə olub.

# Təlim və Tədris Mərkəzi
## Teaching and Learning Centre

**ECDL beynəlxalq sertifikat kursu**
European Computer Driving Licence
**PTE beynəlxalq sertifikat kursu**
Pearson Test of English
**Müxtəlifyönümlü sertifikat kursları və təlimlər**




Mərkəz PETRA layihəsi (Azərbaycan universitetlərində öyrənmə və təlimin təkmilləşdirilməsi / Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities) çərçivəsində yaradılıb.
Zəngin texniki avadanlıqla təchiz olunan mərkəzdə müəllim və tələbə heyəti üçün zəruri təlim və seminarlar təşkil olunur.
ECDL, PTE Academic kimi beynəlxalq sertifikat kurslarının və imtahanlarının keçirilməsinin təmin olunması da mərkəzin vəzifələri sırasındadır.

Kompüter biliklərini beynəlxalq səviyyədə təsdiq edən ECDL sertifikatı dünyada 150-dən artıq ölkə tərəfindən tanınır.
Azərbaycan Universiteti beynəlxalq ECDL sertifikat proqramının ölkəmizdəki rəsmi Akkreditasiya Olunmuş Test Mərkəzi (ATM) olaraq fəaliyyət göstərir.
PTE (Pearson Test of English) isə IELTS və TOEFL ilə yanaşı ingilis dili biliyini beynəlxalq səviyyədə təsdiq edən ən məşhur sertifikatlardan biridir. Azərbaycan Universiteti PTE-nin imtahan alt mərkəzi kimi təsdiq olunub.

*Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Beynəlxalq əlaqələr, informasiya və mətbuat xidməti departamenti, məsləhətçi*

*Panorama.az xəbər portalının təsisçisi*



# Orxan Aslanlı

Jurnalistika, bakalavriat, 2013

Orxan Şamxal oğlu Aslanlı 1992-ci ildə Qubadlı rayonunda anadan olub. 2009-cu ildə Azərbaycan Universitetinin jurnalistika ixtisasına qəbul olub, 2013-cü ildə bu ixtisas üzrə bakalavr dərəcəsi alıb.
2009-cu ildə "Ədalət" qəzeti, 2010-cu ildə "Azərbaycan gəncliyi" qəzeti, 2011-ci ildə APA informasiya agentliyində müxbir vəzifəsində, 2012-2013-cü illər ərzində Vergilər Nazirliyi yanında Vergi Operativ Nəzarət İdarəsində vergi müfəttişi vəzifəsində çalışıb.
2014-2017-ci illərdə ANN.Az və ANN TV-nin xüsusi və aparıcı müxbiri, ANN TV-də bir neçə layihənin müəllifi, bu media qurumunda "Nazirə Sual" verilişinin aparıcısı olub. 2017-ci ildə A24.Az xəbər portalında xüsusi müxbir vəzifəsində çalışıb.
2017-ci ildə British Council və Paşa Bankın birgə layihəsi olan "Biznes Jurnalistika" müsabiqəsinin qalibi olaraq BBC, "Associated Press", "Əl-Cəzirə" kimi media qurumlarında təcrübə keçib, "Thomson Foundation" tərəfindən diplomla təltif olunub.
2017-2019-cu illərdə "AzeriDefence" jurnalı və saytında xüsusi müxbir vəzifəsində çalışıb.
I Avropa Oyunları və IV İslam Həmrəylik Oyunlarında xüsusi jurnalist kimi fəaliyyət göstərib.
Dövlət və özəl qurumların təşkil etdiyi yazı müsabiqələrinin qalibidir.
2019-cu ilin fevral ayından etibarən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Beynəlxalq əlaqələr, informasiya və mətbuat xidməti departamentinin məsləhətçisi vəzifəsini icra edir.
Panorama.az xəbər portalının təsisçisidir.

*Azərbaycan Universiteti*

*Baş müəllim*



# Sevinc Eyvazova

Beynəlxalq iqtisadi əlaqələr, bakalavriat, 1995

Sevinc Arif qızı Eyvazova 1975-ci ildə Biləsuvar rayonu Bağbanlar kəndində anadan olub. 1991-ci ildə Bağbanlar kənd orta məktəbini bitirib.
1995-ci ildə Azərbaycan Universitetindən Beynəlxalq iqtisadi əlaqələr ixtisası üzrə fərqlənmə diplomu ilə məzun olaraq bakalavr dərəcəsi alıb.
2002-ci ildə Azərbaycan Dillər Universitetinin filologiya fakültəsini bitirib. 2006-cı ildə həmin universitetdən ingilis dili və ədəbiyyatı ixtisası üzrə magistr dərəcəsi alıb.
Əmək fəaliyyətinə 1994-cü ildə Azərbaycan Universitetinin Xarici dillər kafedrasında laborant olaraq başlayıb. 2001-ci ildən müəllim, 2011-ci ildən baş müəllimdir.

*Dünya Gənc Türk Yazarlar Birliyinin sədri*



# İntiqam Yaşar

Azərbaycan dili və ədəbiyyatı, bakalavriat, 2012

İntiqam Yaşar (Cavanşir İntiqam Yaşar oğlu) 1990-cı ildə Gədəbəy rayonunda anadan olub. 2008-ci ildə Firdovsi Əliyev adına Çobankənd orta məktəbini bitirib. 2008-ci ildə Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyatı ixtisasına qəbul olub, 2012-ci ildə bu ixtisas üzrə bakalavr dərəcəsi alıb.
2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Təqaüd Fondunun təqaüdünə layiq görülüb. 2015-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. AYB-nin təşkilatçılığı ilə keçirilən "Ən yaxşı şeir" müsabiqəsinin qaliblərindən olub. 2015-ci ildəki uğurlu fəaliyyətinə görə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin "İlin gənci", 2019-cu ildə isə Azərbaycan Yazıçılar Birliyinin "Uğur" mükafatına layiq görülüb. Şeirləri və publisistik yazıları ilə Azərbaycan və Türkiyə mətbuatında müntəzəm olaraq çıxış edir. Şeirləri müxtəlif dillərə (ingilis dili, rus dili, belarus dili, Türkiyə türkcəsi, özbək türkcəsi və s.) uyğunlaşdırılıb. "İlk görüş" (2012), "...və susarsan" (2016), "Evdə yoxam" (2018) adlı şeir kitabları çap olunub.
Əmək fəaliyyətinə 2013-cü ildə Dünya Gənc Türk Yazarlar Birliyində idarə heyətinin üzvü olaraq başlayıb. 2016-2019-cu illərdə birliyin sədr müavini olub. 2019-cu ildən sədr vəzifəsini icra edir.

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi*

*Aparıcı məsləhətçi*



# Məltəm Cahangirzadə

Sosial iş, bakalavriat, 2017

Məltəm Kamil qızı Cahangirzadə 1994-cü ildə Bakı şəhərində anadan olub. 2012-ci ildə Eldar Tağızadə adına 164 nömrəli məktəbi bitirib. 2012-ci ildə Azərbaycan Universitetinin Sosial iş ixtisasına qəbul olub.
2015-2016-cı illərdə Azərbaycan Universiteti tərəfindən İsveç şəhərinin Lund Universitetinə göndərilib. Burada "Linnaeus Palme" mübadilə proqramı çərçivəsində Sosial iş ixtisası üzrrə 2 semestr təhsil alıb.
2017-ci ildə həmin ixtisas üzrə bakalavr dərəcəsi alıb.
Əmək fəaliyətinə 2017-ci ildə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığında (UNHCR) – qaçqınların sosial qiymətləndirilməsi layihəsində sosial işçi kimi başlayıb.
2019-cu ildən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Sosial təminat siyasəti şöbəsinin, Dövlət sosial xidmət siyasəti sektorunun aparıcı məsləhətçisi vəzifəsində çalışır.




# Azərbaycan Universitetinin məzun və tələbələri "DOST" agentliyində işə başlayıb

Azərbaycan Universitetinin 3 məzunu və 2 magistratura tələbəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyində işə başlayıb. 3 məzun və 1 magistratura tələbəsi isə DOST könüllüsü kimi fəaliyyət göstərir. Onlar Dövlət Sosial Müdafiə Fondundun qəbul mərkəzində vətəndaşlara xidmət göstərir, sonrakı mərhələdə isə öz fəaliyyətlərini "DOST" mərkəzlərində davam etdirəcəklər.

Əmək fəaliyyətinə başlayan məzunlarımız Qara Rəhimov 2014-cü ildə ildə, Samir Hüseynov və Turan Sadıqov 2016-cı ildə Sosial iş ixtisası üzrə məzun olublar. Mehriban Qənbərova və Nilufər Əliyeva isə Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş ixtisası üzrə magistratura II kurs tələbəsidirlər.

Ali təhsil müəssisəsinin Sosial iş ixtisası üzrə 2017-ci il məzunu Arzu Məsimov, 2018-ci il məzunu Kənan Əliyev, 2019-cu il məzunu Zeynal Fərəcov, Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş ixtisası üzrə magistratura II kurs tələbəsi Əsli Xəlilova isə DOST könülülsüdür.

Qeyd edək ki, DOST agentliyi "DOST" mərkəzlərini idarə edir, onların fəaliyyətinə nəzarət və qiymətləndirməni həyata keçirir. DOST mərkəzi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat, habelə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun digər sahələrdə xidmətlərin həyata keçirilməsini təmin edir.

AZƏRBAYCAN
UNİVERSİTETİ

*Gələcəyini bu gün seç!*




## 6 aylıq icmal jurnalı

Ünvan: AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi, 71

Tel.: (+994 12) 431 41 12/13/16/17
office@au.edu.az
www.au.edu.az